www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 yanvar 2015-ci il Bazar ertəsi № 17 (6045) Qiyməti 40 qəpik

**Xəbər**

## Ata qəza törətdi, 15 yaşlı qızını itirdi...

yazısı səh.14-də

**Gündəm**

### Bu gün AŞ PA-nın qış sessiyası başlayır



Sessiyada Azərbaycanda insan haqları məsələsi də gündəliyə salına bilər; ekspertlərə görə, Qərb Bakı ilə münasibətləri yenidən tənzimləmək istəyir, amma...

yazısı səh.4-də

### Həbsdə doğan Lamiyə Quliyevanın şok açıqlamaları üzə çıxdı

yazısı səh.12-də

### Dilqəm Əsgərov və Şahbaz Quliyevin əfv ərizəsi məsələsinə iki baxış

yazısı səh.6-da

### Keçmiş siyasi məhbus Müsavatdan çıxarıldı

yazısı səh.5-də

### Dövlət büdcəsinin "Naxçıvan dərdi"

yazısı səh.6-da

*Ekspert:*

### "Moskva Ermənistanı Azərbaycanla qorxudur"

yazısı səh.8-də

*Şikayətçi xanım:*

### "Biləsuvar gömrüyündə məni zorlamaq istədilər..."

yazısı səh.12-də

### Rusiya Ukraynaya müdaxilənin bir addımlığında

yazısı səh.3-də

*İqtisadçı ekspertlər:*

### "Neft yaxın 2-3 ildə bahalaşmayacaq..."

yazısı səh.13-də

### Bakı apteklərində də nisyə dəftərləri var - əməkdaşımızın qeydləri

yazısı səh.14-də

### Türmədə baş tutan ilginc evlilik hekayələri

yazısı səh.15-də

### Çingiz Dəmiroğlu vəfat etdi

yazısı səh.2-də

## Diplomatik korpusun təhlükəsizliyi ilə bağlı xüsusi addım

# BAKIDA SƏFİRLİKLƏRİN MÜHAFİZƏSİ GÜCLƏNDİRİLDİ - İŞİD TƏHLÜKƏSİ

Təkcə yanvar ayında Azərbaycana bu təhlükə ilə bağlı beynəlxalq mediada bir neçə məqalə dərc olunub; təhlükəsizlik tədbirlərinin terror təşkilatlarının dünyada yaratdığı psixoloji gərginliyi aradan qaldırmağa xidmət etdiyi deyilir; ekspertdən sensasiyalı iddia...



yazısı səh.9-da

## General-biznesmenin obyektində ticarətçilərə divan tutulur

"Lotos" və "Diqlas"da alverlə məşğul olanların malları zorla əllərindən alınır; Əli Nağıyevin biznes imperiyası hərbləşdirilmiş quruma çevrilib..

yazısı səh.10-da



*Qüdrət Həsənquliyev:*

### "Hakimiyyəti inqilabi yolla dəyişmək istəyənlər bu xalqın düşmənidir"

yazısı səh.7-də



### İsa Sadıqov erməni xalqına müraciət etdi

yazısı səh.11-də



### Leyla Yunusun istintaqı 2016-cı ilə qədər uzana bilər

yazısı səh.5-də



## Barak Obama Hindistana gedib

**Ötən bazar Barak Obama ABŞ prezidenti qismində ikinci dəfə Hindistana səfər edib. «Reuters"in məlumatına görə, Obama bildirib ki, 21-ci əsrin ən etibarlı əlaqəsini yaratmaq üçün Hindistana gəlib.**

Agentlik ABŞ-Hindistan danışıqlarında gündəmə gələ biləcək məqamları belə sıralayır:

Starteji əhəmiyyət - Hindistanın nəhəng ölçüləri, coğrafi mövqeyi, sürətlə inkişaf edən iqtisadiyyatı və demokratiyaya bağlılığı qonşu Çinlə balans yarada bilər. Ona görə də Hindistanın hərbi və ticarət baxımından ABŞ üçün önəmi getdikcə artır. Hindistanın baş naziri Narendra Modiyə özünü təsdiq etmək üçün Vaşinqtondan çox şey lazımdır. Hindistan Pakistanla göz-gözə dayanıb və ABŞ hərbi kontingentinin Əfqanıstandan çıxarılmasından narahatdır, ABŞ-la anti-terror müstəvisində daha sıx əməkdaşlıq arzusundadır. Yüksək texnologiyaya uyğun olaraq istehsal olunmuş mülki və hərbi malların Hindistana gətirilməsi də xüsusi önəm daşıyır.

ABŞ onu da yaxşı bilir ki, Rusiya Hindistana ən çox silah satan ölkədir. Dehli dünyada ən böyük silah idxalçısıdır. Bunu nəzərə alaraq, Obamanın bu səfərində "Raven" pilotsuz uçaqlarının və "Lockheed C-130" yükdaşıma təyyarə sistemlərinin birgə istehsalı nəzərdən keçirilə bilər.

Mülki nüvə - iki dövlət nüvə enerjisi ilə bağlı milyard dollarlarla ölçülə biləcək anlaşmalar əldə edə bilərlər. Ancaq bəlli deyil ki, belə bir anlaşma Obamanın hazırkı səfəri zamanı əldə ediləcək, yoxsa sonraya qalacaq. Tərəflər arasında mülki nüvə anlaşması hələ 2008-ci ildə imzalanmışdı.

İqlim dəyişikliyi - ABŞ və Hindistanın bu ilin sonlarında Parisdə iqlim dəyişikliyi ilə bağlı keçiriləcək tədbirdə eyni mövqedən çıxış edəcəkləri gözlənilir. Hindistan dünyanı karbonla təmin edən üçüncü böyük ölkədir, ABŞ və Çindən sonra gəlirlər. Ona görə də Hindistanın daha çox Amerika sərmayəsinə və texnologiyasına ehtiyacı var. Dehli arzu edir ki, ABŞ enerji ilə bağlı sahələrə 100 milyard dollarlıq sərmayə qoysun.

İqtisadi əlaqələr - Modi və Obama ötən il illik ticarəti 500 milyard dollara çatdırmağı nəzərdə tutmuşdu. Ancaq Amerikalı iş adamlarının Hindistan bazarına daxil olmasına müxtəlif maneələr var. İntellektual mülkiyyətin qorunması ilə bağlı da bəzi məqamlara aydınlıq gətirmək lazımdır. Bütün bunlara baxmayaraq ABŞ-Hindistan ikitərəfli iqtisadi əlaqələri yüksələn xətt üzrə inkişafdadır. Bu səfər də bu əlaqələrə yeni dinamika verəcək.

❑ Elbəyi Həsənli, musavat.com\

## İstanbulda 11 yaşlı suriyalı qaçqın döyüldü

### Sosial şəbəkənin basqısı nəticəsində qəddar menecer işdən qovuldu

**"France Presse" Agentliyinin Ankaradan verdiyi xəbərdə deyilir ki, şənbə günü İstanbulda suriyalı uşaq restoranın meneceri tərəfindən döyülüb. Bu barədə Türkiyə mediası məlumat yayıb. Qeyd olunur ki, 11 yaşlı suriyalı oğlan uşağı müştərinin yarımçıq qoyub getdiyi qalıq yeməyi yediyinə görə menecerin qəzəbinə gəlib.**

Öncə suriyalı uşağın fotosu sosial şəbəkələrdə paylaşılıb. Üz-gözü qan içində olan uşaq pilləkəndə oturduğu yerdə görüntülənib. Hadisə isə fast-fud zənciri kimi tanınan "Burger King"in restoranlarının birində baş verib.

Xəlil - suriyalı qaçqın uşağın adı belədir, o, öz ailəsi ilə Suriyanın Hələb şəhərindən 2 il əvvəl Türkiyəyə gəlib. O, deyib ki, acından ölürdüm, müştərinin geridə buraxdığı qalıq yeməyi ona görə yeməyə məcbur oldum. Uzun müddət imiş ki, yeməyə bir şey tapmırmış. Elə buna görə də restoranın meneceri onun sifətinə zərbə endirib, onu təpikləyib. Agentlik yazır ki, bu hadisə ilə bağlı "Milliyet" qəzeti xəbər hazırlayıb.

Suriyalı uşaq deyib ki, o, yaşamaq üçün İstanbulun küçələrində dilənmək zorundadır.

İctimai qınaqdan uzaqlaşmaq üçün "Burger King" restoranlar zənciri bildirib ki, insidentdən az sonra menecer işdən çıxarılıb. "Bu, qəbuledilməz hadisədir", restoranın rəsmi açıqlaması belə olub.

Agentlik bildirir ki, Türkiyədə Suriyadan gəlmiş 2 milyon qaçqın yaşayır. Onların çoxu Türkiyə-Suriya sərhəddi boyunca yaradılmış qaçqın düşərgələrində məskunlaşıb. Ancaq onların bir hissəsi isə bütün Türkiyəyə yayılıb. Xüsusən İstanbul və Ankarada Suriyadan olan on minlərlə qaçqın qeyri-qanuni şəkildə yaşayır.

# Müsavat yeni seçki bloku yaradılması prosesində iştirak etmir

**Arif Hacılı:** "Mərkəzə daxil olan bəzi partiyalar arasında seçki blokunun yaradılması ilə bağlı gedən prosesin funksional əməkdaşlığa aidiyyəti yoxdur"



**Siyasi Partiyaların Demokratiya və İnsan Hüquqları Mərkəzindəki 11 partiyadan bir qrupunun seçki bloku yaratmaq istiqamətində addımları Mərkəzin daxilində fikir ayrılıqlarını ortaya çıxarıb. Mərkəzin üzvü olan AXP-nin sədri Pənah Hüseynin 6 partiyanın seçki bloku yaratmaq barədə qərarı olduğu barədə Azadlıq Partiyasının sədri Əhməd Orucu təkzib etməsi, ADP sədri Sərdar Cəlaloğlunun blok yaratmaq istəyənləri tənqid etməsinin ardınca Müsavat Partiyasından da təkzib xarakterli açıqlama gəlib.**

Müsavat Partiyasının başqanı Arif Hacılı bildirdi ki, bəzi siyasi partiyalar parlament seçkiləri ilə bağlı blok yaratmaq istiqamətində müzakirələri Demokratiya və İnsan Haqları Mərkəzində mövcud olan funksional əməkdaşlıq çərçivəsindən kənarda aparır. Bu prosesin Demokratiya və İnsan Haqları Mərkəzində olan mövcud əməkdaşlıq münasibətlərinə heç bir aidiyyəti yoxdur və Müsavat bu prosesdə iştirak etmir: "Müsavat Partiyasının təşəbbüsü ilə yaradılan Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində funksional əməkdaşlıq konkret olaraq siyasi məhbuslar və müəyyən demokratik islahatların aparılması ilə əlaqədardır. Bu Mərkəzə daxil olan siyasi partiyalar arasında müttəfiqlik münasibətləri yox, yalnız funksional əməkdaşlıq münasibətləri mövcuddur. Hazırda həmin Mərkəzə daxil olan bəzi partiyalar arasında seçki blokunun yaradılması ilə bağlı gedən prosesin həmin əməkdaşlıq məsələlərinə heç bir aidiyyəti yoxdur və Müsavat Partiyası bu prosesdə iştirak etmir".

A.Hacılının sözlərinə görə, hazırda partiya tərəfindən ölkədə seçkiqabağı demokratik şəraitin yaradılması, seçki qanunvericiliyində və digər sahələrdə islahatların aparılması istiqamətində siyasi təşkilatlarla funksional əməkdaşlıq perspektivləri haqda müzakirələr aparılır. Müsavatın hər hansı siyasi təşkilatlarla seçki bloku yaratması məsələsi müzakirə olunmur: "Biz yalnız seçkilər yaxınlaşdıqca real siyasi qüvvələrlə seçki blokunun yaradılmasına səy göstərmək niyyətindəyik. Əgər bu niyyətimiz baş tutmasa, partiya seçkidə təkbaşına iştirak edəcək".

Əlavə edək ki, Müsavatın Məclis üzvlərindən bəziləri də partiyanın seçkilərdə təkbaşına, özünün siyahısı ilə iştirak etməsinin tərəfdarı kimi çıxış edirlər.

❑ E.SEYİDAĞA



## Azərbaycanlılar edam edildi

**Güney Azərbaycanın Urmiya və İsfahan şəhərlərindən növbəti dəfə edam xəbərləri gəlib. Məlumata görə, yanvarın 21-də Urmiyanın mərkəzi zindanında 9, İsfahan zindanında isə 1 nəfər edam edilib. Urmiya zindanında Məhəmmədrza Qulizadə, Tarverdi Tarverdizadə, Sabir Məleki, Fərdin Məleki, Ərşəd Fərhadi, Həsən Pasdar və Nurəddin Səidi narkotik maddələrinin qaçaqmalçılığında suçlanaraq edam edilib.**

Həmin zindanda Siyamək Ocağı və Məcid Hacizadə qətl ittihamı ilə edam olunub. Eyni gündə İsfahan zindanında Süleyman Əhmədnejad dar ağacından asılıb. O narkotik maddələrinin qaçaqmalçılığında ittiham olunub.

❑ Cavid TURAN

## "Boko Haram" 192 qadın-girovu azad etdi

### Onların hamısını zorlayıblar...

**"The Times of İndia" Qərb mənbələrinə istinadən xəbər verir ki, "Boko Haram" terror təşkilatı 200 nəfərə yaxın girovu azad edib. Azadlığa qovuşanların çoxu qadındır. Onların əksəriyyəti Nigeriyanın Yobe vilayətinin paytaxtı Damaturidə girov götürülmüşdü. Bu məlumatı yerli icmanın liderləri və hərbi qaynaqlar təsdiqləyib.**

Bütövlükdə isə 218 qadın və uşaq girov götürülmüşdü. "Boko Haram" onlardan 192 nəfərini azad edib. Onların çoxu bu ayın əvvəlində əsir alınmışdı. Onlar girovları 4 yük maşınının kuzasında gətirib Qirbuva kəndində sərbəst buraxdılar. Biz də onları oradan götürüb hökumət həbsxanasına apardıq" - yerli Katarko icmasının lideri Qoni Mari deyib.

Qəzet xatırladır ki, "Boko Haram" həmin qadınları əsir götürərkən kənddə 25 nəfəri öldürmüş və insanların evinə od vurmuşdu. Ehtimal olunur ki, "Bako Haram"ın bu hərəkəti intiqam xarakteri daşıyıb. Belə ki, bu hadisədən əvvəl yerli ovçular terror təşkilatından bir neçə nəfəri öldürüb, onlarla terrorçunu isə həbs etmişdi. Yanvar ayının əvvəlində baş vermiş həmin hücum da ovçuların hərəkətlərinə cavab olaraq həyata keçirilib.

Azad olunan qadınlarla aparılmış ilk danışıqlardan bəlli olub ki, terrorçular onları zorlayıb, çoxunu isə güclə qul kimi işləməyə məcbur ediblər.

❑ Elbəyi HƏSƏNLİ


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




## Çingiz Dəmiroğlu vəfat etdi

**Azərbaycan Tərəqqi Partiyasının və ATA blokunun sədri, keçmiş deputat Çingiz Dəmiroğlu (Sadıxov) dünyasını dəyişib. Dünən o, 71 yaşında Bakıda vəfat edib.**

Çingiz Dəmiroğlu son illər aktiv ictimai-siyasi fəaliyyətlə, demək olar, məşğul olmurdu. O, iki dəfə (2003, 2008) prezidentliyə namizəd olub.

Allah rəhmət eləsin.

❑ NURLAN

## Almaniya parlamentinin vitse-spikeri Urmu gölündən danışdı

**Almaniya parlamentinin sədr müavini və Yaşıllar Partiyasının üzvü, xanım Klavdya Rut qurumaqda olan Urmu gölünə baxış keçirib.**

İranda 5 günlük səfərdə olan Almaniya rəsmisi dünən Şərqi Azərbaycanın valisi İsmail Cabbarzadə ilə görüşdə Urmu gölünün durumundan danışıb.

Klavdya Rut təəssüf hissi ilə bunları deyib: "Çox təəssüf ki, bu gölün vəziyyəti çox ağırdır. Bu, bir ətraf-mühit faciəsidir, ona görə də problemin aradan qaldırılmasına bütün ölkələr yardım etməlidir. Almaniya bu zəmində istənilən əməkdaşlığa hazırdır və ölkədə "Urmu gölü dostlarının birliyi"nin yaradılması, bu mövzunun Almaniya dövləti və milləti arasında nə qədər əhəmiyyət kəsb etdiyini göstərir. Almaniyada bir çox insan bu prosesdə iştirak etmək istəyir. Universitetlərdə tədris alan iranlılar da yardım etməyə hazırdılar."

Klavdya Rut əlavə edib ki, Urmu gölünün quruması insanların birbaşa həyatından başqa, əkinçilik, turizm və iqtisadiyyat sahələrinə də ziyan vurur. Ona görə də, hamının təcrübəsindən istifadə edib və gölün xilsaı üçün təsirli addımlar atılmalıdır.

Qeyd edək ki, Klavdya Rut səfər zamanı bir neçə İran rəsmisi, o cümlədən parlament sədri Əli Laricani ilə görüşəcək.

❑ Cavid TURAN

## Başsağlığı

**Pənah Hüseyn və Azərbaycan Xalq Partiyası Çingiz Dəmiroğlunun vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.**

***

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Çingiz Dəmiroğlunun vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Rusiya Ukraynaya müdaxilənin bir addımlığında

## Ölkənin cənub-şərqində qanlı toqquşmalar şiddətlənib; prezident Poroşenko ölkədə matəm elan edib; **Elxan Şahinoğlu:** "Putin görsə ki, separatçılar məğlubiyyətlə üzləşir, Ukraynaya müdaxilə əmri verə bilər..."

**Ukraynada son bir həftədə şiddətlənən döyüşlər böyük itkilərə səbəb olub. Donetsk hava limanı uğurunda döyüşlərin yenidən qızışması hər iki tərəfdən çox sayda insanın ölümünə və yaralanmasına səbəb olub. Ukrayna ordusu və separatçılar çoxlu sayda texnika itiriblər.**

**Şənbə günü Mariupol şəhərinin atəşə tutulması böyük faciəyə səbəb olub.**



Naməlum istiqamətdən atılan top və "Qrad" atəşi nəticəsində 30 nəfər həyatını itirib, 102 nəfər yaralanıb. Yaralıların bir qisminin durumu ağırdır. Yerli hökumət nümayəndələri 53 çoxmərtəbəli bina, 14 şəxsi ev, 4 məktəb və 3 uşaq bağçasının ciddi zərər gördüyünü, dükanlar və maşınların yandığını bildirib. Mariupoldakı vəziyyətlə bağlı Ukrayna prezidenti Petro Poroşenko ölkədə matəm elan edib və Milli Təhlükəsizlik və Müdafiə Şurasının iclasını çağırıb.

Qeyd edək ki, hələlik heç bir tərəf məsuliyyəti öz üzərinə almır. Rusiya telekanalları raket və top atəşinin Ukrayna ordusunun mövqelərinin yerləşdiyi Qərb istiqamətindən atıldığını bildirir. ATƏT müşahidəçilərinin məlumatına görə, Mariupol qondarma "Donetsk Xalq Respublikası" ərazisindən atəşə tutulub. Ancaq separatçılar hazırda öz qüvvələrinin Mariupoldan 40 kilometr məsafədə dayandığını və bu məsafədən atəş üçün silahlarının olmadığını iddia edir.

Bir sıra müşahidəçilərə görə, vəziyyətin yenidən gərginləşməsi Rusiyanın Ukrayna ərazisinə hərbi müdaxiləsinə səbəb olacaq. Doğrudur, hələlik Rusiya tərəfi müdaxilə iddialarını rədd edir. Ancaq vəziyyətin daha da gərginləşməsi, xüsusən də son olaylarda olduğu kimi dinc sakinlər arasında itkilərin artması Rusiyanın bölgəyə hərbi qüvvə yeritməsi üçün əsas yarada bilər.

Mövzunu "Yeni Müsavat"a şərh edən politoloq Elxan Şahinoğlu deyir ki, Moskva bu günə qədər Ukraynanın şərqindəki separatçıları dəstəkləyib və hər vasitə ilə dəstəkləməkdə davam edir: "Kreml açıq-aşkar Ukrayna separatçılarına dəstək verir, onları silah, texnika, ərzaq və ən əsası canlı qüvvə ilə təmin edir. Mən ötən il Donetskdə olanda inzibati binaları ələ keçirən həmin separatçıları yaxından görmüşdüm. Donbasın yerli separatçıları Ukrayna ordusuna qarşı vuruşacaq gücdə deyil. Yəni mənim üçün tam aydın idi ki, kənar dəstək olmadan separatçılar Donetskə və Luqanska nəzarət edə bilməzdilər. Krımda da eyni hadisə baş vermişdi. Ukraynada hakimiyyət dəyişikliyindən dərhal sonra Krımda naməlum geyimdə silahlılar peyda oldu. Hamıya aydın idi ki, bu, Rusiyanın xüsusi dəstələridir. Moskva eyni ssenarini Donbasda da həyata keçirdi".





Ancaq ekspertin fikrincə, Rusiyanın Ukrayna ərazisinə müdaxiləsi daha mürəkkəb vəziyyət yarada bilər və bu səbəbdən də Kreml hələlik buna risk etmir, eyni zamanda Ukraynada hərbi mövcudluğunu gizlətməyə çalışır: "Rusiya hələ ki, açıq şəkildə Donbasa ordu göndərə bilmir, bu faktın üstünün açılacağından qorxur. Kreml başqa yol seçib. Rusiya ordusunda xidmət edən əsgər və zabitlər qruplar halında sərhədi keçir, könüllü adıyla Donbasda yerləşirlər. Sonra onlara Rusiyanın Don vilayətindən silah göndərilir və Donbasda yerli separatçılarla birgə qarışıq qruplar təşkil edərək əraziləri işğal edirlər. Ümumiyyətlə, Don vilayəti Rusiyanın Donbasla əlaqəsi baxımından mərkəz halına gəlib. Separatçıların liderləri gizli şəkildə burada Rusiya prezidentinin köməkçisi Vladislav Surkovla görüşürlər. Putin məhz Surkov vasitəsilə separatçılara təlimatlarını ötürür. Sadə bir misal deyim. Bu günlərdə Mariupol şəhərinə atəş açıldıqda Donestk separatçılarının lideri Zaxarçenko belə bir açıqlama verdi: "Məqsədimiz Mariupolu ələ keçirməkdir". Ancaq elə həmin gün bu açıqlamanı təkzib edərək, tərsini dedi: "Biz sadəcə Ukrayna ordusunu Donetksdən uzaqlaşdırmaq istəyirik. Mariupola hücum etmək kimi planımız yoxdur". Mənə tam aydın idi ki, bir günün içində fikrini dəyişən separatçıların lideri Kremlən aldığı təlimat əsasında sonrakı açıqlamanı dilə gətirdi. Çünki Maripolun bombardmanı nəticəsində onlarla dinc sakin həlak oldu. Kreml qətlə yetirilən dinc sakinlərə görə məsuliyyətdən yaxa qurtarmaq üçün separatçıların liderinə "Bizim Mariupolla işimiz yoxdur" dedirtmək məcburiyyətində qaldı. Ancaq faktlar və reallıq tərsini deyir".

Mariupolun strateji əhəmiyyət daşıyan şəhər olduğunu qeyd edən ekspertin sözlərinə görə, separatçılar bu bölgədə daha da irəliləməyə çalışırlar: "Ötən il Mariupolda da oldum və mənə tam aydın oldu ki, separatçıların nə deməklərindən asılı olmayaraq onların əsas məqsədi bu şəhəri ələ keçirməkdir. Bu şəhər həm separatçılar, həm də Moskva üçün strateji əhəmiyyət kəsb edir. Mariupol əldən getsə, separatçılar və Moskva Krıma quru yolla çıxış əldə edəcəklər. Bundan sonra Moskva üçün dəniz üzərindən Krıma bahalı körpü tikməyə də ehtiyac qalmayacaq. Ona görə də Ukrayna ordusu bu şəhər uğrunda çarpışmaq məcburiyyətindədir".

E.Şahinoğlunun fikrincə, əgər yeni savaş başlasa və Ukrayna ordusu separatçıları əzdiyini gördükdə Rusiya müdaxilə etməyə çalışacaq: "Kiyev səfərbərlik elan edib, ordunun sıralarını genişləndirir. Bu o deməkdir ki, yaxınlarda Donetsk və Luqansk istiqamətində hücum hazırlana bilər. Əgər Kreml görsə ki, separatçılar məğlubiyyətlə üzləşə və şərq bölgələrinə nəzarəti itirə bilərlər, mən istisna etmirəm ki, Rusiya prezidenti Vladimir Putin ordusunu Ukraynaya müdaxilə əmri versin. Krıma hücum əmri verən Donbas üçün də eyni əmri vermək iqtidarındadır. Bu halda Rusiya-Ukrayna müharibəsinin nəticələri hamı üçün ağır olacaq. Onsuz da Rusiya iqtisadiyyatı çökür və Putinə diqqəti daxil problemlərdən yayındırmaq üçün yeni avantüra lazımdır. Ancaq bu avantüranın əziyyətini Rusiya xalqı çəkəcək, necə ki, indi çəkir".

❑ **Kənan RÖVŞƏNOĞLU**





# Müxalifət Rəsulzadəni ziyarət edəcək

## Demokratik düşərgənin bir sıra planları var...

**Yanvarın 31-də Cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadənin 131 illiyidir. Hər il olduğu kimi, bu il də ölkə müxalifəti görkəmli dövlət xadiminin Novxanıdakı abidəsini ziyarət edəcək. Artıq bununla bağlı sosial şəbəkələrdə müxtəlif qurumlar tərəfindən çağırış eventləri yaradılıb.**

Müsavat başqanının müavini Elman Fəttah həmin gün Novxanıda Rəsulzadənin abidəsi önündə mitinq keçirəcəklərini bildirdi: "Yanvarın 31-də saat 12:00-da ənənəvi olaraq, Müsavat Partiyası Novxanıda Rəsulzadənin abidəsi önündə anım tədbiri keçirəcək. Bütün müsavatçılar dəvət olunub. Bununla bağlı hazırlıq işləri gedir. Texniki-təşkilatı işlər artıq yekunlaşıb. Yüksək səviyyədə Rəsulzadənin anım tədbirini qeyd edəcəyik. Bununla bağlı qərargahda hər hansı bir tədbir nəzərdə tutulmur. Müsavat Divanının yanvarın 26-ı iclasında bu məsələ geniş müzakirə olunacaq. Ziyarətlər heç vaxt xüsusi təşkil olunmur. Daim Müsavat Partiyası Rəsulzadəni ziyarət etmək təşəbbüsünü göstərib. İndiki tədbirimizə istənilən siyasi partiya qatıla bilər".

Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev qurumun son sessiyasında bu məsələnin geniş müzakirə olunduğunu qeyd etdi: "Milli Şuranın yanvarın 24-də keçirilən sessiyasında bu məsələ müzakirə olundu. Qərar qəbul olundu ki, yanvarın 31-də Novxanıda Rəsulzadənin abidəsi ziyarət olunsun. Bununla əlaqədar geniş maarifləndirmə, təbliğat işləri aparılacaq. Biz qərar verdik ki, yubileylə bağlı tədbir keçirək. Bunun necə nəzərdə tutulacağı qarşıdakı günlərdə məlum olacaq".

VHP İcra Aparatının rəhbəri Samir Əsədli həyata keçirəcəkləri planlarından danışdı: "Yanvarın 31-də VHP üzvləri Novxanıda Rəsulzadənin abidəsini ziyarət edəcəklər. Həmçinin, partiya qərargahında da Rəsulzadə anılacaq. Rəsulzadə ilə bağlı təşkil edilən bütün tədbirlərə VHP üzvləri qatılacaqlar. Həmçinin Naxçıvan, Qobustan, Tovuz, Xətai təşkilatları Rəsulzadə ilə bağlı tədbir keçirəcəklər. Hesab edirik ki, Rəsulzadə dövlət səviyyəsində anılmalı, xüsusi tədbirlər keçirilməlidir. Bu dövlətin qurucusu, lideri Rəsulzadədir, onun adına və fəaliyyətinə layiq tədbirlər keçirilməlidir".

KXCP sədrinin müavini Xəzər Teyyublu yubileylə bağlı bunları dedi: "KXCP olaraq, hər il bu günlə əlaqədar tədbirlər keçirik. Bu il də Rəsulzadənin doğulduğu Novxanıda anacağıq. Rayon şöbələrində hazırlıqlara start verilib. Partiyanın idarə heyətinin toplantısında bu məsələ geniş müzakirə ediləcək. KXCP Demokratiya və İnsan Haqları Mərkəzində təmsil olunduğundan, mümkündür ki, mərkəzə daxil olan 12 partiya ilə birlikdə ziyarət olsun. İştirakımız yüksək səviyyədə olacaq. Rəsulzadəni anmaq vətəndaş borcumuzdur. Arzu edərdik ki, Rəsulzadəni birlikdə ziyarət edək. Partiyalar bu barədə qərar verməlidirlər. Daxil olduğumuz mərkəzin bir yerdə ziyarəti gözlənilməndir. Bu, Rəsulzadə qarşısında olan hesabatımızdır".

❑ **Cavanşir ABBASLI**

# Urmiya stadionunda Azərbaycanın himni səsləndirilib

**Təbrizin məşhur "Traxtur" futbol komandası qardaş şəhər Urmiyada bu şəhərin "Polikan" komandası ilə qarşılaşıb. Urmiyanın Təxti stadionunda baş tutan matç 4:0 hesabı ilə "Traxtur"un xeyirinə yekunlaşıb.**



Müsabiqədə ən önəmli məqamlardan biri azarkeşlərin hər iki komandaya yanaşması, onları doğma olaraq qəbul etməsi və milli zəmində şüarların səsləndirilməsi olub. Yarış zamanı "Türk dilində mədrəsə, olmalıdır hər kəsə!", "Azərbaycan var olsun - istəməyən kor olsun!", "Azərbaycan diyarımız - "Traxtur" iftixarımız", "Yaşasın Azərbaycan" və s. kimi şüarlar səsləndirilib.

Matç bitdikdən sonra futbol tərəfdarlarının Azərbaycanın himninin səsləndirməsi xüsusi diqqət çəkib. GünAz TV xəbər verir ki, oyunda minlərlə soydaşımız tamaşaçı qismində iştirak edib.

❑ **Cavid TURAN**



# Şərqdə hələ də kralları dəfn edirlər...

Hüseynbala SƏLİMOV

**Bir vaxtlar bir prinsip kimi konstitusionializmdən çox yazırdım. Mənə elə gəlirdi ki, ciddi, oturuşmuş konstitusaya ənənələri olmayan, hakimiyyətin hələ də məhdudlaşdırılmadığı və bölünmədiyi ölkələr üçün bu prinsipin çox önəmi var...**

Sonradan oxudum ki, bir vaxt Avropada da bu prinsip çox dəbdə olub- o vaxtlar ki, qeyri-məhdud monarxik hakimiyyətlər olub, onlar hələ bölünməyib və bunları məhdudlaşdırmaq və bölmək üçün konstitusiyalara ehtiyac olub...

Şərqdə isə bu, hələ də aktualdır. Bəli, dərhal etiraz edib deyə bilərsiniz ki, Avropada da hələ monarxiyalar və krallar var. Tamamilə düzdür. Amma onlar çox məhdud səlahiyyətlərə malikdir...

Mən şərq monarxiyalarını araşdırmamışam. Amma hamı bilir ki, onlar Qərbdəki monarxiyalar kimi deyil, faktiki olaraq qeyri-məhdud hakimiyyətə və səlahiyyətə malikdirlər...

Bəli, qeyri-məhdud hakimiyyət və başqa dillə desək, müstəbidlik... Niyə qoca Şərq özünün çox əsrlik yuxusundan ayrılmaq istəmir?..

Əgər bunu səbəbini bilsəydim, özümü dünyanın bəlkə də ən xoşbəxt adamı hesab edərdim, amma nə təəssüf ki, bilmirəm...

Ona görə də bu yazını acizanə yazıram. Doğrusu, ona təkan Səudiyyə kralının ölümü oldu. Bu haqda elə bir sözüm yoxdur. Nə kralın çox təvazökar dəfni, nə də bu adamdan sonra qalan 20 milyrad dollarlıq sərvət məndə hər hansı bir hiss oyatmadı...

Oyatmadı ona görə ki, mən Şərqdə, ərəb dünyasında bir parlaq lider tanıyırdım- o da Yasir Ərəfat idi. Bəli, kiminin böyük Fələstin mücahidi, kiminin də böyük terrorçu adlandırdığı şəxs...

Mənim bu dixiotomiyaya son qoymaq niyyətim və imkanım yoxdur, bu, mənim hətta bilgilərimdən də kənardadır...

Ərafat öləndə də yazı yazmışdım. Bu adamda cəlbedici xüsusiyyətlər az deyildi-ən azı o, deyəndə ki, mən İsrail tanklarının qarşısına fələstinli uşaqları çıxaracam, bu adamda nə qədər böyük mübarizə əzmi olduğu anlaşılırdı...

Niyə kralın vəfatı günü Ərəfatı xatırladım? Ərafatın dəfni çox təntənəli oldu, böyük hakimiyyətə və səlahiyyətlərə malik olan çox krallar və kral olub, amma prezident adlananlar bunu yalnız arzulaya bilərdi...

Bilirsiniz, çox kiçik, hələ də tanınmayan Fələstin dövlətinin özünün belə bir dəfn təşkil etmək imkanları məhdud idi - Ərəfatın timsalında dünya liderləri 20-ci əsrin ən parlaq liderlərindən birini dəfn edirdilər...

Ərəfat mənə iki lideri xatırladırdı- Fidel Kastronu və bir də Çe Qevaranı... Müəyyən paralellər tapmağa güman ki, elə oxucu özü də çətinlik çəkməzdi...

Bu gün mən ondan - Ərəfatdan yox, vəfat etmiş Səudiyyə kralından da bəhs edə bilərdim. Amma özüm istəmədim, çünki çalışıram elə yaşayım ki, sanki bu dünyada krallar mənim üçün heç mövcud deyillər...

Ərəb dünyasında “prezident”lər də vardı. Onlardan biri də Səddam Hüseyn idi. Bəli, o Səddam Hüseyn ki, boynuna ilgək keçirdilər və ən böyük müstəbidlərdən biri kimi öldürdülər. Səddam prezident adlanırdı, amma çox krallar, özü də Şərq kralları ona baxanda yola getməli idilər...

Bu gün ərəb dünyasında “prezident” adlanan daha bir kral var, o da Bəşər Əsəd cənablarıdır. O, Bəşər Əsəd ki, dünya hələ də müəyyənləşə bilməyib ki, onunla vuruşsun, yoxsa onun müxalifətilə?..

Hələ ərəb dünyasında baş verən prosesləri yetərincə, qənaətbəxş hesab edilə bilən qədər aydınlaşdıran yazı oxumamışam. Əcəba, bu, nədir? Bu regionda nələr baş verir?.. Yoxsa yer insanların ayaqları altından qaçır?...

Mən yenə də bütün təqsiri krallarda və prezident adlanan, amma reallıqda kral olan adamlarda görürəm...

Onlar millətə normal inkişaf yolu keçməyə mane oldular. Addım-addım olsa da demokratiyanı və azadlığı yaşamağı öyrənmək olardı. Amma onlar bunu etmədilər, əksinə millətin bütün oyanış cəhdlərinin qarşısında böyük bir sipər oldular...

Bəli, Bəşər Əsədin müxalifətinin kimlər olduğu indi hamıya aydındır. Amma bu əsas verirmi ki, o, hakimiyyətdə qalsın? Vermir...

Mənə elə gəlir ki, belə hallarda humanitar müdaxilə olmalı, ölkədə ilk normal seçkilər keçirilənə qədər orada sülhyaradıcı qüvvələr qalmalıdır...

Təəssüf ki, dünya ölkələri bunu İraqda yetərincə edə bilmədilər və yaxud da ki, istəmədilər. Ona görə “istəmədilər” yazıram ki, mən bir şeyi özüm üçün hələ də müəyyənləşdirməmişəm- bir çox hallarda Qərb dövlətləri nəyisə həqiqətən də bacarmır, yoxsa sadəcə, bunu istəmirlər?..

Bəli, qoca Şərqdə hələ də kralları dəfn edirlər... Şərqdə hələ də bütün yollar qəbirstanlıqdan keçir, qəbirstanlığa aparır...

# Bu gün AŞ PA-nın qış sessiyası başlayır

## Azərbaycanda insan haqları məsələsi də gündəliyə salına bilər; ekspertlərə görə, Qərb Bakı ilə münasibətləri yenidən tənzimləmək istəyir, amma...

**Yanvarın 26-dan 30-dək Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası keçiriləcək. Sessiyada Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞPA-dakı daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun başçılıq etdiyi deputat qrupu iştirak edəcək.**

Nümayəndə heyətinin tərkibinə həmçinin, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin sədri Əli Hüseynli, deputatlar Sevinc Fətəliyeva, Elxan Süleymanov, Qənirə Paşayeva, Rafael Hüseynov, Rövşən Rzayev, Aydın Abbasov, Sahibə Qafarova, Sabir Hacıyev və Fazil Mustafa daxildirlər.

Sessiyada Büro və Daimi Komitədə görülmüş işlərin hesabatı dinləniləcək, Ukrayna qaçqınlarının və məcburi köçkünlərinin humanitar vəziyyəti, Avropa Şurası və Avropa Birliyi arasında anlaşma memorandumunun həyata keçirilməsi, Monteneqronun Avropa Şurası qarşısında götürdüyü vəzifə və öhdəliklərin yerinə yetirilməsi, Avropada media azadlığının qorunması, qeyri-tolerantlıq və diskriminasiya ilə mübarizə və digər mövzularda fikir mübadiləsi aparılacaq. Sessiya çərçivəsində Azərbaycanda insan haqlarının vəziyyəti də diqqət mərkəzində olacaq.

Qeyd edək ki, yerli hüquq müdafiəçiləri həmin sessiyaya qatılmayacaqlar. Ekspertlər isə Azərbaycanla bağlı hansısa ciddi qərar və ya sanksiya gözləmirlər. Politoloq Natiq Miri məsələ ilə bağlı musavat.com-a bildirib ki, sessiyada Azərbaycanla bağlı müzakirələr ehtimal edilsə də, sərt qərarlar gözlənilən deyil: “Azərbaycanda insan hüquqları ilə bağlı məsələnin müzakirə obyektinə çevrilməsi bu gün Qərbdə, xüsusilə Avropa məkanında müzakirə olunur. Və son Avropa Parlamenti səviyyəsində səsləndirilən bəyanatlardan da hiss olunur ki, belə bir narahatçılıq var və bunun Avropa Şurasında, qurumun Parlament Assambleyasında müzakirə olunması imkanları qalır. Ancaq bu müzakirə yenə də sadəcə olaraq növbəti dəfə tövsiyə xarakterli olacaq və müzakirə kimi da qalacaq. Bundan ötən hərəkətlərin, konkret sanksiyaların tətbiq olunması və yaxud da Azərbaycanın səsvermə hüququnun əlindən alınması kimi məsələlərə qədər problemin uzanacağını gözləmirəm. Çünki hiss olunur ki, Qərb dünyası indiki şəraitdə Azərbaycanla münasibətləri yenidən tənzimləmək istəyir. Azərbaycan prezidentinin son Almaniya səfəri də Avropa Birliyinin strateji güclü dövləti olan Almaniyanın Cənubi Qafqaza, xüsusilə Azərbaycana marağı da, münasibətlərin yenidən müsbət saldoya tənzimlənməsi, o səviyyəyə salınması göstərdi ki, bəli, Azərbaycanı birmənalı olaraq Avropadan küsdürmək istəmirlər. Hər bir halda, Azərbaycan bu gün Qərb dünyası üçün enerji təhlükəsizliyində iştirak edən bir ölkədir. Bundan başqa, Azərbaycanı özlərindən küsdürməklə Rusiyaya doğru itələmək də Qərbin strateji maraqlarına uyğun deyil. Ən nəhayət, Rusiyanı zəiflətmək planı kontekstində təbii ki, Azərbaycanı düşmən deyil, bir dost olaraq görmək Qərb siyasətinin mahiyyətindədir. Yəni Qərbdə bunu istəyirlər. Ona görə Avropa Şurası da konkret olaraq uzun müddətdir ki, ikili standartda işləyən bir qurumdur. Bu mənada inanmıram ki, Avropa Birliyində, xüsusilə də Avropa Parlamentində bu gün Azərbaycana ciddi sanksiyaların olmadığı bir durumda, ikili standartla işləyən Avropa Şurası hansısa kəskin sənədlər, qətnamələr qəbul etsin. Onu da nəzərə almaq lazımdır ki, Avropa Şurasında Azərbaycanın lobbisi də güclüdür. Avropa Şurasının deputatları ilə Azərbaycan hakimiyyəti çox ciddi işləyir. Müəyyən mənada bunun müxtəlif adları var. Ancaq hər bir halda, Avropa Şurasında Azərbaycana qarşı ciddi bir sənədin qəbul olunacağını gözləmirəm”.



İnsan haqları müdafiəçiləri isə sessiyaya qatılmayacaqlar. Novella Cəfəroğlu bununla bağlı bildirib ki, onlar apreldə keçiriləcək toplantıya qatılmağı qərara alıblar: “Hesab edirik ki, hələ tezdir, aprel ayında, bütün işlərimizi bitirəndən sonra gedəcəyik. Doğrudur, orada deməyə sözümüz yox deyil, sözümüz var. On siyasi məhbus azadlığa buraxılıb, müsbət fikir var, əfv olub, bəzi məsələləri həll etmişik. Amma biz istəyirik ki, bütün məsələlər həll olunandan sonra gedək. Ümidimiz var, ümid edirik ki, aprel ayına qədər müsbət dəyişikliklər olacaq”.

Qeyd edək ki, hüquq müdafiəçiləri toplantıya Azərbaycanla bağlı müzakirələrin olmayacağını əsas gətirərək qatılmayacaqlarını bildiriblər.

❑ Röya RƏFİYEVA

# İntiqam Əliyev və Rəsul Cəfərovu niyə “qəfəs”də mühakimə edirlər?

## Vəkillər bununla əlaqədar Avropa Məhkəməsinə müraciət edəcəklər

**Yanvarın 23-də Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyevin ilkin məhkəmə hazırlıq iclası keçirildi. Prosesin ilk mərhələsində vəkillər bir sıra vəsatətlər təqdim etdilər. Lakin vəsatətlərin heç biri təmin edilmədi. Təmin olunmayan vəsatətlərdən biri də İntiqam Əliyevin proses zamanı dəmir barmaqlıqlar içərisindən çıxarılıb müdafiəçilərinin yanında əyləşdirilməsi ilə bağlı idi.**



Qeyd edək ki, Avropa Məhkəməsinin Konvensiyasında siyasi məhbusun bu şəkildə mühakimə olunması insan ləyaqətinin alçaldılması kimi göstərilir. İndiyə qədər məhz bu amilə görə Azərbaycan hakimiyyəti dəfələrlə cərimələnib.

İntiqam Əliyevin vəkili Fəxrəddin Mehdiyev bu vəsatətin təmin olunmamasını növbəti ədalətsizlik adlandırdı: “Burada heç bir problem yox idi. Sadəcə hakimin yanaşması ədalətsiz oldu. Bu, İntiqam müəllimin müdafiə hüququ ilə bağlı məsələ idi. Bu həm də müdafiə hüququnun pozulmasıdır. İntiqam Əliyev kimi kifayət qədər savadlı, tanınmış bir şəxsin orada saxlanılması onun müdafiə hüququnun pozulmasına dəlalət edir. Bununla bağlı Avropa Məhkəməsinə müraciət olunacaq. Göndərəcəyimiz şikayətlərin içərisinə daxil ediləcək. Burada qanunsuzluq aşkar olunduqda, öhdəlik hökumətin üzərinə qoyulur. Yəni hakimlər cərimə ödəmirlər. Amma burada hakimlərin məsuliyyəti nəzərdə tutulur”.

Hüquq müdafiəçisinin digər vəkilləri də onun “qəfəs”dən çıxarılması ilə bağlı növbəti proseslərdə yenidən vəsatətlər verəcəklərini qeyd etdilər.

Xatırladaq ki, yanvarın 15-də ilkin məhkəmə hazırlıq iclası keçirilən həbsdəki digər hüquq müdafiəçisi Rəsul Cəfərovla bağlı da bu vəsatət verilmişdi. Lakin hüquq müdafiəçisinin dəmir barmaqlıqlar arasından çıxarılması vəsatəti təmin olunmamışdı.

Rəsul Cəfərovun hüquq nümayəndəsi Günay İsmayılova Avropa Məhkəməsinə müraciət ünvanladıqlarını diqqətə çatdırdı: “Avropa Məhkəməsinə artıq şikayət olunub. Biz bunu da sənədin içərisinə daxil edəcəyik. Qanunla bu qadağandır. Qeyri-insani rəftardır. Məqsəd sadəcə şəkil çəkmək və insanlarla ünsiyyətə mane olmaqdır. Bununla guya sındırırlar”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 17 (6045) 26 yanvar 2015

# Keçmiş siyasi məhbus Müsavatdan çıxarıldı

## Ənvər Əhmədin xaric edilməsinin səbəbləri açıqlandı; Qubad İbadoğlu qərara qarşı çıxdı

**Müsavat Partiyasının fəallarından olan Ənvər Əhməd partiya sıralarından xaric edilib. Bu barədə APA-ya Ə. Əhmədin özü məlumat verib. O, partiyanın ideoloji xəttinə zidd fikirlər və çağırışlar səsləndirməkdə günahlandırılaraq qeydiyyatda olduğu Sumqayıt şəhər təşkilatı şurasının qərarı ilə Müsavat üzvlüyündən uzaqlaşdırıldığını deyib.**

Ə.Əhməd VIII qurultaydan sonra formalaşan Mərkəzi Nəzarət Təftiş Komissiyası və Məclisi qeyri-legitim saydığı üçün qərardan hər hansı şikayət verməyəcəyini bildirib.

Qeyd edək ki, Ə. Əhməd 2003-cü il prezident seçkilərindən sonra həbs olunub və 2 il 3 ay müddətinə azadlıqdan məhrum edilib. O, hazırda Qubad İbadoğlunun yaratdığı Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatında təmsil olunur.

Ənvər Əhməd Sumqayıt təşkilatından nə üçün çıxarılıb? Bu barədə partiyanın rəhbərliyi ilə məsləhətləşmə aparılıbmı və ya göstəriş alınıbmı? Ənvər Əhməd Qubad İbadoğlunu müdafiə etdiyi üçünmü partiyadan xaric edilib?

Bu suallarla Müsavat Partiyasının Sumqayıt şəhər təşkilatının sədri Fəxrəddin Abbasa müraciət etdik.

Fəxrəddin Abbas Ənvər Əhmədin yanvarın 24-də partiya sıralarından xaric edildiyini təsdiqlədi: "Ənvər Əhməd xeyli vaxt idi öz davranışları ilə faktiki olaraq özünü Müsavat Partiyasından kənarda qoymuşdu. O, Müsavat Partiyasının Nizamnaməsinə zidd fəaliyyət göstərirdi, partiyanın nüfuzuna xələl gətirən təbliğat aparırdı. Buna görə Ənvər Əhmədə dəfələrlə xəbərdarlıq olunub. 2014-cü ilin 14 noyabrında Şura iclasında onun özünün iştirakı ilə fəaliyyəti müzakirə edilib və töhmət elan olunub. Həmin töhmətdə də qeyd edilib ki, əgər partiyaya zidd fəaliyyətini dayandırmasa, barəsində Nizamnamənin tələbinə uyğun daha ciddi tədbirlər görüləcək. Əslində 14 noyabrda Ənvər Əhmədin partiyadan xaric edilməsi məsələsi də qaldırılmışdı. Lakin onun vaxtilə siyasi məhbus olduğunu nəzərə alıb partiyadan xaric etmədik. Təəssüf ki, o, töhmətdən sonra da əvvəlki Nizamnaməyə zidd hərəkətlərini davam etdirdi, faktiki olaraq özü özünü partiyadan kənarda qoydu. Biz məcbur olub onun partiyadan çıxarılması məsələsinə qayıtdıq. Şuranın iclası oldu və Ənvər Əhmədi dəvət etdik. Ənvər Əhməd Şurada iştirak etdi. Onun bütün Nizamnaməyə ziddi hərəkətləri şəxsən özünə xatırladıldı. O, yenə də özünü haqlı saydığını dedi. Onun əməllərinin Müsavat Partiyasının Nizamnaməsinin 6 və 7-ci maddələrinə zidd olduğu əsas göstərilərək partiyadan xaric edilməsi səsə qoyuldu. Səsvermə ilə Ənvər Əhməd Müsavat Partiyası üzvlüyündən xaric edildi".


Fəxrəddin Abbas


Qubad İbadoğlu

F.Abbas vurğuladı ki, Ənvər Əhmədin partiyadan çıxarılmasına başqanlığa sabiq namizəd Qubad İbadoğlunu müdafiə etməsinin səbəb olduğu haqda iddialar doğru deyil: "Onun barəsində partiyadan xaric etmə qərarında Qubad İbadoğlu amilinin zərrə qədər də rolu yoxdur. Ənvər Əhmədin facebookda yazdıqlarını oxuyan istənilən ədalətli şəxs görər ki, partiyadan xaric edilmə qərarının verilməsi haqlıdır və bu qərar məhz Ənvər Əhmədin özünün Müsavat Nizamnaməsinə zidd fəaliyyətinin nəticəsidir. Bu adam bütün hərəkətləri ilə təhrik edirdi ki, barəsində partiyadan xaric edilmə qərarı verilsin. Bizim onunla şəxsi münasibətlərimiz həmişə normal olub, normaldır. Siyasi fəaliyyətində isə Nizamnaməyə əməl etmirdi".

F.Abbas onu da bəyan etdi ki, Ənvər Əhmədin partiyadan çıxarılması ilə bağlı Müsavatın başqanı və rəhbərliyi ilə heç bir məsləhətləşmə aparılmayıb, heç bir göstəriş almayıb: "Müsavatın Sumqayıt təşkilatı məndən əvvəlki sədrlərin dönəmində də müstəqilliyi ilə seçilib. Biz özümüz Nizamnaməni yaxşı bilirik".

Q.İbadoğlu "Yeni Müsavat"la əlaqə saxlayaraq Ənvər Əhmədin partiyadan xaric edilməsinə münasibət bildirib: "Ənvər Əhməd kimi insanlar olmasaydı, yəqin ki, Müsavatın əvvəlki nüfuzu, əvvəlki reytinqi də olmazdı. Ənvər Əhməd çox fədakar müsavatçı idi, 2003-cü ildə həbs edildikdən sonra 7 ay ölüm korpusunda saxlanılıb. Ömrünü Müsavata, Azərbaycan uğrunda mübarizəyə həsr edib. Hesab edirik ki, indiki halda Ənvər Əhmədin tənqidi fikirlərinə də dözümlə yanaşılmalı idi. Müsavat Partiyasının Nizamnaməsində də hər bir üzvün partiyanın fəaliyyəti ilə bağlı fikir bildirmək hüququ tanınır. Yeni bu baxımdan Müsavat Partiyasının idarəçiliyindən narazı olan, partiyanın gələcəyindən narahatlıq ifadə edən fikirləri əsasında verilən qərar tamamilə qanunsuzdur. Hesab edirəm ki, bu həm də Müsavat Partiyasında fikir müxtəlifliyinə dözümsüzlüyün bir göstəricisidir. Çox təəssüf edirəm Müsavatı bu gedişlə yalnız eyni mövqedə olanların partiyasına çevirmək cəhdi güclənir. Əks fikirlər repressiyalara məruz qalır, cəzalarla bitir".

❑ E.SEYİDAĞA

# Leyla Yunusun istintaqı 2016-cı ilə qədər uzana bilər

## Hüquq müdafiəçisinin səhhəti daha da ağırlaşıb...

**Hazırda həbsdə olan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun istintaqı dondurulub. Hüquq müdafiəçisinin səhhətində yaranan problemlər günbəgün daha intensiv şəkil almaqdadır. Leyla Yunusun istintaqının 2016-cı ilə qədər uzadılma ehtimalı daha yüksək görünür.**


Leyla Yunus

Vəkil Əlayif Həsənov Leyla Yunusun istintaq, səhhəti ilə bağlı vəziyyətin ürəkaçan olmadığını qeyd etdi: "Yanvarın 20-21-də Leyla xanımla görüşdüm. Onunla intensiv görüşməyimə səbəb sağlığı durumunun yaxşı olmamasıdır. Böyrək çatışmazlığından əziyyət çəkir. Şəkəri günbəgün artır. Hədsiz dərəcədə arıqlayıb. Haqqında hər hansı istintaq hərəkətləri aparılmır. O cümlədən, müdafiə tərəfi də heç bir istintaq hərəkətinə dəvət olunmur. Hesab edirəm ki, onun həbsi istintaq aparılmadan qanunsuzdur. Məqsəd onu cəmiyyətdən təcrid etməkdir. Ehtimal edirik ki, onun istintaqı bu ilin sonu, 2016-cı ilin əvvəlinə qədər davam edəcək. Əgər istintaq aparılmırsa, deməli, bu, həmin şəxsi uzun müddət cəmiyyətdən təcrid etmək siyasətidir".

Vəkil istintaqın uzadılmasının səbəblərindən də danışdı: "Leyla və Arif Yunusa xüsusi bir münasibət var. İntiqam Əliyev və digər məhbuslarla bağlı, görünür, hakimiyyətin ayrı planı mövcuddur. Leyla xanım və həyat yoldaşına münasibət daha sərtdir. İntiqam bəyin bir müddət vəkili olmuşam. Sonra qanunsuz uzaqlaşdırıldım. Onun həbsində məqsəd Avropa Məhkəməsinə göndərilən işləri yarımçıq qoymaq idi. Buna nail də oldular. İ. Əliyevin həbsi ilə əlaqədar bir çox sənədlər it-bat oldu. Götürülmüş sənədlər qaytarılmadı. Məqsədlərinə nail oldular. İntiqam müəllimi uzaqlaşdırdılar. Leyla Yunusla bağlı məsələ tamam fərqlidir. İstintaqın aparılmaması onu deməyə əsas verir ki, müddət bitəndə işi məhkəməyə göndərəcəkləri barədə bizi çağıracaqlar".

Əlayif Həsənov SDİ rəhbərini müayinə edən alman həkimlərinin analizinin cavabının Leyla Yunusa verilmədiyini bildirdi: "Həkimlərin göndərdikləri dərmanları alıb. Amma müayinələrin nəticələri tam olaraq Leyla Yunusa verilməyib. Yalnız iştirakımızla Penitensiar Xidmətin etdiyi müayinənin cavabı var. Orada da Leyla xanımın təcridxanada saxlanılmasının səhhətinə təsiri olmadığı qeyd olunub".

Qeyd edək ki, Leyla Yunus ötən il, iyulun 30-da həbs edilib. Onun həyat yoldaşı Arif Yunus da həbsdədir. O, avqustun 5-də tutulub. Onlar dövlətə xəyanətdə və maliyyə cinayətlərində ittiham olunurlar.

Leyla Yunus Bakı İstintaq Təcridxanasında, Arif Yunus isə Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasında saxlanılır.

❑ Cavanşir ABBASLI

# Demokratiyanın alternativi demokratiyadır



Azər RƏŞİDOĞLU

**Dünyanı rəngli inqilablarla hədələyən, məşhur milyarder Corc Soros Rusiyanı "mafioz dövlət" adlandırıb. C.Soros deyib ki, Rusiyada hakim şəxslər ölkənin resurslarını şəxsi varidatlarının artması və hakimiyyəti əllərində saxlamaq üçün istifadə edirlər.**

C.Sorosun sözlərinə görə, Rusiya Ukraynaya təzyiq edir və bu yolla özünü Avropa İttifaqının strateji rəqibi kimi göstərmək istəyir.

Milyarder 25 il əvvəl SSRİ-nin çöküşü zamanı Avropadakı qüvvələr nisbəti ilə indikini müqayisə edib. C.Sorosun sözlərinə görə, avronun yaşadığı böhran Avropa İttifaqını öz müstəqilliklərinin bir hissəsini ümumi mənafe naminə güzəştə gedə bilən suveren dövlətlərin könüllü birliyindən nəsə yeni radikal bir şeyə çevirib. "Hazırda onların arasındakı münasibət borc verənlə borc alanın arasındakı kimidir. Sonuncular da öz vəzifələrini gərəyincə yerinə yetirə bilmirlər. Borcverənlər elə şərtlər irəli sürürlər ki, borcalanlar düşdükləri quyunun dibindən heç cür çıxa bilmirlər".

C.Soros deyib: "Təkcə Ukraynanın yox, Avropa İttifaqının özünün gələcəyi də kart altına qoyulub. Hesab edirəm ki, Ukraynanın itirilməsi Avropa üçün böyük itki olacaq və Rusiyaya "parçalayıb hökm sürmək" imkanı yaradacaq".

***

Ümumiyyətlə, dünyada demokratiya indeksi get-gedə aşağı düşür. Britaniyanın "Economist İntelligence Unit-h" analitik mərkəzi "Demokratiya indeksləri - 2014" reytinq cədvəlini açıqlayıb. Təhqiq edilən 167 ölkə 4 kateqoriyaya bölünüb: tam demokratik, qismən demokratik, hibrid və avtoritar rejimli ölkələr. Bu zaman əsasən aşağıdakı göstəricilər nəzərə alınıb - seçki prosesi və plüralizm, vətəndaş azadlıqları, hökumətin fəaliyyəti, siyasi iştirak, siyasi mədəniyyət.

Reytinq cədvəlində Azərbaycan 148-ci yerə qoyulub. Ölkəmiz Belarus (125), Rusiya (132), Qazaxıstan (137), İranla (158) birgə avtoritar ölkələr qrupundadır. Gürcüstan (81), Ukrayna (92), Türkiyə (98) hibrid ölkələr hesab edilib. Ermənistan isə hibrid ölkələrlə avtoritar ölkələrin sərhədində yerləşir - 113-cü yer.

Təhqiqatların nəticəsinə görə, dünyada tam demokratik 24 ölkə var. İlk beşlikdə Norveç, İsveç, İslandiya, Yeni Zelandiya və Danimarkadır.

ABŞ, Rusiya, Fransa və digər inkişaf etmiş ölkələr iqtisadi, mədəni, hərbi nöqteyi-nəzərindən irəlidə olsalar da, əslində kənardan göründüyü kimi qüsursuz deyil. Məsələn, ABŞ dünyada insan hüquqlarının qoruyucusu kimi çıxış etsə də, Birləşmiş Ştatların özündə insanların hüquqlarının pozulması faktlarına rast gəlinir.

Məhbus sayına görə bu ölkə dünyada liderdir. ABŞ-da dünya əhalisinin 5%-i yaşayır və dünyada olan məhbusların 25%-i (təqr. 2,2 mln. insan) məhz buradadır.

***

Avropanı iqtisadi böhranın bürüdüyü bir vaxtda region dövlətlərində demokratik dəyərləri təhlükə altına alan irqçilik və separatizm kimi radikal meyllərin güclənməsi və bunun tədricən, özünü siyasi həyatda daha qabarıq şəkildə büruzə verməsi heç də təsadüfi deyil. İndiki iqtisadi böhran hələ ki, ayrı-ayrı ölkələrdə bütövlükdə demokratiyanı təhlükə altına almasa da, onun vacib mənəvi dəyərləri olan dözümlülük və çoxmədəniyyətliliyə zərbə vurur.

Artıq Avropada "Qərb dəyərləri" anlayışı mövcuddur. Odur ki, Qərb cəmiyyətlərində insan haqlarının və azadlıqlarının ifadəsi kimi qəbul olunan bəzi qanunlar Şərqdə müsbət qarşılanmaya bilir.

Ənənələrə bağlılıq və mühafizəkarlıq dinindən asılı olmayaraq əksər Şərq cəmiyyətlərinə məxsus olan xüsusiyyətdir. Burada əsas məqam demokratik institutların yoxluğudur. Diktator rejimlərin devrildiyi ölkələrdə keçmiş rejimlərin təsiri altında formalaşan siyasi mədəniyyətdə müəyyən dəyişikliklərə ehtiyac yaranıb. Uzun müddət diktatorluq mühitində yaşayan insanlar arasında qəfil rejim dəyişikliyindən sonra azadlıqlardan sui-istifadə, qanunlara tabe olmama meylləri güclü olur. Demokratik dəyərlərə hörmətin yaranması isə zaman tələb edir.

Unutmaq olmaz ki, "ərəb baharı"nın yaşandığı ölkələrdə inqilablara səbəb demokratiyanın yoxluğu, insan haqları ilə bağlı problemlər, sosial-iqtisadi çətinliklər oldu.

Diktatorların hər vasitə ilə devrilməsinə çalışan ABŞ bəzən marginal qüvvələrə yardım etdi və bu xaosa səbəb oldu. Nəticədə, ərəb ölkələrindəki inqilablardan sonra demokratik quruluş yaranmadı, olan-qalan qanunlar da ayaqlar altına atıldı.

İstənilən halda qanunların işlədiyi Avropa ölkələri qanunların işləmədiyi Şərqdən daha cəlbedici görünür. Bu, mədəniyyətlərin toqquşması anlamına gəlmir. Sadəcə olaraq, siyasi mədəniyyətin formalaşması zaman tələb edir. İnsanlar isə bütün problemləri qısa zaman kəsiyində həll etmək istəyirlər. Bu isə mümkün deyil...



# Sərkisyan Azərbaycana işləyir?

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**26 yanvarda İrəvanda daha bir anti-Rusiya aksiyasının keçiriləcəyi xəbəri yayılıb. Ermənilər Gümrüdə yeddi nəfər qətlə yetirən Rusiya hərbi bazasının əsgəri Valeri Permyakovun erməni tərəfə verilməsi tələbində israrlıdırlar.**

Son günlər Rusiya və Ermənistan kəşfiyyatı ictimai rəyi Gümrü hadisəsindən yayındırmaq üçün çox çalışdı. Hadisədə "Türkiyə və Azərbaycan izi" axtarmaqdan tutmuş, Qarabağ cəbhəsində iri çaplı silahların işə salınmasına, atəşkəsi həmişəkindən artıq pozmağa qədər hər şeyə getdilər.

Rusiyanın marionetkası olan Sərkisyan rejimi qəzəbli ermənilərin diqqətini Gümrü bazasından və özünün mağmınlığından yayındırmaq üçün bu mərhələdə erməni əsgər və zabitlərini qurban verməyi daha üstün tutur. Nəticə ortadadır - ermənilər son günlər təqribən 10 əsgər və zabit itirib. Hərçənd erməni təbliğatı iddia edir ki, Azərbaycan guya 14 itki verib. Ancaq şübhə yox ki, düşmən ölkənin rəhbərliyi bu kimi dezoları onsuz da hərtərəfli bədbəxt olan erməni əhalisini sakitləşdirməyə hesablanıb. Həyasızlığın həddinə baxın ki, Azərbaycana qarşı diversiya cəhdi göstərərkən məhv edilən leytenant Karen Qalstyan və əsgər Artak Sarqsyanın ölümünə görə cinayət işi başlanılıb. İddia olunur ki, diversiyanı Azərbaycan tərəf həyata keçirib.

Beləliklə, Sərkisyan rejimi saxta məlumatlarla ermənilərin başını qatmaqdadır. Keçən ilin 12 noyabrında məhv edilən erməni hərbi vertolyotu Ağdam səmasında, bizim hərbçilərin mövqeyinədək uçanda da ayıq ermənilər hakimiyyətdən şübhələnmişdilər. Deyirdilər ki, vertolyotun Azərbaycan ordusunun "burnunun ucuna"dək uçmasına görə Sərkisyan hakimiyyəti cavab verməlidir. O zaman belə bir ağır itki Serj Sərkisyana çox lazım idi - erməni ictimaiyyətini Avrasiya Birliyinə üzvlüyün "vacibliyinə" inandırmaq üçün. İrəvan belə bir təbliğat aparır ki, Rusiya olmasa, Ermənistan Türkiyə və Azərbaycan tərəfindən məhv edilər. Ancaq ermənilərin rus əsgərə qəzəbi yenə soyumur...

Ermənistandakı anti-Rusiya dalğasının uzunömürlü olmayacağı, səngiyəcəyi qənaətində olanlar da az deyil. Düzdür, 2013-cü ilin yayında Rusiyada 18 nəfərin ölümünə səbəb olmuş Ermənistan vətəndaşı, sürücü Qraç Aratunyan göz yaşları içində, qadın xalatında məhkəməyə gətiriləndə də dünya erməniləri əsib-coşmuşdu. Onda da Rusiya Ermənistan vətəndaşını özü mühakimə etdi. Sonralar sakitlik yarandı, olanlar unuduldu. Ancaq o vaxt Rusiya indiki ağır durumda deyildi, dərin böhrana girməmişdi. Bu günsə ermənilər fəlakətli perspektiv gördükləri halda batan Rusiya gəmisində qalmaq istəməzlər yəqin ki.

Kəsəsi, tarixi şərait yaranıb. Bəşəriyyətin bədxassəli şişi olan erməni xəstəliyi "soyqırım" şoularına kökləndiyi bir məqamda çətin sınaqlarla üz-üzə qalıb. Düzdür, katolikos 1-ci Aram da daxil bir çox ermənilər Eçmiədzində keçirilməsi planlaşdırılan "soyqırım" tədbirlərinin təşkili ilə bağlı Ermənistana gəlib. Ancaq bu gün əsas məsələ Gümrü soyqırımıdır, 100 il öncə ilə bağlı nağıl yox. Gümrü olayına cavab olaraq Stavropoldakı ermənilər bir rus hərbçisini qətlə yetirdi və indi ruslar aksiya keçirib "Rədd olsun ermənilər" deyirlər...

Proseslər bizim faydamızadır. Ancaq Azərbaycan bu situasiyanı sadəcə, seyr etməməli, üzərinə düşəni etməlidir. Gözləməyək ki, erməni günün birində torpaqları azad etmək qərarını verəcək. Hələ bu durumda Suriya ermənisi Arutyun Pambukçyanı ailəliklə Laçın rayonunun Zabux kəndində Livan erməniləri üçün salınan 150 evlik kəndə köçürürlər. Bunlarla öz diliylə danışmaq lazım gələcək. İlanın başını əzəndə belə quyruğu tərpənir. Elə rus ekspert də erməniləri quyruğa bənzətmişdi...

Sözsüz ki, bu situasiya Qərbə bağlı dairələr üçün göydəndüşmədir. Onlar anlayırlar ki, Ermənistan Rusiyanın boyunduruğunda getdikcə dünyada bu ölkəyə hörmət olmayacaq. Odur ki, növbəti dəfə xalqı meydana çağırırlar. Helsinki Vətəndaş Assambleyasının təmsilçisi Artur Sakuns deyib ki, Sərkisyanı erməni xalqının maraqları yox, hakimiyyəti düşündürür. 26 yanvar aksiyası ilə bağlı bəyanatda bu sözlər diqqət çəkir: "Biz Ermənistan hökumətindən və Rusiya tərəfindən Gümrüdəki Avetisyanlar ailəsinin 7 üzvünün qətlə yetirilməsində günahlandırılanın erməni hüquq müdafiəçilərinə təhvil verilməsini tələb edirik!"

Göründüyü kimi, hədəf təkcə rus bazası deyil. Sərkisyan da özünü qorumaq üçün hələ nə qədər erməni əsgərini Qarabağda qurban verəcək. Odur ki, şanlı ordumuz növbəti "ovu"nu gözləsin!

# Dilqəm Əsgərov və Şahbaz Quliyevin əfv ərizəsi məsələsinə iki baxış



**Erməni tərəfi kəlbəcərli girovlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevə əfv ərizəsi yazdırmaq istəyir. Belə bir ərizənin yazılması, şübhə yox ki, girovlarımıza qarşı irəli sürülən ağır ittihamın qəbul edilməsi deməkdir. Erməni vəkili Erik Beqlaryan adıçəkilən məsələni gündəmə gətirməklə qondarma "DQR"ə legitimlik donu geydirmək və xarici ictimaiyyəti həqiqətən də belə bir qurumun mövcudluğuna inandırmağa çalışır.**

Maraqlıdır, əgər belə bir hal baş verərsə, yəni Dilqəm Əsgərov və Şahbaz Quliyev əfv ərizəsi yazarlarsa, azadlığa buraxıla bilərlərmi və bu addım hansı hüquqi nəticə doğura bilər?

Hüquqşünas Müzəffər Baxış qondarma "DQR" rəhbərinə müraciət edərlərsə, azadlığa çıxma ehtimalının ola biləcəyini dedi: "Kütləvi informasiya vasitələrinin məlumatına görə, Dilqəm Əsgərov və Şahbaz Quliyev qondarma rejimin "qanunları" ilə məhkum olunublar. Əgər onların "qanunları" ilə məhkum olunublarsa, onların Ermənistan prezidentinə yazacaqları əfv ərizələrinin məncə, heç bir əhəmiyyəti olmayacaq. Ermənistan prezidenti dedi ki, bu məsələdə biz onları mühakimə etmirik, onları qondarma "Dağlıq Qarabağ Respublikası"nın qanunları ilə mühakimə edirlər. Saxta "DQR"in qondarma qanunlarda elə bir qayda varsa, o zaman müraciət edib azad oluna bilərlər. Daha doğrusu, həmin o "rəhbər" bunları əfv edə bilər".

Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı isə bunu Ermənistanın növbəti məkrli oyunu hesab etdiyini bildirdi: "Onların saxlanılması və "məhkəmə prosesi"nin qurulması oyundan başqa bir şey deyil. Ermənistan Dağlıq Qarabağda qurduğu qondarma rejimi bu formada təbliğ etməyə çalışır. Beynəlxalq təşkilatlara, məhkəmələrə müraciət olunsun və sairənin hamısı oyundur. Erməni vəkili guya canıyananlıq edib məsləhət görür ki, əfvlə bağlı müraciət etsinlər. Əfvlə müraciət edilməsi qondarma rejimin tanınması olacaq. Eyni zamanda mən əminəm ki, onların əfv müraciətinə müsbət cavab verilməyəcək. Yəni ermənilər yenə oyun oynayır. Həm də onların əfv yazması olmayan günahlarını boyunlarına alması deməkdir. Ona görə də bu, qətiyyən yol verilməzdir. Mən onların müdafiəsi ilə bağlı toplantılarda da bir neçə dəfə demişəm ki, hansı formada olursa olsun onlara çatdırmaq lazımdır ki, heç bir halda ona aldanmasınlar. Onsuz da əfv ərizəsi çıxış yolu deyil və bir nəticəsi olmayacaq. Bu, ermənilərin məkrli oyunudur. Ona görə də hesab edirəm ki, Şahbaz Quliyev və Dilqəm Əsgərov da ermənilərin bu oyununa getməməlidir. Bu vaxta qədər dözüblər, bundan sonra da dözməlidirlər. Onlar mütləq azadlığa çıxacaqlar. Başqa variantı yoxdur".



**Müzəffər Baxış:** "Qondarma respublikanın qondarma qanunlarında belə bir qayda varsa, azadlığa çıxa bilərlər..."



**Akif Nağı:** "Bu, çıxış yolu deyil və nəticəsi olmayacaq, eyni zamanda günahın etirafı və saxta rejimin tanınması demək olacaq, dözsünlər..."

Qeyd edək ki, bu günlərdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov ənənəvi mətbuat konfransında bildirib ki, Rusiya vətəndaşı olan Dilqəm Əsgərovun saxlanılması məsələsini Ermənistanla müzakirə edəcək. Nazirin sözlərinə əsasən, dünyanın müxtəlif ölkələrində saxlanılan bir çox Rusiya vətəndaşı var: "Məlumat almaq üçün onların taleyi ilə daim maraqlanırıq. Saxlanılma səbəbləri haqqında informasiya, vətəndaşlarımıza qarşı sürülən ittihamların ağırlığı, onların hansı şəraitdə saxlanılması, saxlanılan vətəndaşlarımız barədə hansı planların mövcudluğu əsasında müvafiq qərar qəbul edirik".

❑ Günel MANAFLI

# Dövlət büdcəsinin "Naxçıvan dərdi"

## Natiq Cəfərli: "Naxçıvanda iri şirkətlər yerli məmurların əlində cəmləşib və onların əksəriyyəti vergilərdən yayınır..."

**2015-ci il dövlət büdcəsində Naxçıvanın gəlir və xərcləri 366.7 milyon dollar proqnozlaşdırılır. Xərclərin 18.8 faizi və ya 69 milyon manatı Naxçıvanın öz gəlirləri, 81.2 faizi və ya 297.7 milyon manatı isə dövlət büdcəsindən dotasiya hesabına formalaşacaq.**



Keçən ilə nisbətən cari ildə dövlət büdcəsindən Naxçıvana 14 milyon dollar artıq vəsait ayrılması proqnozlaşdırılır. Belə ki, Naxçıvanın 2014-cü il üzrə 350,5 milyon manat proqnozlaşdırılan büdcəsinin xərclərinin 80,9 faizi və ya 283,7 milyon manatı dövlət büdcəsindən ayrılan dotasiya hesabına, 19,1 faizi və ya 66,8 milyon manatı muxtar respublikanın öz gəlirləri hesabına formalaşacağı nəzərdə tutulmuşdu.

Bundan başqa, Naxçıvanda həyata keçirilən infrastruktur və sosial təyinatlı layihələrin maliyyələşdirilməsi üçün 2015-ci il dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən müvafiq məbləğdə vəsait ayrılacaq.

Göründüyü kimi, Naxçıvanın büdcəsinin 81 faizi dövlət büdcəsindən transferlər hesabına formalaşır. Xərclərin cəmi 19 faizinin (cəmi 69 milyon manat) NMR-in öz gəlirləri hesabına formalaşması isə ciddi problemdir. Nəzərə alsaq ki, hökumət son illərdə regionların öz xərclərini gəlirləri hesabına təmin etmək siyasəti yürüdür və bu il Bakı, Abşeron, Sumqayıt, Mingəçevir, Şirvan və İmişli dövlət büdcəsindən dotasiya almayacaq. Bəs büdcənin Naxçıvan yükü hansı səbəblərdən şişib və niyə muxtar qurum öz xərclərinin heç olmasa yarısını ödəmək qabiliyyətindən məhrumdur?

İqtisadçı ekspert Natiq Cəfərli deyib ki, Naxçıvanda vergi gəlirlərinin çox az olmasının bir neçə səbəbi var: "Birincisi, Naxçıvanda iri vergi ödəyiciləri olan şirkətlərin, demək olar ki, hamısı yerli məmurların əlində cəmləşib. Bu şirkətlərin əksəriyyəti vergilərdən yayınır. İkincisi, muxtar respublikada rəqabətli mühit yox səviyyəsindədir, rəqabətli mühit olmayanda biznesin inkişafı zəifləyir, vergilər də azalır. Üçüncüsü, yerli vergilərdən yığılan 69 milyon manatın böyük əksəriyyəti biznesdən deyil də, Naxçıvan ərazisində büdcə təşkilatlarında çalışan insanların gəlir vergisidir ki, bu da dolayısı ilə yenə də büdcə hesabına formalaşır".

Ekspertin qənaətinə görə, Naxçıvan bazarı açıq olmalıdır, rəqabətli mühit yaradılmalı, yerli sahibkarlara fəaliyyət üçün aşağı faizli, güzəştli kreditlər verilməli, qonşu Türkiyə və İran şirkətlərinin bazara sərbəst girişi üçün şərait yaradılmalıdır.

İqtisadçı ekspert Rəşad Həsənov isə bildirib ki, Naxçıvan yerli büdcələrinin dotasiyadan asılılığı acınacaqlı vəziyyətdədir: "Belə ki, muxtar respublika xərclərini hər 100 manatından 81 manatını dotasiya şəklində alır ki, bu da enerji gəlirlərinin azaldığı indiki dövrdə ölkə üçün əlavə maliyyə yükü yaradır. Əgər növbəti illərdə ölkənin maliyyə imkanları azalarsa və bu vəsaitlər Naxçıvana ərmağan edilməzsə, ilk növbədə orada yaşayan əhali ciddi sosial çətinliklərlə üzləşəcək. Dövlət xərcləmələrinə və satınalmalarına söykənən Naxçıvanın iqtisadiyyatı resesiyaya uğrayacaq, mənfəət normasının azalması onsuzda ağır şərtlər altında fəaliyyət göstərən sahibkarlığa mənfi təsir edəcək. Beləliklə, onsuzda son illər artan köç daha da sürətlənə bilər ki, bu artıq ölkə üçün həm sosial və həm də siyasi baxımdan arzu edilən deyil.

Bütün bunlarla yanaşı düşünürəm ki, muxtar respublikanın yerli gəlirləri faktiki iqtisadi imkanlarına adekvat deyil. Əslində qeyri-leqal iqtisadi mühit Naxçıvanın gəlirlərinin azlığına əsas səbəblərdəndir. Digər tərəfdən isə infrastruktur xərclərinin səmərəliliyi məsələsinə diqqət yetirilməlidir. Bu istiqamət üzrə xərclərdə korrupsiya riski yüksəkdir. İşçi qüvvəsindən səmərəli istifadə edilmədiyi üçün paytaxta, Rusiya və Türkiyə kimi qonşu ölkələrə axın nəticəsində əlavə dəyər yaradacaq enerji itirilib. Daha çox yaşlı nəslin yaşadığı MR əvvəlki vaxtlarda ucuz işçi qüvvəsinin təşviq etdiyi biznes mühitini də əldən verib. Beləliklə, hazırkı situasiya - yəni dərin maliyyə asılılığı yaranıb".

❑ Bəkir NƏRİMANOĞLU

**Bəzən onu siyasət aləminin bəxti gətirən nümayəndələrindən sayırlar. Hələ tələbəlikdən siyasətin episentrində olan, gənc yaşlarından xeyli populyarlaşan və uğurlar qazanan, nəhayət, 12 ildir mandat sahibi olan bu "bəxt sahibi" ötən illərdə ən müxtəlif cəbhələrdən ittihamlara məruz qalması ilə də diqqət çəkib. Amma dediyinə görə, yaşı artdıqca üzləşdiyi tənqidlərə daha dözümlü tövr nümayiş etdirməyi özü özünə təlqin edib.**

# “Hakimiyyəti inqilabi yolla dəyişmək istəyən xalqın düşmənidir”

## Qüdrət Həsənquliyev: “Azərbaycanda bir çox məsələlərin həlli bu iqtidarın iradəsinə bağlı deyil”

Həmsöhbətimiz bu həftə 50 yaşı tamam olan BAXCP sədri, deputat Qüdrət Həsənquliyev. Yubiley söhbəti aktual məsələləri müzakirə üçün həm də bir bəhanə oldu. Partiya sədri ilə islahatlar mövzusundan tutmuş keçmiş tələbə yoldaşı Əli Kərimli ilə münasibətlərinə qədər çox məsələlərdən danışdıq, xeyli ilginc açıqlamalar verdi.

***- Qüdrət bəy, illər keçdi və siz də el diliylə desək, "Məşədi İbad yaşına" çatdınız. Yaşın bu məqamında nələr düşünürsünüz, Üzeyir bəyin məşhur etirafını bölüşürsünüz, yoxsa fərqli düşüncədəsiniz?***

- Deyirlər Üzeyir bəy 50 yaşına çatanda deyib ki, Məşədi İbada sataşmaqla yaradıcılığında ən böyük səhvi edib. Əslində o, bununla özünə təskinlik verib. Yaş öz işini görür. Əbülfəz bəyin gözəl bir sözü vardı ki, yaşa dolduqca insan müdrikləşir, həyatı daha dərindən dərk edir. Bu, bir həqiqətdir. Yaş özü səni gəncliyin radikallığından, emosiyalarından uzaqlaşdırır. 50 yaş kifayət qədər böyük bir dövrdür. Azərbaycanda da orta yaş həddi elə yüksək deyil. Bunu nəzərə alanda düşünürəm ki, 50 yaş insanın özünə və cəmiyyətə ciddi hesabat verməli bir dövrdür.

***- Parlamentin cari məsələlərindəki 3 dəqiqəlik reqlament sizin hesabat məruzəniz üçün ayrılsa, etdikləriniz haqda nələr deyərdiniz?***

- Bu ölkənin müstəqilliyi üçün çalışdım, xalq hərəkatında olarkən özümü gəncliyin bir çox gözəlliklərindən məhrum etdim. Ancaq bəlkə də bu tale hər kəsə nəsib olmur. Hər bir xalqın taleyində müəyyən keçid dövrləri olur. Bizim müstəqilliyimizi qazanmağımız da xalqımızın tarixində böyük, şərəfli bir dövr oldu, biz də bu dövrün fəal iştirakçısı olduq. Müstəqillikdən sonrakı dövrdə də Azərbaycanda demokratik, hüquqi, sivil dövlət quruculuğu üçün - mövcud reallıqlar nəzərə alınmaqla - əlimdən nə gəldisə etdim və bu gün də edirəm. Bu baxımdan xalqımızın qarşısına alnıaçıq çıxmaq imkanım var ki, mən nələrsə etmişəm. Mən 10 ildir beynəlxalq təşkilatlarda Azərbaycanı təmsil edirəm. 2003-cü ilin millət vəkiliyəm, yaz sessiyasından fəaliyyətə başlamışam. 5 il də müəllim işləmişəm, Asiya Universitetində cinayət hüququndan mühazirə oxumuşam. Bu baxımdan pedaqoji fəaliyyətimdə nələrsə öyrətməyə, siyasi fəaliyyətimdə mümkün olanları etməyə çalışmışam.

***- Bayaq dediniz ki, yaş artdıqca insan radikallıqdan uzaqlaşır. Deməli, sizin konstruktiv müxalifət olmağınızda yaşın da təsiri olub?***

- Nelson Mandela irqçiliyə qarşı mübarizənin simvolu, böyük tarixi şəxsiyyət olub. O, həbsxanaya əlisilahlı, ekstremist, millətçi bir qrupun, gəncliyin liderlərindən biri kimi atılıb. Amma həbsdən çıxanda, 27 ildən sonra tamamilə fərqli dünyagörüşün daşıyıcısı idi və irqlərarası barış, sülh istəyən, insan haqları uğrunda mübarizə aparan təmkinli, Mahatma Qandi qədər dinc mübarizəni tərənnüm edən insan idi. Mən bunu

### “Radikal olduğum dövrlər olub...”

ona görə deyirəm ki, yaş həqiqətən də öz işini görür. Əlbəttə, emosiya hər bir insana məxsusdur. Hətta güclü ruhi həyəcan vəziyyətində qəsdən adam öldürənlərə daha yüngül cəza təyin olunur. Çünki insanın öz hərəkətlərinə nəzarəti zəifləyir. Siyasət adamı çalışmalıdır ki, maksimum dərəcədə emosiyalarına nəzarət etsin və mən də buna çalışıram. Onu da bilirəm ki, biz insanıq, hamımızın emosiyası var. Bəzən elə ola bilər ki, insan öz emosiyalarının diktəsi ilə hərəkət edər, ağlının yox. Amma siyasətçidə gərək iradə o qədər güclü olsun ki, o, emosiyalarını cilovlaya bilsin.

***- Əlinizdə imkan olsaydı, ömrünüzün hansı hissəsindən imtina edərdiniz: gəncliyin dadını çıxara bilmədiyiniz tələbəlik dövründən, dövlət katibinin müavini olduğunuz, AXCP-dəki fəaliyyətiniz, yoxsa parlamentdə keçən illərinizdən?***

- Bu, mənim taleyimdir və mən taleyimi yaşamışam. Odur ki, onun heç bir anına görə peşmançılıq hissi keçirmirəm. Allaha-tala mənim qismətimə çox ağrılı-acılı günlər yazıb. Bu həyatın çox böyük zərbələrini almışam. Görünür həyat elə budur. Deyirlər, həyat ağrı-acısı ilə gözəldir. Mən həyatın sevincini də, ən ağrısını da yaşamışam. Amma keçdiyim həyat yoluna görə də heç vaxt peşmançılıq hissi keçirməmişəm. Hansı dövrdə nəyi doğru hesab etmişəmsə, onu etmişəm, özümün doğru bildiyim qərarları vermişəm, addımları atmışam. Əlbəttə, vaxtilə radikal olduğum dövrlər olub. Lakin prosesləri daha dərindən dərk edəndən, regionda baş verənləri, dünya siyasətini daha dərindən təhlil edəndən sonra və bəlkə də başqalarından fərqli olaraq daha çox informasiya çıxışım olduğu üçün başa düşmüşəm ki, Azərbaycanda bir çox məsələlərin həlli bu iqtidarın iradəsinə bağlı deyil. Hər bir xalqın inkişaf indeksi, inkişaf səviyyəsi var. Elə məsələlər var ki, bu, zamanla həll olunacaq. Vaxtilə Əbülfəz bəy bizi sakitləşdirmək üçün deyəndə ki, "bəylər, bir çox məsələlərin həllinin zamana ehtiyacı var", səmimi deyim ki, bu, məndə qıcıq doğururdu. Mən o gənclərdən biriydim ki, o sözü tam mənada qəbul edə bilmirdim. Amma zaman keçdi, indi artıq özüm o sözü siyasətə qoşulan gənclərə deyirəm. Elə məsələlər var ki, o, zamanla həll olunacaq. Bir dəfə NATO-nun iclasında müzakirə olunurdu ki, niyə Əfqanıstanda bu qədər vəsait xərclənir, ancaq nəticə yoxdur? Britaniyadan olan millət vəkili sonda yarıçılpaq şəkildə dedi ki, orda bir qrup əhali hələ də 13-cü əsr dünyagörüşü ilə yaşayır. Yəni 13-cü əsr insanı ilə 21-ci əsr cəmiyyətini qurmaq olmaz, siz nəhayət, bunu qəbul etməlisiniz. O baxımdan bizim bir çox məsələlərin həlli zamanla bağlı məsələdir, bizim tələsməyimizlə burda heç nə dəyişməyəcək. Müxtəlif demokratik şüarlarla Azərbaycanda hakimiyyət dəyişiklikləri etmək olar, bir hakimiyyət gedə, başqası gələ bilər. Deyək ki, 1917-ci ildə Çar Rusiyasında inqilab oldu, İkinci Nikolayı Stalin əvəz etdi. Nikolayın dövründə Rusiyada daha çox azadlıqlar var idi, yoxsa Stalinin? Hansı ki, Stalin "bərabərlik, azadlıq, siyasi hüquq və azadlıqlar" şüarları ilə hakimiyyətə gəlmişdi. Ancaq əvvəl pis-yaxşı Dumaya seçkilər keçirilirdi, müəyyən azadlıqlar, ən azından mülkiyyət hüququ var idi. Sovetlər dönəmində isə bunların heç biri olmadı...

***- Bu məntiqlə Azərbaycan insanının özünün nə qədər zamana ehtiyacı var?***

- Mən demirəm ki, hamı əlini yanına salmalı, oturub zamanı gözləməlidir. Amma prosesləri tələsdirməklə də nəticə əldə olunmur. Hakimiyyət dəyişikliyi şəraitində sən mövcud problemləri həll edəcək komandanı hardan tapacaqsan? Yeni düşüncəli kadrlar bu millətin içindən tapılmalıdır, bu isə mümkün deyil. Demək mövcud kadrlarla işləmək lazımdır. Tədrici proses getməlidir ki, həm müvafiq qurumlarda olanlar artıq başqa dünyagörüşün daşıyıcıları olsunlar və cəmiyyət də onu qəbul etmək iqtidarında olsun. Bunun üçün konkret zaman söhbəti etmək çətindir. Amma nəsillər dəyişməlidir. Yəni mentalitet qısa müddətdə dəyişmir.



**“Əbülfəz bəy deyəndə ki, “bir çox məsələlərin həllinin zamana ehtiyacı var”, bu, məndə qıcıq doğururdu...”**

***- Deməli, bu iqtidarın hələ uzun illər qalmasını istəyirsiniz?***

- Mən hakimiyyət dəyişikliyi məsələsini önəmli saymıram. Əvvəla, Azərbaycanda hakimiyyət dəyişikliyi konstitusion əsasda baş verməlidir. Yəni kimsə istəyirsə ki, hakimiyyət inqilabi yolla dəyişsin, o, bu xalqın düşmənidir. Ona görə ki, əgər ölkədə, iraq-iraq, inqilab olarsa, ara qarışarsa, bizim ölkəmiz Suriyadan, İraqdan da pis günə qalar. Təsəvvür edirsiniz bu ölkədə nə qədər maraqlı dövlətlər var. Amma eyni zamanda biz tədricən insanları ona hazırlamalıyıq ki, iqtidarlı-müxalifətli hamı onu qəbul etsin ki, hakimiyyət dəyişikliyi, demokratik seçkilər olmalıdır, siyasi-iqtisadi islahatlar aparılmalıdır. Özü də bu islahatlar hamısı yuxarıdan, tədrici qaydada, ardıcıl şəkildə aparılmalıdır.

***- Yuxarılarda buna nə qədər istək, iradə var?***

- Elə bizim dediklərimizin hamısı ona xidmət edir. Bu müsahibə də ona xidmət edir ki, ölkədə yuxarıdan islahatlar aparılsın.

***- Deyilənlər nəzərə alınırmı?***

- Vacib deyil ki, iqtidarda bunu hamı nəzərə alsın. Amma bunu cəmiyyət oxuyur, iqtidardakıların bir hissəsi bunu qəbul edir. Artıq bunun özü işdir. Yəni bu iş davam etməlidir ki, sonda böyük əksəriyyət, o cümlədən sadə insanlar artıq bunun alternativinin olmadığı qənaətinə gəlsin və biz bir-birimizi ittiham etməyək, günahlandırmayaq, sadəcə olaraq hamılıqla qəbul edək ki, daha başqa cür yaşamalıyıq. Bu halda, əlbəttə, dediyim islahatlar, dəyişikliklər baş verəcək.

***- Builki parlament seçkilərinə qədər bir sıra ciddi islahatlara gediləcəyi, hətta parlamentli respublikaya keçidlə bağlı referendum keçiriləcəyi gözləntisi vardı və elə vaxtilə bu barədə siz də demişdiniz. İndi bu haqda nə düşünürsünüz?***

- Ölkədə referendum keçirilməsi üçün kifayət qədər zaman var. Bizə seçki kampaniyasını keçirmək üçün 2 ay vaxt lazımdır, bu da kifayət qədər böyük vaxtdır. Lap Avropa Oyunlarından sonra da siyasi iradə olsa, bunu keçirməyə zaman problemi yoxdur. Yəni yayda referendumu, payızda da seçkiləri keçirtmək olar. Yaxud seçkilərdən də sonra referendumun keçirilməsi mümkündür. Siyasi islahatların yolu konstitusion islahatlardan keçir. Hətta biz 2007-ci ildə təkliflər hazırlayıb təqdim etmişik. Əminəm ki, biz buna gedəcəyik. Baxın, Özbəkistan faktiki surətdə buna keçib, Qırğızıstan, Ukrayna, Moldova, Gürcüstan parlamentli respublikadır, Qazaxıstanda artıq bu məsələ gündəmə gəlib, Ermənistanda iqtidar buna getmək istəyir, ancaq müxalifət imkan vermir. Yəni qalır Türkmənistan, Azərbaycan, Tacikistan. Mən əminəm ki, zaman bizi də məcbur edəcək ki, ən azından parlamentli-prezidentli respublika modelinə keçək. Yəni prezident üsul-idarəsi saxlanılır, prezidentin geniş səlahiyyətləri olur, amma hökuməti parlament seçkilərində qalib gəlmiş partiya formalaşdırır. Həmçinin çoxpartiyalı sistemin inkişafı üçün proporsional seçki sistemi bərpa olunur, parlamentdə yerlərin sayı 250-yədək artırılır. Əlbəttə, bunlar təkliflərdir. 150 nəfər də ola bilər.

***- Parlament seçkiləri ilə bağlı müxalifətin müəyyən təşəbbüsləri var, yaqin siz də izləyirsiniz. BAXCP partiyaların bloklaşması məsələsinə necə yanaşır?***

- Əlbəttə, radikal qüvvələr seçkilərə ayrı bir blokda, daha mötədil, mərkəzçi qüvvələr, bizim də təmsil olunduğumuz, bizim kimi düşünən partiyalar da bir yerdə gedə bilər. Yaxud iqtidar partiyası da ayrıca blok yarada bilər. Yəni biz çalışmalıyıq ki, Azərbaycanda Rusiya modelini tətbiq edək, cəmiyyətimizi çoxpartiyalı sistemə hazırlayaq. Buna görə də normalda Azərbaycan üçün 3-4 partiya lazımdır. Özbəkistanda bunu prezident İslam Kərimov özü edir. O partiyalar arasında müəyyən həddə qədər rəqabət də var. Əlbəttə, biz deyə bilmərik ki, orda tam demokratik sistem formalaşıb. Amma gələcək sistemin əsasları qoyulur, partiyalararası mübarizə, partiyaların strukturlaşmasından söhbət gedir. Yəni günün birində İslam Kərimov olmasa, artıq orda oturuşmuş, parlament idarəçiliyini mənimsəmiş, strukturlaşmış partiyalar var. Bu isə İslam Kərimovdan sonrakı dövrün qanlı-qadalı olmasının qarşısını alır. Rusiyanın özündə də oxşar model var. Partiyaların heç biri Putinə qarşı aqressiv mövqe sərgiləmir, ümummilli məsələlərdə onun yanındadırlar, amma cəmiyyətin problemlərini sərtliyi ilə ortaya qoyur. Orda artıq çoxpartiyalı Duma formalaşıb, narazı elektorat o partiyaların ətrafında birləşdiyi üçün siyasi partiyalar xaosa imkan vermir.

***- Siz məlumatlı olarsınız, parlament seçkiləri ilində iqtidar və müxalifət arasında bu məsələlərdən bəhs edən müzakirələr gözlənilirmi?***

(Davamı növbəti sayımızda)

❑ **Elşad PAŞASOY**



# Papağı yerə atılan polis haqda növbəti məlumatlar

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycanda dövlətçiliyin səviyyəsi Binəqədi yolunu basan yağış suları qədər yüksəkdir. Biz də bunun içində üzərək həyatdan zövq alırıq. Misal üçün, bir polis var idi, hüquq müdafiəçisi Leyla Yunusun tutulması kimi çətin, məşəqqətli, böyük igidlik tələb edən əməliyyat zamanı fərqlənmişdi: o, Leyla Yunusun ayaqyoluna getməsini önləmişdi, bu isə düşmən tanklarının hücumunu sinəsi ilə önləmək qədər cəsur hərəkət idi.**

Təsəvvür edin, 60 yaşlı qadının tualetə səferini önləyən zaman gənc polis hətta papağını itirmişdi! Qəddar və amansız Leyla Yunus onun papağını götürüb yerə atmışdı! Dəhşət idi! Xalqımıza qarşı amansız genosid siyasətinin növbəti təzahürü idi, dünya ictimaiyyəti hələ də susur. Polisin papağı isə bizdə dövlətçilik atributlarından biri sayılır.

Bu atributlar, yeri gəlmişkən, çoxdur və nə qədər çox olması dövlətimizin qüdrətinin əlamətidir. Bu sıradan qeyd edə bilərik: Əfruz xalanın seçki məntəqəsində qabağa verdiyi sinəsi, telekanalizasiya efirində cırılan 1 manatlıq, Zəngilanın işğal gününü əzbər bilən JEK işçiləri, bulvardakı bayrağın sapı, Azadlıq meydanının altındakı avtomobil dayanacağı, əhalinin kütləvi intiharı üçün "əsl vətəndaş Koroğlu" adına körpü, "Bakı-2015 olimpiadası", "Evrovizion", azərilayt markalı neft, azərikayf markalı qaz və sairə.

Həmin dövrdə deputat Çingiz Qənizadə bu qəhrəmanlığın qiymətləndirilməsi üçün Daxili İşlər Nazirliyinə müraciət etmişdi. Dünya yaxşı insanlardan xali deyil! Müraciətdə həmin polisə Milli Qəhrəman, ya da ən pis halda Milli Qəhərman (igidliyi ilə uca millətimizi qəhərə boğduğu üçün - Z.H.) adının verilməsi, leytenant rütbəsinin artırılıb general edilməsi, "Alov qüllələri" massivində mənzillə təmin olunması, altına "Bentli" qoyulması, uşaqlarının Maldiv adalarında istirahəti, ən nəhayət, qızıl işləməli yeni papağın verilməsi xahiş, rica, tələb, əmr, göstəriş və dəvət edilirdi.

Xəbər agentliklərinin məlumatına görə, bugünlərdə Yasamal polisinin sabiq rəisi İsmayıl Əsədov (bu da Leyla Yunus əməliyyatında dəhşətli fərqlənən igid oğullarımızdan biri idi, hazırda xarici qara qüvvələrdən qorumaq üçün başqa rayona rəis göndərmişik və bağça uşaqları "Böyüyəndə İsmayıl müəllim kimi olmaq istəyirəm" mövzusunda inşa yazırlar) bir tədbirdə Çingiz Qənizadə ilə rastlaşıbdır. İsmayıl müəllim Çingiz müəllimə məlumat verib ki, sizin müraciətiniz polis rəhbərliyi tərəfindən yüksək zövqlə qarşılanıb, həmin polisin rütbəsi artırılıb!

Əladır. Çox sevinirik. Bütün Yasamal sakinləri adından polis və ölkə rəhbərliyinə dərin minnətdarlıq edirik. İndən belə heç bir düşmən bizim polisin papağını yerə ata bilməz. Çünki biz papağı yerə düşən hər bir polisin rütbəsini artıracağıq. Bir dəfə atarsan, mayor olar. İki dəfə atarsan, generala çıxar. Nəticədə yağı düşmən xar olar, ədalət bizə yar olar, dağlarımızın başı qar olar! Bu münasibətlə xahiş edirəm "Vay Zaur" verilişinə həmin polisi dəvət etsinlər, gənclərimiz həyatda yer tapmağın, papağını haralara uzatmağın önəmini öyrənsinlər. Yoxsa bütün günü metroda, bulvarda-zadda mələşən, itələşən, böyürüşən, mıkkıldaşan, hokkuldayan, zıkkıldayan nə qədər mənasız qara geyimli qara, əsəbi qaqaşlar vardır.

Biz uşaq olanda çalışırdıq Spartaka, Herakla, Mixayloya, Qaqarinə, Matrosova, nə bilim, Meresyevə-filana oxşayaq. Amma indiki gənclərin həyat yoluna daha çağdaş igidlik kriteriyaları işıq salır. Fikrimcə, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayevə də şəxsi işinə yazılmaqla töhmət verilməlidir, çünki üstündən neçə ay keçir, lakin indiyə qədər papağı yerə atılan o polis haqda bir hekayə də yazılmayıbdır! Dövlət büdcəsindən hər il o qədər pul alıb yeyirlər, ancaq Rəsul Rza haqda romanlar buraxırlar. Ayıb deyilmi? Bəs papağı yerə atılan polis haqda romanı kim yazacaq? Bəyəm Anar müəllim istəsə həmin igid haqda "Beşmərtəbəli polisin altıncı papağı" povestini yaza bilməzmi? Bəs nə üçün susur? Bu nə ziyalılıqdır? Anar Rzayevin dostu Cəmil Həsənli hara baxır?

Biz hətta o polisin adını da düz-əməlli bilmirik, el arasında ancaq "papağı yerə atılan polis" kimi tanıyırıq. Bu lap dəhşətdir! Bizim millət düzələn deyil. Qədirbilməzlik canımıza işləyib. Ar olsun!



# "Moskva erməniləri Azərbaycanın Ermənistanı əzəcəyi ilə qorxudur"

## Ekspert: "Kreml istəyir ki, ermənilər öz yerlərində oturub ruslara köləliklərini davam etdirsinlər..."

**Azərbaycan ordusu ilə işğalçı qüvvələrin təmas xəttində gərginlik son günlər xeyli dərəcədə artıb. Söhbət Dağlıq Qarabağla yanaşı, həm də Azərbaycan-Ermənistan sərhədi boyu vəziyyətin gərginləşməsindən gedir. Diqqət çəkicidir ki, bu günlər cəbhə xəttində erməni tərəf ciddi itkilər verməkdədir. Təkcə yanvar ayında düşmən ölkənin 14-dən çox hərbçisi öldürülüb, onlarla yaralısı var.**

Maraqlıdır ki, istər Qarabağ zonası olsun, istərsə də Azərbaycanla sərhəd rayonları, öldürülən erməni hərbçilər arasında zabitlər, kontrakt əsasında xidmət edən muzdlu döyüşçülər kifayət qədərdir. Yəni düşmənin yetərincə peşəkar qüvvələri sarsıdıcı zərbələr almaqdadır və bu, ordumuz adına, əlbəttə ki, qürurvericidir. Lakin bəzi təhlilçilərə görə, təmas xəttində müşahidə edilən və vaxtaşırı iri çaplı silahlar da istifadə olunmaqla qanlı döyüşlərə keçdiyi son gərginlik hansısa qorxulu planın işartıları da ola bilər.

Cəbhədəki son gərginlikdə yenə "Kremlin barmağı"nın göründüyünü bir sıra ekspertlər qeyd edirlər. Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri Natiq Miri hesab edir ki, Qarabağ cəbhəsində hərbi aktivliyin artması Rusiyanın və Ermənistan hakimiyyətinin siyasi maraqları kontekstində baş verir: "Bunun kökündə konkret siyasi məqsədlər var. Ermənistanda erməni ailəsinin Rusiya hərbçisi tərəfindən qətlindən sonra Ermənistan cəmiyyətində Rusiyaya qarşı hərəkətlənmə başladı. Rusiya düşünür ki, Ermənistan ictimaiyyətinin Rusiyaya qarşı aqressivləşməsində Qərbin marağı və rolu var. Ona görə də böyük ehtimalla Moskva erməniləri Qarabağ müharibəsinin hər an başlaya biləcəyi və Azərbaycanın Ermənistanı əzəcəyi ilə qorxutmaq istəyir. Moskvanın əlində oyuncaq olan Sərkisyan rejimi ona verilən sifarişlə atəşkəsi ardıcıl pozur və Azərbaycan ordusundan sərt cavab zərbəsi alır. Sevindiricidir ki, son bir neçə həftədə müşahidə olunan atışmalarda Azərbaycan ordusu itki verməyib, ermənilərin itkiləri isə 10 nəfərdən yuxarı olub. Belə vəziyyət Rusiyaya ona görə lazımdır ki, Rusiyaya qarşı qəzəblənmiş erməni ictimaiyyətində "Rusiya üzərimizdən əlini çəksə, Azərbaycan ordusu nəinki Dağlıq Qarabağa, hətta İrəvana qədər gedib çıxa bilər" rəyi, xofu yaransın".

N.Miri qeyd etdi ki, Rusiyanın Ermənistana hərbi dəstəyi olmayacağı halda, Azərbaycan ordusu işğal edilmiş bütün ərazilərimizi azad etmək, hətta hazırda Ermənistan əraziləri sayılan tarixi Azərbaycan torpaqlarını da geri qaytarmaq gücündədir: "Kreml istəyir ki, ermənilərə bu reallığı başa salsın və ermənilər yerlərində oturub ruslara köləliklərini davam etdirsinlər. Rusiyanın ən təsirli silahlarından biri budur ki, Ermənistanda azacıq anti-Rusiya ovqatı hiss olunan kimi Qarabağ cəbhəsində gərginlik, təxribatlar, ardıcıl atəşkəs pozulması halları baş verir. Artıq son günlər Rusiyanın nəzarəti altında olan bir sıra erməni media orqanları təbliğat aparırlar ki, Rusiya Ermənistanı müdafiə etməsə Azərbaycan tankları bir həftəyə İrəvana gəlib çıxar. Bu təbliğat da şübhəsiz ki, erməni ictimaiyyətinin gözünü qorxutmaq üçündür. Düzdür Rusiyanın əlində erməniləri qorxutmaq üçün iqtisadi rıçaqlar da var. Məsələn, qazın qiymətinin qaldırılması, Ermənistana göndərilən bir çox məhsulların ixracının dayandırılması, Ermənistandan Rusiyaya satılan bəzi məhsulların qarşısının alınması da qorxu yarada bilər. Ancaq bu addımlar Rusiyaya sərf etmir. Rusiyaya o sərf edir ki, özünün adı ortada olmadan ermənilərdə xof yaratsın. Bu isə Qarabağda müharibə təhlükəsinin olduğunun hiss etdirilməsidir".



Natiq Miri

"Son günlər baş verənlər uzun müddətli müharibə başlayacağı halda Azərbaycan ordusunun irəli getmək imkanlarının olduğuna dəlalət edirmi" sualına cavabında isə ekspert bildirdi ki, Azərbaycan ordusunun üstünlükləri Ermənistan ordusundan qat-qat çoxdur. Əgər uzun müddətli müharibə başlayarsa, çox az zamanda Azərbaycanda 500 minlik ordu səfərbər etmək imkanı var. Üstəlik texniki, maddi təchizat baxımından bütün dünyaya bəllidir ki, dəfələrlə işğalçı Ermənistan ordusundan üstündür: "Ona görə də hesab edirəm ki, Ermənistanın indiki acınacaqlı durumunda Azərbaycan ordusunun bütün işğal olunmuş rayonlarımızı azad etmək imkanı var. Ancaq məsələ bundan ibarətdir ki, dünya gücləri belə bir müharibəyə imkan verəcəkmi? Dünya gücləri Dağlıq Qarabağ cəbhəsində uzunmüddətli savaşın olmasını istəmirlər. Çünki bu savaş olduğu halda Ermənistan dövlətinin darmadağın olacağını bilirlər. Qərb dünyası öz geosiyasi maraqlarını qorumaq üçün də bu regionda müharibənin başlamasını istəmir. Çünki bu savaşın təkcə Azərbaycan və Ermənistanla məhdudlaşmayacağı, böyüyüb qlobal bir savaşa çevrilməsi ehtimalının da olduğunu Qərb bilir. Eyni zamanda, Rusiya da seçim qarşısında qalmaq istəmir. Rusiya bilir ki, uzun müddətli müharibə başlayacağı halda Ermənistana açıq dəstək verərsə, Azərbaycan kimi əhəmiyyətli ölkəni itirmiş olacaq, Ermənistanı müdafiə etməyəcəyi halda isə ordumuz bu işğalçı dövləti diz üstə çökdürəcək".

❑ Etibar SEYİDAĞA



# İŞİD işğal etdiyi əraziləri itirir

## Son əməliyyatlarda 49 terrorçu öldürülüb

**İraqın Müdafiə Nazirliyi Əl-Anbar vilayətində bir bölgənin İŞİD terror təşkilatından geri alındığını açıqlayıb. Musavat.com Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, İraqın Müdafiə Nazirliyi tərəfindən verilən məlumata görə, Cəzirə və Badi əməliyyatlar komandanlığının 7 piyada diviziyası və könüllü üzvlərdən ibarət olan birliklərin icra etdiyi müvəffəqiyyətli əməliyyatlar nəticəsində paytaxt Bağdadın 260 kilometr qərbində yerləşən Hadisə mahalına bağlı Əl Xesfe bölgəsi də İŞİD terror təşkilatından təmizlənib.**

ABŞ-ın koalisiya güclərinə aid döyüş təyyarələrinin də dəstək verdiyi əməliyyatda isə 49 nəfər İŞİD üzvünün öldürüldüyü bildirilir.

❑ Paşa SADIQLI

YENİ MÜSAVAT
N 17 (6045) 26 yanvar 2015

# Bakıda səfirliklərin mühafizəsi gücləndirildi - İŞİD təhlükəsi

## Diplomatik korpusun təhlükəsizliyi ilə bağlı xüsusi addım

**Bakıda dünyanın aparıcı dövlətlərinin və Avropa ölkələrinin konsulluqlarında təhlükəsizlik tədbirləri ilə bağlı xüsusi addımlar atılıb. Bu barədə axar.az-a məlumatlı qaynaqdan verilən xəbərdə səfirliklərin mühafizəsinin daha da sistemləşdirildiyi qeyd olunur.**
**Xüsusi xidmət orqanları və kəşfiyyat tərəfindən qorunan səfirliklərdə mühafizənin gücləndirilməsinin əsas səbəbləri açıqlanmasa da, regionda cərəyan edən siyasi-hərbi konfliktlərə görə bu addımların atıldığı ehtimal edilir.**



### Təkcə yanvar ayında Azərbaycana bu təhlükə ilə bağlı beynəlxalq mediada bir neçə məqalə dərc edilib; təhlükəsizlik tədbirlərinin terror təşkilatlarının dünyada yaratdığı psixoloji gərginliyi aradan qaldırmağa xidmət etdiyi deyilir; ekspertdən sensasiyalı iddia...

Saytın xəbərində o da deyilir ki, Azərbaycan hüquq-mühafizə orqanları səfirliklərin qorunmasında xüsusilə aktiv iştirak edir və hər hansı təhlükə ehtimalı yoxdur. Sadəcə, bu tədbirlər dünyanı təhdid edən terror təşkilatlarının yaratdığı psixoloji gərginliyi aradan qaldırmağa və səfirliklərin özünü güvəndə hiss etməsi üçün şərait yaratmağa xidmət edir.

Qeyd edək ki, bu günlərdə "Another Western Dawn News" adlı Avropa nəşri Azərbaycana İŞİD təhlükəsi ilə bağlı sensasion xəbər dərc etmişdi. Xəbərdə deyilirdi ki, "İraq Şam İslam Dövləti"nin (İŞİD) daxili işlər naziri Abdul Vahid Xudayar Əhməd Azərbaycandan olan silahlıları bir yerə toplayaraq, onları Qərbin dəstəklədiyi Azərbaycan hakimiyyətinə qarşı silaha sarılmağa çağırıb: "Biz Bakını, İslamın ən qiymətli şəhərlərindən birini xilas etməliyik. Heç şübhəsiz, Azərbaycanın və onun təbii sərvətlərinin İslam dünyasındakı yeri bərpa olunacaq". Nəşr onu da iddia edib ki, İslam cihadçılarını yönləndirən və maliyyələşdirən Səudiyyə Ərəbistanının milyonçuları hələ 1998-ci ildən etibarən Azərbaycanda gizli radikal mücahidlərin hazırlanmasına və formalaşdırılmasına başlayıblar. Məlumatda vurğulanır ki, sonradan Suriyaya yollananlar məhz həmin dəstələrdə hazırlıq keçənlərdir.

Maraqlıdır ki, bu xəbərdarlıqdan bir neçə gün sonra Türkiyənin "Yeni Çağ" qəzeti də "İslam Dövləti" terror qruplaşmasının Azərbaycanda fəaliyyətini gücləndirdiyinə dair yazı dərc edib. Məqalədə İŞİD-çilərin 90 faizinin Suriyaya Türkiyə üzərindən keçdiyi göstərilir. Qəzet yazır ki, müxtəlif ölkələrdən öz sıralarına radikalları cəlb edən qanlı təşkilat İŞİD-in qolu Azərbaycana da uzanıb. Təşkilat Azərbaycandan topladığı gənclərə təlim keçdikdən sonra onları ailələri ilə birlikdə Türkiyə üzərindən Suriyaya keçirir. Dönmək istəyən ailələr isə "Azərbaycanda sizi həbs gözləyir" deyə qorxudulur.

Milli Təhlükəsizlik Nazirliyi İŞİD-ə qoşulanlara qarşı mütəmadi əməliyyatlar keçirsə də, bu terror təşkilatlarına yenə də qoşulanlar var. Məsələn, son olaraq Şəki rayonu, Daşüz kənd sakini Elnurə Məmədova üç övladını da özü ilə götürərək Suriyaya gedib. Onunla bərabər Suriyaya anası, bacısı və yeznəsi də gedib. 9 nəfərlik qrup kəndi tərk edərək Balakənə, oradan sərhədi keçərək Gürcüstana gediblər. Qrupun Gürcüstandan Türkiyəyə, oradan isə Suriyaya keçdiyi güman olunur.

Adının çəkilməsini istəməyən sabiq təhlükəsizlik xidməti əməkdaşının dediyinə görə, vaxtilə İŞİD tərkibində vuruşanlar Azərbaycana qayıtdıqdan sonra real təhlükə mənbəyi ola bilərlər: "Onların əksəriyyəti indi ya həbs edilib, ya da nəzarətdədirlər. Amma mümkündür ki, bəziləri hələ də nəzarətdən yayına bilsin. Düşünürəm ki, MTN Azərbaycanda bu təhlükə ilə bağlı situasiyaya ciddi nəzarət edir". Həmsöhbətimiz səfirliklərlə bağlı təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə gəlincə, sensasion sayıla biləcək iddia irəli sürdü. "Bu təhlükəsizlik tədbirlərinin prezidentin Almaniya və Davos səfərlərindən sonra gücləndirilməsi maraq doğurur. Mümkündür ki, prezidentin xüsusilə Almaniyaya səfərində Azərbaycana İŞİD təhlükəsi ilə bağlı hansısa kəşfiyyat məlumatları verilib. Almaniya İŞİD-lə mübarizədə çox fəaldır və bu ölkənin kəşfiyyat orqanları terror təşkilatlarının bütün dünyadakı "yuvaları" barədə də ciddi məlumatlara malikdir", deyə müsahibimiz bildirib.

İstirahət günü olduğu üçün səfirliklərlə və rəsmi orqanlarla mövzunu bu gün davam etdirəcəyik.

❑ **Xəbər xidməti**

# Rusiya hələ də Azərbaycanın Avrasiya Birliyinə qoşulacağına ümidlidir

## Qabil Hüseynli: "Bakı yalnız bir halda yeni strateji seçim edə bilər..."

**Ukrayna olayları və Rusiya-Qərb qarşıdurması Putinin Avrasiya layihəsini müəyyən mənada arxa plana keçirsə də, Rusiya hakimiyyəti bu istiqamətdə fəaliyyətini davam etdirir. Son olaraq yanvarın 2-də Ermənistan rəsmən Avrasiya Birliyinə üzv oldu. Bu ilin mayında isə Qırğızıstanın Avrasiya Birliyinə rəsmi üzv olması planlaşdırılır.**

Putinin Avrasiya Birliyində görmək istədiyi ölkələrdən biri də, şübhəsiz ki, Azərbaycandır. Hətta bir sıra ekspertlərə görə, Moskva ötən müddətdə Bakıya birliyə üzv olması üçün açıq və ya gizli təzyiqlər də edib. Bəs hazırda durum necədir, bu təzyiqlərin səngidiyini söyləmək olarmı?

Politoloq Qabil Hüseynli deyir ki, açıq şəkildə büruzə verilməsə də, Moskva Azərbaycanın Avrasiya Birliyinə cəlb edilməsi yönündə təzyiqlərini davam etdirir: "Zənnimcə, bu proses davam edir. Yəni Rusiyanın vəziyyəti ağırlaşdıqca Avrasiya Birliyini möhkəmləndirməyə çalışır. Bu birliyi də sözsüz ki, güclü və dünyada populyar olan dövlətlərlə gücləndirməyə çalışır. Məsələn, Qazaxıstan Avrasiya Birliyinə sanballı töhfə verə bilər. Eyni töhfəni Azərbaycan da verə biləcək qüdrətdədir. Rusiya yaxşı bilir ki, Ermənistan və Qırğızıstanla Avrasiya Birliyini reytinqli bir təşkilata çevirə bilməyəcək. Ukraynadan sonra yaranmış boşluğu isə yalnız Azərbaycan doldura bilər. Ona görə də Azərbaycana təlqinlər də, təkliflər də, hətta təzyiqlər də var".

Azərbaycanın soyuqqanlı siyasət apardığını qeyd edən ekspertin fikrincə, rəsmi Bakı Avrasiya Birliyinə yalnız Qarabağ münaqişəsinin həlli qarşılığında qatıla bilər: "Əvvələ, rəsmi Bakı bütün bloklarla bərabər məsafə saxlamağın tərəfdarı kimi çıxış edir. Bunu tarazlaşdırılmış siyasət kimi də yozmaq olar. Çünki "Qoşulmayanlar" Hərəkatının üzvüdür və onun prinsiplərinə də sadiq qalır. Azərbaycan yalnız bir halda yeni strateji seçim edə bilər: öz ərazi bütövlüyünün tanınmasından və qondarma "DQR"in vertikal olaraq Azərbaycana tabe etdirilməsindən sonra bu şərtlər daxilində Avrasiya Birliyinə daxil olub-olmamaq barədə fikirləşə bilər. Ancaq hələlik Rusiyadan bu jesti görmürük, Moskva hələ də özünü təkəbbürlü aparır və Ermənistanla bağlı siyasətində də dəyişiklik etmək niyyətində olmadığını nümayiş etdirir. Azərbaycan dözümlü xarici siyasət yürüdür, Rusiya ilə münasibətləri bütün sahələrdə yaxşılaşdırmağa çalışır, amma bunun cavabını da istəyir".


Qabil Hüseynli

O ki qaldı Kremlin Bakıya təzyiqlərinə, Qabil Hüseynliyə görə, Rusiya bir çox hallarda açıq şəkildə Bakıya təzyiq göstərir: "Ən güclü təzyiq isə təbii ki, Qarabağ münaqişəsi üzərindən edilir. Merkel bu yaxınlarda söylədi ki, atəşkəs rejiminin pozulmasında Rusiya fəal şəkildə iştirak edir. Bu, onu göstərir ki, bütün dünya da şahiddir ki, Rusiya hələ də Qarabağ kartından təzyiq kimi istifadə edir. Rusiya Azərbaycanın bir sıra enerji layihələrinin uğurla həyata keçməsinə mane olmağa çalışır. TANAP layihəsinə alternativ olaraq "Cənub axını" layihəsindən imtina edərək "Türkiyə axını" layihəsini ortaya atıb. Bakı-Supsa kəmərinin işləməsinə əngəllər yaradılır. Gürcüstandakı indiki rejimin Rusiya meyilli olmasından istifadə edərək Batumidəki bir sıra neft terminallarını satın alıb və yaxud ortaq olaraq Dağıstandan Batumiyə şose yolu layihəsini ortaya atıb. Üstəlik Abxaziyadan keçən dəmir yolunu işə salıb Ermənistan dəmir yoluna birləşdirməklə Bakı-Tiflis-Qars dəmir yolu layihəsinə də müəyyən əngəllər yaratmaq istəyir. Kremlin indiyə qədər Türkmən qazının Xəzərin dibindən keçməklə "Şahdəniz" layihəsinə qoşulmasına imkan verməməsi də bu təzyiqlərin içərisində ən çox diqqət çəkənidir. Bir sözlə, Azərbaycan Rusiya ilə münasibətlərinin səmimi olmasını istəsə də, qarşılıqlı səmimiyyəti axıra qədər Moskvadan görə bilmir".

❑ **KƏNAN**

# Demokratın diktatora baş əyməsi...



**Xalid KAZIMLI**

**Lap köhnə əyyamdan ABŞ prezidentlərinin hamısının dilinin əzbəri olan bir ifadə var: demokratiya. Öz ölkələrində bu xüsusda problemləri yoxdur, seçkiləri azad, ədalətli, şəffaf keçirirlər, xalqdan çox səs alan qalib gəlir.**

Ancaq xarici ölkələrin demokratiyasına münasibətdə ABŞ prezidentləri də, onların başçılıq etdiyi administrasiya da dözümlü, laqeyd ola bilirlər.

Ayrı-ayrı ABŞ prezidentləri dünyanın ən qəddar diktatorları ilə dost-qardaş münasibətdə olublar. Məsələn, bir zamanlar Çili diktatoru Auqusto Pinoçetin bir nömrəli dayağı ABŞ dövləti olub.

Nikaraqua diktatoru Samosa haqqında işlədilən təhqiramiz ifadə ("Samosa it oğludur, amma öz itoğlumuzdur") də ABŞ-ın diktatorlara əsl münasibətinin bir nümunəsidir.

İranın şah sülaləsinin sonuncu monarxı Rza şah Pəhləvi son gününə qədər ABŞ tərəfindən dəstəkləndi.

Türkiyənin xunta rəhbəri Kənan Evren də ABŞ tərəfindən himayə olunmuşdu.

Misirdə diktator Hüsnü Mübarək ABŞ-ın adamıydı, indiki diktator Sisi də ABŞ tərəfindən müdafiə olunur.

Belə misalları çox sadalamaq olar. Zatən, dünyada hər zaman diktatorlar çoxluq təşkil edib.

Dünyanın sosializm və kapitalizm düşərgəsinə bölündüyü vaxtda nə ABŞ, nə də onun əsas rəqibi SSRİ üçüncü ölkələrin rəhbərlərinin demokartlığına, diktatorluğuna baxmırdılar.

Ancaq soyuq müharibədən sonra, xüsusilə də Billi Klintonun hakimiyyətə gəlməsi ilə ABŞ diktatorlarla məsafə saxlamağa başlamışdı. Daha onları Ağ Evdə tez-tez yüksək iltifatla qəbul etmirdilər.

ABŞ-ın diktatorlara təzyiqi artmışdı, adlarını hesabatlara salır, ölkələrində azad seçki keçirməyə çağırır, insan haqlarına riayət tələb edirdilər.

Elə görünürdü ki, ABŞ dünya diktatorlarının qəniminə çevrilib və ölkələrin bir-birinin ardınca demokratikləşməsinə böyük töhfələr verəcək.

Klinton 2000-ci ildə demokratikləşmə prosesinin dünyada genişlənəcəyini bildirmiş, "İnsanlara hürriyyət, millətlərə istiqlal" (bəli, məhz belə) şüarı elan etmişdi.

Onun siyasi xələfi Corc Buş da dünyəvi demokratikləşmə prosesinin dönməz xarakter aldığını bildirmişdi.

Dünyada ard-arda diktatorlar devrilir, demokratik dövlətləri sayı artır, ildən-ilə azad seçki keçirən ölkələri çoxalırdı.

Barak Obama prezident postuna gəldiyi vaxt dünyada gedən demokratikləşmə prosesinin daha da sürətlənəcəyi gözlənilirdi. Ancaq elə olmadı.

Obamanın zamanında inqilab edən, demokratiyaya keçəcəyi gözlənilən ölkələrdə tamamən əks proseslər getdi.

Obama sələflərindən - Klinton və Buşdan fərqli olaraq diktatorlara daha isti münasibət göstərirdi və göstərməkdədir.

İndi xəbər gəlir ki, o, üç gün öncə vəfat etmiş kral Abdullanın hüzr məclisində iştirak etmək üçün Səudiyyə Ərəbistanına gəlib.

Səudiyyə Ərəbistanı dünyada yeganə ölkədir ki, ölkə hakim ailənin adını daşıyır və Səud ailəsinin şəxsi dövlətidir. Teokratik monarxiyadır. Bu ölkədə seçki-filan keçirilmir.

Bəs kral Abdulla kim idi? Atasının ingilislərin əli ilə qurduğu dövlətin vəliəhdiydi. O, hakimiyyəti böyük qardaşından aldı, işlədi, kiçik qardaşına ötürdü. Dövlətin ali postu da "kral" adlanır - Böyük Britaniyada olduğu kimi.

Bu dövlət nəinki Yaxın Şərqdəki, hətta ondan çox-çox uzaqlarda yerləşən ölkələrdə vəziyyəti pul-para gücünə qarışdıran, müasir dünyanın təhlüküəsizliyinə, demokratiyanın inkişafına problemlər yaradan bir dövlətdir.

İndi özünü dünyada demokratiyanın dayağı və beşiyi sayan qüdrətli dövlətin rəhbəri onun hüzr məclisinə gəlir.

Bəs demokratiya və insan haqları necə olsun? Başqa dövlətlərdə insan haqları demokratiya dərdi çəkən ABŞ yəqin ki, Səudların ölkəsində müxalifət partiyalarının və müstəqil qəzetlərin qadağan olunmasından xəbərdardır.

Bu ölkədə heç adi, elementar insan azadlıqları da yoxdur. Başqa avtoritar rejimləri "bəşəriyyət düşməni", "şər dövlət" elan edən ABŞ-ın Səudiyyə Ərəbistanındakı rejimin qəddarlığına göz yumması, isti münasibət bəsləməsi heç cür anlaşılan deyil. ABŞ belə addımlar atmamalıdır.

Ancaq bu, bir neçə il öncə ər-Riyadda olarkən kral Abdullanın qabağında ikiqat olub baş əyən Obamadır. Böyük demokratın böyük diktatora baş əyməsi proseduru davam edir.

YENİ MÜSAVAT
N 17 (6045) 26 yanvar 2015



# Yeni kral köhnə siyasəti dəyişəcəkmi?

Kənan RÖVŞƏNOĞLU

**Ötən həftənin ən yaddaqalan hadisəsi Səudiyyə Ərəbistanı kralı, 91 yaşlı Abdullah ibn Əbdüləzizin ölməsi oldu. Kral son bir neçə ildə xəstə olmuşdu, sonuncu 3 həftəni xəstəxanada keçirmişdi və paralel olaraq bir neçə dəfə ölüm xəbəri yayılmışdı. Buna baxmayaraq 91 yaşlı kralın ölümü bütün dünyanın diqqətini öz üzərinə çəkdi.**

Bir çox region ölkələri, o cümlədən İngiltərə, Türkiyə kimi keçmiş imperiya dövlətləri kralın ölümü ilə bağlı matəm elan etməklə ciddi polemikalara səbəb oldular. Məsələ burasındadır ki, Səudiyyə Ərəbistanında ölkənin kralın ölümü ilə bağlı rəsmi matəm tədbirləri olmadı. Kral sadə müsəlman kimi dəfn olundu, dövlət bayraqları belə endirilmədi.

Artıq ölkənin yeni kralı bəllidir. Səudiyyə Ərəbistanın yeni, 7-ci kralı Salman ibn Əbdüləziz olub. Yeni kralın kimliyi hələ 2012-ci ildən bilinirdi. Həmin vaxt vəliəhd şahzadə Nayif ibn Əbdüləziz öldükdən sonra qardaşı Salman vəliəhd təyin olunub. Bu səbəbdən də yeni kralın kimliyi hələ əvvəldən bəlli idi. Yeri gəlmişkən, yeni kralın vəliəhdi məlumdur. Bu, 70 yaşlı şahzadə Mukrin ibn Əbdüləzizdir.

Kral Salmanın isə 80 yaşı var. O, 1935-ci ildə ər-Riyadda kral Əbdüləzizin ailəsində dünyaya gəlib. Qısa fasilələrlə 48 il paytaxt ər-Riyadın valisi olub, 200 min əhalisi olan şəhərin 7 milyonluq meqapolisə çevrilməsində onun rolu vurğulanır. Kral Salmanın Alzheimer xəstəsi olduğu bildirilir.

Ancaq indi daha çox maraq doğuran məsələ Səudiyyə Ərəbistanın xarici siyasəti və ölkənin idarə edilməsi ilə bağlı nələrin dəyişəcəyi ilə bağlıdır. 2005-ci ildə hakimiyyətə gələn kral Abdullah islahatçı lider kimi tanınır. Məhz onun zamanında seçki qanunları, qadın hüquqları ilə bağlı bir sıra addımlar atılmışdı. Kral Abdullah ənənəvi olaraq Qərbyönümlü kursa sadiq olub, son olaraq dünya bazarında neftin qiymətlərinin endirilməsi və hasilatın saxlanılması ilə bağlı qərarlara imza atıb.

Bəs indi bu siyasət davam edəcəkmi? Yaxın Şərqin, ümumiyyətlə, müsəlman dünyasının aparıcı dövlətlərindən biri olan Səudiyyə Ərəbistanın yeni kralı dövlət siyasətində hansısa dəyişikliyi edəcəkmi? Nəzərə almaq lazımdır ki, hazırda Yaxın Şərqdə məhz ər-Riyadın yaxından iştirak etdiyi siyasi və hərbi proseslər gedir. Suriyada, İraqda, Liviyada, Yəməndə davam edən hərbi-siyasi proseslərdə əsas regional oyunçu ər-Riyaddır. Bu mənada yeni kralın gələcək davranışları maraq doğurur.

Doğrudur, taxta çıxan kral Salman ölkə siyasi elitası qarşısında çıxışında özündən əvvəlki kral Abdullahın apardığı siyasi kursa sadiq olacağını bəyan edib. Lakin bir sıra müşahidəçilərə görə, bu, heç də belə olmaya bilər. Çünki qardaşı Abdullahdan fərqli olaraq Salman ibn Əbdüləziz xeyli dərəcədə mühafizəkar və ənənəçidir. Məsələn, onunla bağlı ən maraqlı faktlardan biri budur ki, SSRİ-nin Əfqanıstana hücumu zamanı şahzadə Salman Əfqanıstan müqavimətinə öz şəxsi hesabından böyük məbləğdə pul yardımları edib. Ciddi mühafizəkar baxışlara sahib olan kral Salmanın zamanında dini ağırlıqlı siyasətin yenidən güclənəcəyi və bunun bütün bölgədə hiss olunacağı gözlənilir.

Bundan başqa mütəxəssislərin hesablamalarına görə, Səudiyyə Ərəbistanının 2015-ci il dövlət büdcəsi 230 milyard dollar hesablanıb və bu ilki büdcədə 39 milyard dollara qədər büdcə kəsiri gözlənilir. Ölkə ixracatının 90 faizinin neft və qazdan asılı olduğunu nəzərə alanda büdcə kəsirinin əsas səbəbinin neft qiymətlərinin düşməsi və ya düşürülməsi ilə əlaqələndirilir. Yəni bir sözlə ehtimal olunur ki, ilk baxışdan hakimiyyət ötürülməsi sakit keçsə də, kral Salmanın hakimiyyəti həm ölkə daxilində, həm də xarici siyasətlə bağlı ciddi sınaqlara məruz qalacaq.

# General-biznesmenin obyektində ticarətçilərə divan tutulur

## "Lotos" və "Diqlas"da alverlə məşğul olanların malları zorla əllərindən alınır; Əli Nağıyevin biznes imperiyası hərbləşdirilmiş quruma çevrilib...

**İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti Azərbaycanın general-biznesmenlərinin qarşısında çox aciz görünür. İnhisarçılıq bataqlığında boğulan ölkə iqtisadiyyatını əsas zəiflədən amillərdən biri də vəzifəli biznes adamlarıdır.**

Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, general Əli Nağıyevi uğurlu biznesmen də saymaq olar. General-biznesmenin obyektləri hərbləşdirilmiş qurum kimi idarə olunur, istənilən etiraz süngü ilə qarşılanır. Odur ki, orada çalışanlar qarşılaşdırları haqsızlıqlara susqunluqla cavab verməli olurlar.

2014-cü ilin əvvələrində Bakı Metropolitenində Tağı Əhmədov erası bitəndə yüzlərlə xırda ticarətçi işsiz qaldı. Onları islahat adı ilə metro keçidlərindən qovdular. Belə bir vaxtda generalın Bakının 8-ci kilometr qəsəbəsindəki "Diqlas" və "Lotos" ticarət mərkəzləri xırda ticarətçilərin yeni iş yerinə çevrildi. Təqdirəlayiqdir, əmması da öz yerində. Ticarət mərkəzlərinin zirzəmisində yerləşən qarajların təyinatı çevik şəkildə dəyişdirildi, orada piştaxtalar quraşdırıldı. Beləcə yüzlərlə sahibkar işə başlayıb özlərinə çörək, generalın büdcəsinə əlavə gəlir qazanmağa başladılar. 2014-cü ilin əvvəlini metro keçidlərindən generalın zirzəmisinə köçməklə yadda saxlamalı olan xırda ticarətçilər 2015-ci ilə xoş olmayan günləri yaşamaqla daxil olublar. Nağıyevlərin ticarət mərkəzlərində pul yığmaqla məşğul olan Bəhruz adlı işçi yeni qaydalar tətbiq etməyə başlayıb. Ticarət mərkəzinə iri konteynerlərdə hansısa xarici ölkədən köhnəlmiş, anbarlarda şox saxlandığı üçün kiflənmiş paltarlar gətirilib. Xirda ticarətçilər əvvəlcə düşünüblər ki, mərkəz sahibi həmin paltarları imkansız, sahibsiz insanlara paylatdıracaq. Az keçməyib ki, zirzəmidəki ticarətçilərə sayı bilinməyən malları satmalı olacaqlarını deyiblər. Bəhruz adlı nəzarətçi siyahı üzrə xırda ticarətçiləri içi ötən əsrin 90-cı illərində dəbdə olan paltarlarla dolu olan konteynerin qapısına çağırtdırıb, onlara zirzəmidə tutduqları kvadratın ölçülərinə görə həmin kiflənmiş paltarlardan verərək satmalı olduğunu deyib. Kiflənmiş mallar ticarətçilərə az qala qızıl qiymətinə - 250 manatdan - 300 manata sırınıb. Üstəlik həmin pulun 15 gün ərzində Bəhruza ödənməsi tələb olunub. Etiraz edənlər qovulma ilə hədələnib. Daim nəzarətçilərin əhatəsində gəzən generalın adamları beləcə iri konteynerdəki malı xırda ticarətçilərə zorla satıblar.




Artıq 15 gün tamamlanıb və sahibkarların bir çoxu xoş-zor iş yerini itirməmək üçün qoyulan töycünü ödəyiblər. Kiflənmiş paltarlar isə bu gün də piştaxtalarda qalmaqdadır. Töycünü ödəməyənlərə qarşı da görünməmiş qanunsuzluq edilib. Bəhruzun ətrafında olan nəzarətçilər pulu ödəyə bilməyən xırda ticarətçinin malını yığışdırıb özləri ilə aparıblar. Beləcə, generalın ticarət obyektlərində əndrabadi üsul-idarəyə yeni element - köhnəlmiş paltarların satıcılara sırınması əlavə edilib.

Xırda ticarətçilər düşünür ki, Ə.Nağıyev obyektində baş verənlərdən xəbərsizdir. O, hansısa xidmətlərinə görə "Lotos" və "Diqlas"ı Araz adlı şəxsin idarəçiliyinə verib. Sonuncunun isə biznes qaydalarından xəbərsiz olması Bəhruz adlı şəxsin işə cəlb olunmasına gətirib çıxarıb. Bəhruz qaydalarına zorakılıq elementləri gətirib.

Bununla belə generalın ticarət obyektlərində iş qrafiki dövlət qurumlarındakı iş qrafiki ilə üst-üstə düşür və hətta daha sərt formadadır. Yeni il tətillərində, digər bayram günlərində ticarət obyektinin qapılarını bağlatdıran general, 20 Yanvar - ümumxalq hüzn günündə, Aşura günündə ticarətçiləri işə çıxmağa məcbur edir. Ticarətçilər generalın ətrafına biznes qaydalarının tamam başqa olduğunu izah edə bilmirlər - onlara sadəcə qulaq asan yoxdur. Ticarətçilər deyir ki, bayram günündə tətildə olanlar uzun, yorucu iş günlərindən sonra alış-verişə, üst-baş almağa çıxır. Belə də həmin adamlar "Lotos" və "Diqlas"ın qapısından geri dönməli olurlar. Hüznlü günlərdə isə ticarət mərkəzlərinin qarıları taybatay açıqdır, müştəri isə təbii ki, yoxdur.

Ticarətçilərin qanını qaraldan məqamlardan biri də haqsız rəqabətdir. Ticarətçilərin gəlirləri haqda bilgili olan ticarət mərkəzinin rəhbərliyi bundan öz maraqları üçün ustalıqla istifadə edir. Ticarət mərkəzində Nağıyevlərin adamlarının mağazaları var. Həmin mağazalarda ticarətçilərin xaricdən gətirib satdıqları "xod" gedən malları Nağıyevlərin adamları da gətizdirir və daha ucuz qiymətə satırlar. Beləcə Nağıyevlərlə qohumluq, tanışlıq ilişgisi olmayan ticarətçilər onların yaxınlarına da qazanc gətirir, özləri isə müflis olurlar. Adında "antiinhisar siyasəti" olan qurumun nümayəndələri isə Bakının kəndlərində reydlərə çıxır, xırda mağaza sahiblərinin "böyük" qanunsuzluqlarını ifşa etməklə işlərini bitmiş hesab edirlər...

Ə.Nağıyevin biznes obyektləri sırasında "Körpü" ticarət mərkəzi, uşaq bağçası, klinika, "Sərhədçi" İdman Kompleksi, metronun "Qara Qarayev" stansiyasının yaxınlığındakı çoxsaylı ticarət mərkəzləri sırası, "Ağ Saray", "İnci", "Nazlı" "Şır-şır", "Relax", "Qızılboğaz" və s. restoranları da var.

❑ E.HÜSEYNOV

*P.S. Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Həbsdəki qardaşına qəndin içərisində narkotik ötürmək istədi

**Ədliyyə Nazirliyinin Penitensiar xidmət əməkdaşları tərəfindən həyata keçirilmiş axtarış-baxış tədbirləri nəticəsində 2 saylı Cəzaçəkmə Müəssisəsinə narkotik keçirilməsinin qarşısı alınıb.**

Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, burada cəza çəkən, Cinayət Məcəlləsinin 126.2.4 maddəsinə əsasən 7 il müddətinə azadlıqdan məhrum edilmiş məhkum Vüqar Bəxtiyar oğlu Mirzəyevin yanına qısamüddətli görüşə gəlmiş qardaşı, Bakı şəhər sakini vətəndaş Vüsal Bəxtiyar oğlu Mirzəyevin üzərinə və gətirdiyi sovqata baxış keçirilən zaman sovqatda olan qəndlərin 8 ədədinin oyularaq içərisində gizlədilmiş ümumi xalis çəkisi 2,14 qram olan narkotik vasitə - heroin aşkar edilərək götürülüb.



Fakt üzrə araşdırma aparılır.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 17 (6045) 26 yanvar 2015



# İşğalçının "soyqırım"ı gözləntiləri müharibə risklərini artırıb

## Qarabağ nizamlamasında ən azı ilin ortalarınadək hərəkətlilik gözlənilmir; **amerikalı analitik:** "İrəvan münaqişənin həllində heç bir tərəqqi istəmir..."

**Qarabağ probleminin həlli perspektivinə birbaşa dəxli olan uydurma soyqırımının 100 illiyi yaxınlaşdıqca Ermənistanda anti-Türkiyə isteriyası da güclənir. Belə görünür, rəsmi Ankaranın, ələlxüsus, baş nazir Əhməd Davudoğlunun son vaxtlar İrəvana ünvanlı xoşməramlı jestləri də bu neqativ tendensiyanı önləmək gücündə deyil. Əksinə, belə mesajlar erməni ictimai-siyasi və ekspert dairələrində hətta əlavə qıcıq doğurur.**



**Şarl Aznavur:** "Ermənistan hər gün, hər saat boşalır, ölkə böyük təhlükə qarşısındadır, insanlar isə "genosid"ə ilişib qalıblar..."

Lakin o da faktdır ki, dünya erməni lobbisində "genosid" məsələsi ilə bağlı Türkiyəyə yanaşmada fikir ayrılığı da var. Şərti desək, radikal mövqe daşıyanlarla yanaşı, türk-erməni münasibətlərinə mötədil baxışları olanlar da mövcuddur. Onlardan biri erməni mənşəli fransız müğənni və aktyor Şarl Aznavurdur. Arayış üçün qeyd edək ki, Aznavur 2004-cü ildə Ermənistan rəhbərliyi tərəfindən "Ermənistanın milli qəhrəmanı" adına layiq görülüb. 2009-cu ildən etibarən Ermənistanın İsveçrədəki səfiri və BMT-dəki daimi nümayəndəsi olub. Onun məsələyə özəl baxışı kifayət qədər ibrətamiz hesab edilə bilər.

"Mən genosid sözünə tüpürmək istərdim. Məhz bu sözün deyilməsi ilə əlimizə nə keçəcək? Qoy kütləvi qırğın desinlər. Keçmişdə baş verənləri unutmaq olmaz, amma irəliyə doğru addımlamaq lazımdır". Bu sözlər onun "Nouvelles d'Armenie" dərgisinə müsahibəsindəndir. Müsahibəsində o, bütün stereotiplərə qarşı çıxış edir, həmçinin, Ermənistanın Türkiyə ilə münasibətləri iflic vəziyyətinə salan "soyqırım"ı iddialarını kəskin tənqid edir.

Sitat: "Baş verən bütün bu hadisələr artıq məndə ikrah oyadır. Bu işlərdən heç nə qazana bilməyəcəyik. Düşmənlərimiz yaddaşında "erməni məsələsi" ilə bağlı məlumat saxlayan hər kəsin ölməsini gözləyəcək, bununla da mövzu qapanacaq. Gəlin görək bu gün hansı ölkələr "erməni məsələsini" dəstəkləyir? Heç biri! Bircə Fransa soyqırımı tanıdı, bundan başqa heç nə. Bu şeylərlə haraya gedib çıxacağıq? Bütün bu müddət ərzində əziyyət çəkən yenə də Ermənistandır. Ermənistan - hər gün, hər saat boşalan Ermənistan... Bir az da vaxt keçsin, Ermənistan boş bir balıqqulağına dönəcək... Bunun kimə faydası var? Üç varlı quldurama? Üç mafiozami? Bəs dünyanın dörd yanına səpələnmiş yüz minlərlə erməninin halına kim yanacaq? Bütün bunları düşündükcə narahat oluram, özümdən çıxıram. Bütün bunlar Türkiyəyə "genosid" sözünü yedirtmək üçündürmü? Ermənistan böyük təhlükə qarşısındadır, insanlarsa "genosid"ə ilişib qalıblar. Bilmirəm bunun ölkənin tərəqqisinə nə təsiri olacaq? Belə məntiqlə hara gedib çıxacağıq?"

***

Lakin təəssüflər olsun ki, 1998-ci ildən Ermənistanda hakimiyyəti zəbt eləmiş Qarabağ klanına, daha dəqiqi, "müharibə partiyası"na, bu partiyanın odioz fiqurlarına, konkret olaraq Sərkisyan rejiminə və Ermənistan isteblişmentinə belə praqmatik çağırışlar çatmır, çünki sərf eləmir. Ona görə ki, bu çağırışları ciddiyə almaq Dağlıq Qarabağ məsələsində də güzəştə getmək deməkdir ki, bu da onların erməni xalqına verdiyi, ancaq heç vaxt reallaşmayacaq vədlərlə ziddiyyət təşkil edir.

Nə qədər ki, belə maksimalist vədlərdən imtina edilməyib, Qarabağ danışıqları hər hansı pozitiv nəticəyə gətirməyəcək, gətirə bilməz. Bunun altını isə Aznavurun da qeyd elədiyi kimi, ən çox Ermənistan və onun xalqı çəkəcək, erməni xalqı daha dərin səfalət quyusuna yuvarlanacaq, ölkə daha sürətlə boşalacaq...

***

Radikallıq, maksimalist mövqe və tələblər saxta iddianın 100 illiyində erməni rəsmilərinin dilindən bir az daha çox səslənməkdədir. Halbuki, Rusiya amili olmasaydı, sürətlə boşalan bu cırtdan ölkə nə Azərbaycana, nə də qardaş Türkiyəyə qarşı ərazi iddiasında buluna bilməzdi.

Erməni siyasi və hakim dairələrində hələ də belə yanlış təsəvvür var ki, "genosid" məsələsində radikallıq Qarabağ məsələsində işğalçı tərəfin mövqeyini gücləndirəcək, onun tələbləri daha çox ciddiyə alınacaq. Təcavüzkar tərəf yaxınlaşan "yubileyə" şübhə yox ki, həm də belə bir fürsət, şans kimi baxır.

Unutmaq olmaz ki, ATƏT-in Minsk Qrupunun 3 həmsədrindən ikisi - Fransa və Rusiya saxta genosidi tanıyıb, ABŞ-ın isə əksər ştatlarında analoji qərarlar qəbul edilib. Bu xüsusda Almaniyanın həmsədrliyə gətirilməsi həqiqətən də balansın bərpasına kömək edərdi. Ən azı o baxımdan ki, rəsmi Berlin Azərbaycanın ərazi bütövlüyü məsələsində daha prinsipial və ardıcıldır, eyni zamanda saxta soyqırım iddialarını rədd edir. Bunu Almaniya hökumətinin ötən əsrin əvvəllərində Osmanlı İmperiyasında yaşanmış olaylara yanaşmasını əks etdirən son açıqlaması bir daha təsdiqləyir.

"Almaniya hökuməti 1915-1916-cı illərdə Osmanlı imperiyasında baş verənlərə münasibət bildirərkən "soyqırımı" ifadəsindən bundan sonra da istifadə etməyəcək". Bu barədə "Der Tagesspiegel" alman qəzeti məlumat yayıb. Qəzet bildirir ki, Almaniya hökuməti bunu Sol Partiyanın ona ünvanladığı sorğusuna cavab olaraq bəyan edib.

Almaniya hökumətindən bildirilib ki, tarixi hadisələrə qiymət vermək alimlərin işidir: "Bu məsələ ilə isə daha çox Türkiyə və Ermənistandan olanlar məşğul olmalıdır. Almaniya hökumətinin 2015-ci il, aprelin 24-də hansısa anım mərasimi, hər hansı bir tədbir keçirmək və ya belə tədbirlərə qatılmaq planları və niyyəti yoxdur".

Qeyd edək ki, Almaniya Ermənilərinin Mərkəzi Şurası və digər erməni diaspor təşkilatları bundan əvvəl bu anım tədbirlərində Almaniya hökuməti rəsmilərinin də iştirak etməsini arzuladıqlarını bildirmişdilər...

***

İşğalçı tərəfin yeni "genosid" gözləntiləri fonunda şübhəsiz ki, ən azından bu ilin ortalarınadək Minsk Qrupu çərçivəsində pozitiv dinamikaya ümidlənməyə dəymir, eyni zamanda müharibə risklərinin artacağını vurğulamaq lazım gəlir. Bu və digər səbəbdən, bir sıra beynəlxalq çaplı analitiklər də 2015-ci ilə pessimist baxırlar. "Bu il Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində tərəqqi gözlənilmir". Bu sözləri "Trend"ə amerikalı politoloq Pol Qobl 2015-ci ildə münaqişənin həll perspektivlərini şərh edərkən deyib.

Onun qənaətincə, Ermənistan münaqişənin həllində heç bir tərəqqi istəmir: "2015-ci il münaqişənin həllində tərəqqi ilə bağlı nikbin deyiləm. Düşünürəm ki, Ermənistan bunu istəyir və Moskvanın İrəvanı buna sövq etdiyini görmürəm".

Ekspert hesab edir ki, Kreml yalnız ona Azərbaycandan nə isə lazım olarsa, Ermənistanı hərəkətə sövq edəcək. P. Qobla görə, Rusiya bu yaxınlarda Azərbaycan və Qərb arasında ixtilafa baxmayaraq, Azərbaycandan nə isə ala bilməyəcək. Politoloq əlavə edib ki, Rusiya ilə həddən artıq yaxınlaşma ölkənin son 20 ildə üzərində işlədiyi hər şeyin üstündən xətt çəkmək anlamına gələ bilərdi.

Yada salmağa dəyər ki, Pol Qobl Dağlıq Qarabağ ixtilafının Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olan analitiklərdən biridir. Onun vaxtilə münaqişənin həllinə yönəlik "Ərazi mübadiləsi" təklifi də olub.

# İsa Sadıqov erməni xalqına müraciət etdi

## "Qonşu olduğumuz halda vasitəçi olmadan ümumi dil tapmağımız bu qədərmi çətindir?..."

**1-ci Qarabağ savaşının qəhrəmanlarından olan, müdafiə nazirinin hazırda mühacirətdə olan sabiq müavini İsa Sadıqov Rusiyanın Gümrüdəki hərbi bazasının əsgərinin törətdiyi amansız qətldən sonra Ermənistandakı situasiyadan çıxış edərək erməni xalqına müraciət edib (moderator.az).**



Müraciətdə o, Rusiyanın məkrli siyasətinə boyun əyməyin təkcə ermənilərə deyil, hər üç Cənubi Qafqaz ölkəsinə fəlakətlər gətirməkdə olduğunu qeyd edərək yazır: "Erməni tərəfi anlamalıdır ki, Rusiya hərbi bazasının Ermənistan ərazisində yerləşməsi dinc əhalinin təhlükəsizliyini şübhə altına alır və baş vermiş hadisənin bir daha təkrarlanmayacağına, regionda münaqişələrin olmayacağına dair qarant verilməyəcək. Artıq 100 ildir bu cür konfliktlər və qarşıdurmalar baş verməkdədir. Bu qarşıdurma və münaqişələrdə isə nəinki ermənilər, bütün region əziyyət çəkir. Bu kimə sərfdir? Ermənilər Rusiyanın köməyi ilə bizim torpaqlarımızı işğal etməklə nə əldə etdi? Məgər yaxşı yaşadılar? Onların uşaqları daha ölmədilər?.. Bu gün münaqişələrin Rusiyanın marağında olduğunu biliriksə, nə üçün onların hərbi bazasının Qafqazda yerləşməsinə etiraz etməməliyik? Qonşu olduğumuz halda biz vasitəçi olmadan ümumi dil tapmağımız bu qədərmi çətindir?.. Siz ermənilər anlamalısınız ki, Azərbaycan heç zaman torpaqlarının işğalı ilə barışmayacaq və ona görə də Azərbaycan torpaqlarını işğal altında uzun müddət saxlaya bilməyəcəksiniz. Bu isə nəticə etibarilə növbəti müharibəyə gətirib çıxaracaq... Mən keçmiş hərbçi kimi əminliklə deyə bilərəm ki, hər bir məsələnin həlli mövcuddur. Lakin bunun üçün iradə və istək olmalıdır. Qarabağ Azərbaycanın tərkibində həmişə olduğu kimi olarsa, qısa zamanda çiçəklənən və stabil olacaq, sakinlər isə milli mənsubiyyətindən asılı olmayaraq yaşayacaq, işləyəcək və yeni nəsli yetişdirməklə məşğul olacaqlar. Bu isə ermənilər və ümumilikdə bütün Ermənistanın xeyrinə olacaq. Biz üç Qafqaz ölkəsi - Azərbaycan, Ermənistan və Gürcüstan daha yaxşı yaşamaq imkanına malikik və biz bunu etməliyik... Mən əminəm ki, Ermənistanda vəziyyəti həqiqətən də real qiymətləndirən və dərk edən insanlar var. Gəlin, birlikdə bütün münaqişələrə son qoyaq. Biz mütləq sürətdə Avropa ünsiyyət formasına yiyələnməliyik. O zaman bütün problemlərin həlli yollarını tapa biləcəyik".

Azərbaycan Respublikasının Prezidentі yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 17 (6045) 26 yanvar 2015



# “Biləsuvar gömrüyündə məni zorlamaq istədilər”

İlahə Ələkbərova ad-soyadlı qadın İrandan gələrkən gömrükdə üzləşdiyi olaylar haqda redaksiyaya şikayət etdi; “Məni narkotik ittihamı ilə təhdid etdilər, əxlaqsızlıqla üzləşdim. Kişi işçilər məni lüt soyundurub təhqir edirdilər...”

**Yanvarın 22-də axşam saatlarında Biləsuvar gömrük məntəqəsində zorakılıq hadisəsi baş verib. Həmin gün İrandan qayıdan Bakı şəhər sakini Ələkbərova İlahə Rafiq qızı müsavat.com-a verdiyi açıqlamasında bildirir ki, məntəqədə ona əxlaqsız təklif ediblər, təhqirə məruz qoyublar. Şikayətçi başına gələnləri belə nəql edir: “İrana alver məqsədi ilə getmişdim. Banklara borcum olduğundan evimi sataraq, borclarımı ödəmişəm.**

Hazırda kirayədə qalıram. Əlimdə bir az pul var idi. Fikirləşdim ki, alver edib 1-2 sot torpaq alaram. Mal gətirmək üçün 3 dəfə İrana gedib-gəlmişəm. Heç birində ciddi yoxlanılmadım. Ərzaqlarım belə alınmadı. Axırıncı dəfə gələndə məntəqədən hamı keçdi, məni axıra saxladılar. Yoxlanış zamanı dedilər ki, səni narkotika görə saxlayırıq. Bütün gətirdiyim ərzaqları aldılar. 85 manat da pulumu. Məni bir otaqda lüt soyundurdular. Amma narkotik tapılmadı. Həkim yoxladı, dedi heç nə yoxdur. Amma gömrükçülər yenə dedilər ki, narkotik var, özü də içərimdə. Hətta mənə dərman içirtdilər ki, qaytarım. Bu nə deməkdir? O boyda gömrük məntəqəsinin narkotiki müəyyən etmək üçün iti, cihazları, həkimi belə yoxdur. Kimsəsiz kimi məni oradan bura apardılar, buradan ora. Bu məntəqədə insanların ailələrini dolandırmaq üçün gətirdikləri əşyalar alınır. Bir-birinə göz vururlar ki, bu qədər məbləğdə pul al, yaxud ərzağı vermə. Mənə dedilər ki, guya yuxarıdan yoxlanış gəlib məni yoxlamaq üçün. Oğlum əsgərlikdədir. İki övladım da azyaşlıdır. Alver edib evimin kirayə haqqını ödəməliyəm, üstəlik ailəmi saxlamalıyam. Narkotik alverçisi olsaydım, evimi satmazdım. Məni orada təhqir etdilər, kişilər qarşısında təhqir olundum. İrandan təmiz keçib, ölkəmizdə bu cür hallarla qarşılaşıramsa, bu, dəhşətdir. Məntəqədə onlar pul yemək üçün oturublar. Millətin ləyaqətini alçaldırlar. 5-6 kişi məni küçənin ortasına apardı ki, boynuna al narkotik olduğunu. Həkim isə deyirdi ki, bu insanda heç nə yoxdur”.

İlahə Ələkbərova əxlaqsızlıqdan zorla qurtulduğunu bildirdi: “Mənə dedilər ki, qəşəng xanımsan, niyə belə vəziyyətdə İrana gedirsən? Dedim ki, başqa necə getməliyəm? Rüşvət istədilər, əxlaqsızlıq təklif edib deyirlər ki, gələn dəfə gələndə sənin üçün yaşıl işıq yandıracağıq. Gömrük məntəqəsinin rəhbərliyi görmür ki, əməkdaşlarının bu hərəkətini? 6 nəfər düşüb üstümə deyir ki, zorla boynuna al narkotik olduğunu. Dəhşətli bir şey idi. Kişilər məni soyundurub hər yerimi yoxlayırdılar. Bu, əxlaqsızlıq idi. Qadın üçün ən böyük təhqir sayıla biləcək hərəkətləri başıma gətirdilər. Özlərinin yoxlama aparatları olmalıdır, lüt, anadangəlmə soyundurmalı deyillər. Çox şeyi utandığımdan deyə bilmirəm. 3 gündür şok vəziyyətdə yatıram. Orada ”Ağbaş" ləqəbli Elşən adlı bir kişi var, insanların başına oyun açır. Məntəqənin işçiləri özlərinə “Kurtlar vadisi” deyirlər. Ona uyğun özlərinə ad qoyublar. İnsanların qanını içirlər. Hər keçən adamdan 50-100 manat arası pul alırlar. İnsanların ərzaqlarını min cür bəhanə ilə qaytarmırlar. Məntəqə işçiləri sərhəddə qanunsuz olaraq saxladıqları ərzaq məhsullarını öz ailələrinə aparırlar. Neçə sənədə qol çəkdirdilər. Heç birini mənə göstərmədilər. Gömrükdən çıxanda işçiyə dedim ki, aidiyyəti orqanlara müraciət edəcəm. Oğlum yaşında olan işçi mənə əli ilə əxlaqsız işarələr göstərdi. Başıma oyun açacaqlarını bildirdi".

Şikayətçi dedi ki, gömrükdə canını qurtarmaq üçün guya jurnalist olduğunu deyib: “Gördüm ki, artıq bunlar məni ləkələyə bilərlər. Gecə olduğundan orada tək qalmışdım. Yalandan jurnalist olduğumu söylədim. Bundan sonra qorxdular. Jurnalist olduğumu deməsəydim zorlanacaqdım. Sonda sənədlərimə baxan bir insaflı gömrük işçisi mənə dedi ki, səni öncədən gözaltı etmişdilər. Mən susmayacam. Bununla əlaqədar aidiyyəti orqanlara müraciət edəcəm. Bütün namuslu insanlardan kömək istəyirəm. İrandan aldığım əşyaları belə qaytarmırlar”.

Yazıda adı keçən qurumun və şəxslərin mövqeyini dərc etməyə hazırıq.

❑ Cavanşir ABBASLI

**Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun oğlunu öldürən Lamiyə Quliyevanın həbsdə necə uşaq doğmasını Penitensiar Xidmət əsaslandıra bilmir. Baş prokurorun keçmiş müavini Mətləb Mütəllimli isə L.Quliyevanın olduğu 4 saylı cəzaçəkmə müəssisənin eks-rəisi Müzəffər Məmmədovu ittiham edib. M.Məmmədov isə “Yeni Müsavat”a müsahibəsində ittihamları rədd edib.**



# Həbsdə doğan Lamiyə Quliyevanın şok açıqlamaları üzə çıxdı

## Aslan Aslanovun oğlunu öldürən qadın 2009-cu ildə “rəis olmasa, bəzi işçilər dustaqların gözünü çıxarar” deyibmiş; onun Kürdəxanı təcridxanasında bir neçə nəzarətçi ilə görüşdüyü də bildirilir...

***

Amma yanvarın 23-də “Qafqazinfo” yazıb ki, Lamiyə keçmiş rəislə intim münasibət şansı olan üç-dörd qadın dustaqdan biri olub. Saytın iddiasına görə, həmin dövrdə Lamiyə heç kimi saymayıb, kefi istəyəni edib, hətta sələmçiliklə məşğul olub.

Lamiyənin qazancından evə pul göndərdiyi də söylənir. Lakin M.Məmmədov rəis postundan gedəndən sonra Lamiyənin həbsdə mövqeləri zəifləyib. Nəzarətçilərə qəzəbli olduğuna görə yeməkxanada çayniki onlardan birinin başına çırpıb. Nəzarətçinin şikayəti əsasında L.Quliyevaya 2013-cü ildə yeni cinayət işi açılıb. Sadəcə, məsələni bu şəkildə təqdim etmək istəməyiblər və Lamiyənin dustaq yoldaşı ilə dalaşdığı bildirilib.

Yazıda qeyd olunur ki, ötən qış Lamiyə istintaqla əlaqədar Bakı İstintaq Təcridxanasına aparılıb. Onun təcridxanada kişi nəzarətçilərdən bir neçəsi ilə münasibəti olduğu iddia edilir: “Güman ki, təcridxananın rəhbərliyinin də bundan xəbəri olub. Lamiyənin hamiləliyi abortdan qorumaq üçün dörd ayınadək gizlədilir. Lamiyə özü də uşağın atasının kimliyini dəqiq bilmir”.

***

Axar.az arxiv materiallarını araşdırarkən mühüm bir detal əldə edib. Məlum olub ki, 2009-cu ildə “Bizim Yol” qəzeti 4 saylı həbsxanadan reportaj hazırlayıb.

L.Quliyeva jurnalistlə söhbətində şəraitdən razılıq edib: “Ancaq bəzi işçilər dustaqların canını boğazına yığır, onları incidirlər. Rəis olmasa, dustaqlar burda ölər. Onun hünərinə burda nəfəs alırıq. Mən nəzarətçiləri nəzərdə tutmuram. Burda bir «oper» Həqiqət var, dustaqları sakit nəfəs almağa qoymur. Siz mənə inanırsızsa, onda mənim sözümü eləcə də qəzetə yazın. Bura elə bir yerdir ki, biri sözünü deyən kim o dəqiqə böyürdən-başdan şilləvuranlar çıxır. Xahiş edirəm, beləcə yazın. Hamı da bilir ki, mən yalan danışan deyiləm”.



L.Quliyeva bildirib ki, əsəbləri pozulsa da, sözün düzünü deyəndir: “Rəis olmasa, bəzi işçilər dustaqların gözünü çıxarar. Burda bir neçə dustaq dəfələrlə özünə xəsarət yetirmək istəyib. Onlardan da biri mənəm. Özümü atıb öldürmüşdüm az qala. Burda elə dustaqlar var ki, ”paqon"u müdafiə etmək üçün “işverənlik” edirlər".

***

L.Quliyevanın həbsdə doğması faktını ilk olaraq axar.az-a danışan İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin rəhbəri Elçin Behbudova isə təzyiqlər başlanıb. Hadisəni ictimailəşdirdikdən sonra komitənin keçmiş üzvünün Behbudov əleyhinə həbsdən məktubu mətbuata ötürülüb.

Komitə sədri “Yeni Müsavat”a açıqlamasında qeyd etdi ki, ictimai nüfuzuna xələl gətirmək istəyənlər arzusuna nail olmayacaq. Onun sözlərinə görə, bu məsələni ictimailəşdirməklə L.Quliyevanın könüllü, yoxsa təcavüz nəticəsində uşaq doğmasını aydınlaşdırmaq istəyib:

“Baş prokuror Zakir Qaralova da etdiyim müraciətin mahiyyəti bundan ibarətdir. Nə 4 saylı cəzaçəkmə müəssisəsinin keçmiş rəisi olmuş Müzəffər Məmmədovu ittiham etmişəm, nə adını hallandırmışam.

Kimlərsə nüfuzuma xələl gətirmək istəyirsə, alınmayacaq. Mən nə etmişəm ki? Hər bir qadın ana ola bilər. Bu, Lamiyənin hüququdur. Sadəcə ehtimal edirik ki, Lamiyə təcavüzə məruz qalıb. Qaranlıq da budur ki, qapalı yerdə saxlanan dustaq hamilə olub, bu məsələ araşdırılsın".

E.Behbudov hesab edir ki, 14 saylı cəzaçəkmə müəssisəsində olan məhkum Süleyman Süleymanovun müraciəti ona təzyiq vasitəsidir: “Lamiyənin uşaq doğması haqda açıqlama verməsinə icazə yoxdur, amma dərhal Süleymanın məktubu yayılır.

Süleyman 2013-cü ilin sentyabrında İdarə Heyətinin qərarı ilə fəaliyyətində yol verdiyi nöqsanlara görə komitədən kənarlaşdırılıb.

Yeni həbsindən əvvəl xaric edilib, vəsiqəsi də alınıb. O, 2014-cü ildə Xəzər Rayon Məhkəməsinin hökmü ilə dələduzluğa görə 3 il 7 ay müddətinə azadlıqdan məhrum edilib. Anası yanıma gəlib kömək istədi.

Mən də Xəzər Rayon Məhkəməsinin sədri İlqar Qaralova müraciət etdim. Hakim mənə dedi ki, Süleymanın əvvəllər də məhkumluğu olub, köməklik mümkün deyil. Penitensiar Xidmət mənə həbsxanalarda görüş keçirməyə şərait yaratmır. Lamiyə ilə görüşə də imkan yaradılacağına inanmıram".

***

“Şərq-Qərb” Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu facebook səhifəsində maraqlı faktlar açıqlayıb. Politoloq deyib ki, A.Aslanov Lamiyənin nişanlısı Vüqar Əliyevin ailəsinin Şəmkirdəki evini buldozerlərin qabağına verərək dağıdıb: “Şəmkirdə sakinlərə oğlu Ruslanın sürdüyü qara rəngdə VAZ-2107 markalı maşını olmaq faktiki qadağan edildi. Ruslanın qətlinin ildönümü günü oğluna toy edən rayon sakini şərlənərək həbsə atıldı. İndi isə məlum olur ki, dünyaya uşaq gətirən Lamiyə Quliyevanın 2013-cü ildə cəza müddəti bitməli olsa da, cəzası 5 il 6 ay artırılıb. Sizi əmin edirəm ki, bu yazdıqlarım Aslan Aslanovun hikkəli özbaşınalıq və cinayətlərinin çox cüzi bir hissəsidir”.

Hüquqşünas Müzəffər Baxışov bu faktın ictimailəşdirilməsini şəxsi həyata müdaxilə hesab etmir. Onun sözlərinə görə, hadisə qapalı yerdə baş verib və nəzarətçilər qadınlardır: “Yalnız rəis və müavini kişi olub. Bu halda ictimai əhəmiyyət kəsb etdiyi üçün şəxsi həyata müdaxilə yoxdur. İctimaiyyət hadisənin necə və hansı səbəbdən baş verməsini bilmək istəyir. Əgər obyektiv araşdırma aparılsa və Lamiyəyə təcavüz olunduğu üzə çıxsa, yenə də şəxsi həyata müdaxilə arxa plana keçir. İctimai ittiham qaydasında təqib önə çıxır”.

Qeyd edək ki, L.Quliyeva 2003-cü ildə həbs olunub. O, keçmiş nişanlısı Vüqar Əliyevlə bərabər Şəmkirin sabiq başçısının oğlunu öldürüb. Həbs müddəti 2013-cü ildə başa çatsa da, 2 il əvvəl CM-nin 317-ci (cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının normal fəaliyyətini pozma) maddəsi ilə onun cəzası 5 il 6 ay müddətinə artırılıb. Lamiyənin nişanlısı Vüqar isə Qobustan həbsxanasında başqa qadınla evlənib.

❑ Emil SALAMOĞLU

YENİ MÜSAVAT
N 17 (6045) 26 yanvar 2015

**Dünya bazarında neftin qiyməti ilə bağlı bədbin proqnozlar davam etməkdədir. “Qara qızıl”ın qiymətinin qəfləti və cüzi artımı müvəqqətidir və yenidən azalma baş verəcək. Azalmanın isə uzunmüddətli olacağı proqnozlaşdırılır. Maraqlıdır ki, beynəlxalq ekspertlər neftin qiymətinin uzun müddət aşağı olacağını bildirsələr də, Azərbaycanın hökumət rəsmiləri nikbin proqnozlar verirlər.**



# Neft yaxın 2-3 ildə bahalaşmayacaq...

## Ekspertlər çıxış yollarından danışdılar; “Dövlət büdcəsini doldurmaq üçün hökumətin iki yolu qalacaq”...

BP şirkətinin baş icraçı direktoru Robert Dadli Davos forumunda qeyri-rəsmi çıxış zamanı bildirib ki, neftin qiymətinin 2-3-il ərzində bu səviyyədə qalacağı şübhəsizdir. O, yaxın illərdə neftin qiymətində əhəmiyyətli artım olmayacağını vurğulayıb. R.Dadli qeyd edib ki, növbəti bir neçə ildə bir barrel üçün 50-60 dollar qiymət proqnozlaşdırır. Azərbaycanın Neft Fondunun icraçı direktoru Şahmar Mövsumov isə Davosda bildirib ki, neftin qiymətinin 2015-ci ildə artacağına inanır. O, həmçinin qeyd edib ki, bu il Neft Fondunun qiymət azalmasından itkiləri təxminən 3 milyard dollar olacaq.

Yerli ekspertlər isə bildirirlər ki, rəsmilərin nikbin proqnozları özünü doğrultmayacaq və bu, daha çox daxili auditoriya üçün hesablanmış mesajlardır. Ekspert Qubad İbadoğlunun sözlərinə görə, rəsmilər indiki vəziyyətlə fəaliyyət göstərməmək və gözlənti mövqeyində olduğu üçün bu cür nikbin proqnozlar verirlər: “Düşünürlər ki, bu cür fikirlər əvvəllər özünü doğruldub və yenə də doğruldacaq. Neftin qiymətlərində bir möcuzə baş verəcək, bahalaşma olacaq, Azərbaycanın gəlirlərini artıracaq və hər şey olduğu kimi davam edəcək. Amma bu günlərdə dövlət başçısı İlham Əliyevin Davos forumunda bir müzakirədə çıxışını dinlədim. Orada Azərbaycanın qarşılaşdığı problemlərlə bağlı bir panel idi, İlham Əliyev yeni çətinliklərdən birinin dünyada neftin qiymətinin ucuzlaşması olduğunu qeyd etdi. Mən düşünürəm ki, onlar daxili auditoriyada bir fikir, xarici auditoriyada başqa bir fikir söyləyirlər. Əslində daxildə söylənənlər bu proseslərdə müəyyən arxayınçılıq yaratmaq kimi gözləntilər üçündür. Amma əslində proseslər onu göstərir ki, dünya bazarında neftin ötən il və ondan əvvəlki illərdə olduğu kimi yüksək qiymətini gözləməyə dəyməz. Qısa zamanda bununla bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir. Hökumət əvvəlki kimi arxayınlaşmalı deyil, situasiya əvvəlki kimi deyil. Yeni situasiya yaranıb və yeni şərtlərlə hesablaşmaq lazımdır. Xüsusilə də makroiqtisadi şokların qarşısını almaq üçün hökumət hərəkətə keçməlidir. Hökumət bir neçə ay belə fəaliyyətsiz qalsa, ölkədə ciddi makroiqtisadi şokları yaşaya bilərik”.

Ekspert Natiq Cəfərli isə BP-nin icraçı direktoru ilə Azərbaycan Neft Fondunun icraçı direktorunun fikirləri arasındakı təzada diqqət çəkir: “BP-nin prezidenti deyir ki, neftin qiyməti yaxın 2-3 ildə aşağı olacaq, bizim Neft Fondunun prezidenti isə deyir ki, neftin qiyməti bu ilin ortasında qalxacaq. Bp-nin illik dövriyyəsi 300 milyard dollara yaxındır, Neft Fondunun 16 ildə yığdığı vəsait 30 milyard dollardır. BP dünyanın 30 ölkəsində neft-qaz çıxarır, Neft Fondu hələ ki, 3 ölkədə daşınmaz əmlak alıb, Rusiyada aldığı da artıq 2 dəfə dəyərdən düşüb. BP-nin prezidentinin maaş və bonusları ildə 20 milyon dollara yaxındır, Neft Fondunun prezidentinin maaşı 2 min manatdır. Nəticə: BP prezidenti reallıqdan, Fondun prezidenti isə arzulardan danışır...”.

İqtisadçı Samir Əliyev isə qeyd edir ki, neftin dünya bazarlarındakı qiyməti indiki səviyyədə qalarsa, 2015-ci ilin dövlət büdcəsini doldurmaq üçün hökumətin 2 yolu qalacaq: “Milli valyuta olan manatı 30-40 faiz ucuzlaşdırmaq, yəni devalvasiya etmək və bununla da azalmış neft gəlirlərini kompensasiya etmək. İkincisi isə, Neft Fondunun xaricdəki aktivlərinə müraciət edərək onların bir hissəsini, təxminən 3-5 milyard manatı ölkəyə gətirmək. Böyük ehtimalla 2-ci variant seçiləcək. Amma müəyyən zaman kəsiyində 1-ci variant da nəzərdən keçirilə bilər. Üçüncü variant neftin bahalaşaraq 90-100 dollar həddinə çatmasıdır ki, bu isə yaxın illərdə mümkün olmayacaq. Hər halda beynəlxalq proqnozlar bunu göstərir”.

Ekspert Rövşən Ağayevin sözlərinə görə isə, 2014-cü il Azərbaycana böyük neft pullarının daxil olduğu sonuncu il ola bilər: “2005-ci ildə BTC-dən böyük neft ixracının başlanması ilə startı verilən böyük neft gəlirlərinin axınının ”qızıl dövrü"nün davam edib-etməyəcəyi neftin qiymətindən asılı olacaq. Əgər neftin qiymətinin eniş dövrünün uzunmüddətli, ən azından qarşıdakı 3-4 il olması ilə bağlı proqnozlar özünü doğrultsa, 2014-cü il Azərbaycana böyük neft pullarının daxil olduğu sonuncu il ola bilər. Bu baxımdan, son 10 ildə hökumətin neft gəlirlərinin statistikası ən azından tarixi baxımdan maraqlı görünür. 2005-2014-cü illərdə Dövlət Neft Fondu və dövlət büdcəsi vasitəsilə hökumətin neft gəlirləri 117 milyard manat, indiki məzənnə ilə 149 milyard dollar təşkil edib. Bu gəlirlərin 91,2 milyard manatı Neft Fondu vasitəsilə əldə olunub. Yerdə qalan 25,8 milyard manatın 12,4 milyard manatı SOCAR-ın, 11,6 milyard manatı mənfəət vergisi üzrə xarici neft konsorsiumunun, 1,8 milyard manatı isə neft müqavilələr üzrə işləyən podratçı xarici şirkətlərin gəlir, subpodartçı xarici şirkətlərin isə mənfəət və gəlir vergisinin payına düşür".

Ekspert qeyd edib ki, 2005-2014-cü illərdə dövlət büdcəsinin gəlirləri 111,3 milyard manat olub: “Bu vəsaitin 81,3 milyard manatını və ya 73,3 faizini neft gəlirləri təşkil edib. Dövlət büdcəsinə 10 il ərzində 55,5 milyard manat Neft Fondundan transfert edilib. Neft sektorunun vergiləri isə 25,8 milyard olub.

Neft Fonduna daxil olan 91,2 milyard manatın isə 61,3 milyard manatı, 67,2 faizi xərclənib, 29,9 milyard manatı yığıma yönəldilib. Fondun xərclənən vəsaitlərinin 55,5 milyard manatı dövlət büdcəsi, 5,8 milyard manatı isə Fondun özü vasitəsilə istifadə olunub".

Qeyd edək ki, dünya bazarında neftin qiyməti 2014-cü ilin iyunundan başlayaraq indiyədək 60 faiz ucuzlaşıb.

❑ **Röya RƏFİYEVA**

## Bill Qeytsdən maraqlı proqnoz...



**“Microsoft”un yaradıcılarından biri olan Bill Qeyt maraqlı proqnozu ilə gündəmə gəlib. anspress-in məlumatına görə, o, 2030-cu ilədək hazırda bank xidmətləri ilə əhatə olunmayan 2 milyard insanın mobil telefonlardan ödənişlər edəcəyini proqnoz verib.**

B.Qeyts və onun həyat yoldaşı Melinda Qeyts illik müraciətdə mobil bankçılığı 2030-cu ilədək yoxsul insanların həyatını dəyişməyə kömək edəcək beş böyük transformasiyadan biri adlandırıb. Ənənəvi olaraq əhalinin aztəminatlı təbəqəsi daima dəyərini itirən nağd ödənişlər kimi qeyri-effektiv maliyyə xidmətlərindən istifadə edir. “Microsoft” təsisçisinin sözlərinə görə, mobil inqilab sayəsində yoxsul təbəqə pul vəsaitlərinə daha yaxşı nəzarət edə biləcək.

Qeyd olunur ki, əvvəllər banklara aztəminatlı vətəndaşlar arasında maliyyə xidmətlərini yaymaq sərf etmirdi. Lakin mobil telefonların hər yerdə yayılması və tranzaksiya emalı üçün tutulan komissiyanın minimuma endirilməsi vəziyyəti dəyişəcək. Milyonlarla insan üçün mobil ödənişlərin edilməsinə görə kiçik məbləğdə haqqın qoyulması mobil operatorlara ənənəvi bankların orta sinif nümayəndələrinə göstərdikləri xidmətdən qazandıqları kimi, böyük gəlir əldə etməyə kömək edəcək.

Baza xidmətləri ilə yanaşı, mobil ödənişlər yoxsul təbəqə üçün depozitlərin yerləşdirilməsi və kreditləşmə üçün imkanlar açacaq.

# Homofobik olmasaq da...



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Bəzi dostlarım utanaraq, bəziləri istehza, bir neçəsi isə sırf maraq xatirinə “Elminin çəkdiyi klipə baxmısan” deyə soruşanda bu qədərini təxmin etmirdim. Eks-jurnalist həmkarımız, istedadlı aktyor Elmin Bədəlovun homoseksuallığı təbliğ edən, “Səni sevən biriləri var” videoroliki barədə deyilə biləcək çox söz var, mən burada onlardan sadəcə bir neçəsini yazacam... Qalanı mənə qalsın....**

Klipə baxanlar baxıb, baxmayanlara isə xatırladım ki, keçən il intihar edən homoseksual İsa Şahmarlının xatirəsinə həsr olunub. Onun kimi fərqli cinsi orientasiyalı insanlar psixoloji girdaba düşüb, intihar etməsin deyə çəkilən dəstək xarakterli bir klipdir. Bura qədərini anlayırıq, qəbul edirik... Amma... Demək, Elmin qardaşımız başqa bir jurnalist dostumuz, bu yaxınlarda “Əfruz videosu” ilə ölkəni bir-birinə qatan Cavid Abdullayevlə birgə iki homoseksualı canlandırır. Bunlardan biri darıxır, heç kəsin onu anlamadığını deyir, yazır və bu anda o biri qapıdan içəri girir. Bir neçə dəqiqə sonra qucaqlaşma, üst paltarların çıxarılması və hətta yatağa yuvarlanma...

Özümü homofobik saymıram, cinsi seçimi isə insanların şəxsi öhdəsinə buraxmağın tərəfindəyəm. Amma bunu kiminsə gözünə soxaraq edilməsini qəbul etmirəm. Təbliğata, hünər göstərisinə, sanki dünyayı xilas edirmişcəsinə... meydan oxumanı da məntiqli saymıram. Bəli, heç kimi cinsi seçiminə görə intihara sürükləmək, aşağılamaq olmaz. Tanrı insanları yaratdığı kimi sevir, amma...

Gəl gələlim bu klipə. Məni qınamayın, amma dünyanın heç bir yerində, hətta ən liberal ölkəsində belə homoseksuallıq bu səviyyədə, bu cür çirkinliklə təbliğ olunmur. Tamam, adam intiharın astanasındadır, qapı döyülür və başqa bir homoseksual da gəlir... Burda pərdə qapanmalıdır, əqli qabiliyyəti yerində olan tamaşaçı zatən bu gəlişlə mesajı alır. Bundan sonrasını da təxmin edir. Anlayır ki, homoseksualın hayına hay verən tapıldı, adam intihardan qurtuldu və sair. Dediyim kimi, detallara, xüsusən də insanı çimçəşdirən bu detallara nə ehtiyac var? Bunu estetik şəkildə çatdırmaq üçün çoxillik rejissor, aktyor təcrübəsi lazım deyil axı. Sənə baxan tamaşaçının kimliyini bilirsənsə, necə deyərlər, damara uyğun şərbət verməlisən... Qaş düzəltdiyin yerdə göz çıxarmağa nə gərək?

Üstəlik, Azərbaycanda homofobiya olması ilə bağlı düşüncəni də qəbul etmirəm. Gün ərzində efirdən evimizə nə qədər homoseksual aparıcı, müğənni boylanır? Silikon dodağını, qırmızı şalvarını, manikürlü barmaqlarını neçə-neçə manıs efirdən gözümüzə soxur? Birinin üzünə efir bağlayan olub? Yoxsa camaat onları boykot edib? Verilişinə baxmayıb, telekanalların qabağında zəhmətkeş yürüşləri keçirilib olmaya, bizim xəbərimiz yox? Bu ölkənin ən bərkgedən izdivac verilişlərindən birinin aparıcısı öz qeyri-ənənəvi cinsi orientasiyası ilə fərqlənib, siz nədən danışırsız? Ya da camaat varından-yoxundan çıxıb, onları öz toyuna çağırmırmı? 7-8 il əvvəl nazirliklərdən birində işləyən bir tanış oğlunun toyunda yarım saat oxusun deyə, elə o müğənnilərdən birinə 5 min manat pul saymışdı. Təsəvvür edin, ayağı yerdən götürəcək bir maşının, ortabab rayonda bir neçə sot torpağın qiyməti... Halbuki bu adamı dindirəndə elə toyuna 5 min verib çağırdığı müğənni haqqında “mavinin biridir” deyən birisi idi. Ya da şəhərin ən məşhur prospektlərindən birini (Tbilisi) illərlə onların ixtiyarına vermədikmi? Bəlkə şəhər sakinləri buna etiraz olaraq gedib prospektdəki yolları bağladılar? Yooox... Kriminal xronikaya göz ataq. Fərqli cinsi orientasiyası olduğu üçün olmaya gündə neçə nəfərsə döyülür, ya da qətlə yetilir? O halda biz hansı homofobiyadan danışırıq?

Qlobal dünya, liberal dəyərlər, bağ, bostan, tarla... haqq-hesabına isə heç girməyəcəm. “Homoseksuallıq yox, rüşvətxorluq, xalqın malını talamaq əxlaqsızdır” demaqoqiyasından da uzağam. Çünki bunu zatən bilirik. Amma sizə o inkişaf etmiş dediyiniz dünya ölkələrindən bir neçə örnək gətirəcəm. Məsələn, Rusiyada qəbul edilən qanuna görə, homoseksuallığı təbliğ edən şəxs və qurumların 12500 avro məbləğində cəzalandırılması ilə bağlı qanun qüvvədədr.

Ya da Fransa nümunəsi. Ötən il Parisdə eynicinslilərin nikahına qarşı iki həftə boyunca etriaz aksiyaları keçirilmişdi. Etiraza səbəb isə eynicinsli nikah quranlara övladlığa götürmə hüququnun verilməsi, surroqat ana xidmətlərindən istifadə edilməsi və ya süni mayalanma üsulundan istifadəyə verilməsidir. Bununla belə, Fransa hökuməti birmənalı olaraq bəyan edib ki, “ailə haqqında” yeni qanun layihəsində bu məsələlər qeyd edilmir. Bu hadisə də Fransada olub, diqqətinizi çəkirəm, Fransada...

İki il öncə Türkiyədə ilk bölümündə homoseksuallarla bağlı yarım dəqiqəlik bir səhnə göstərən, bununla da reytinq qazanmağa çalışan bir serial dərhal yayımdan çıxarıldı, həmin kanala da ciddi cəza verildi.

Örnəkləri artırmaq olar, amma necə deyərlər, toplananların yerini dəyişəndə cəm dəyişmir. Homoseksuallığa görə intihar etməzlər, insanı da intihar həddinə çatdırmazlar, doğru. Amma hünər və ya qəhrəmanlıqmış kimi camaatın gözünə də soxmazlar.

Sayğı, bəylər, bir azca sayğı...

YENİ MÜSAVAT
N 17 (6045) 26 yanvar 2015

# Bakı apteklərində də nisyə dəftərləri var

## Əməkdaşımız paytaxtın dərman satışı şəbəkəsindəki çatışmazlıqlardan yazır; preparatların vahid qiymətə satılmaması xəstələrə əlavə problem yaradır…










**Apteklərdə satılan dərman preparatlarının qiyməti eynilik təşkil etmir. Paytaxtın mərkəzində hər hansı bir aptekdən alınan dərmanın qiyməti ilə şəhərdən kənarda yerləşən apteklərdə satılan dərmanların qiyməti yerlə göy qədər fərqlənir. Bəzən eyni adlı dərman preparatı dörd müxtəlif qiymətə satılır.**

Buna görə də xəstəxanaya yolu düşənlər əlində resept bəlkə də günlərlə aptekləri gəzir ki, daha ucuz satılan yeri tapsın. Bir neçə gün vaxt və əsəb gərginliyi sərf edərək gəzən alıcılar müqayisə apardıqdan sonra nisbətən ucuz yeri seçib üz tuturlar. Bir neçə gün vaxt itkisi isə təcili dərman lazım olan xəstələrin səhhətinə mənfi təsir edir. Mütəxəssislər bildirirlər ki, dərmanların satışından əldə olunan gəlir təkcə aptek sahiblərinin yox, bir çox həkimlərin də cibinə gedir. Belə ki, xəstəxanalarda çalışan bəzi həkimlər buradan özünə müəyyən faiz götürür. Bunun özü də dərman satışını həyata keçirən müəssisə rəhbərinə qiyməti qaldırmaq fürsətini verir.

Apteklər arasında ciddi qiymət fərqini araşdırmaq üçün əlimizə bir resept alıb bir neçə aptekə baş çəkdik. Şəkər xəstələri üçün nəzərdə tutulan Lantus iynəsi 1 aptekdə 11 manat, digərində isə 10 manata satılırdı. Təzyiq iynəsi olan kofeinin bir kapsulası Təbriz küçəsi adlanan ərazidə 20 qəpik, "Neftçilər" metrosu yaxınlığındakı aptekdə isə 50 qəpiyə satılırdı. Aksen Fort ağrı kəsicinin 1 ədədinin qiyməti "28 May" metrosu yaxınlığında 40 qəpik, "Əhmədli" metrosu yaxınlığında isə 30 qəpiyə satılırdı.

"Neftçilər" metrosu yaxınlığındakı aptekdə olduğumuz vaxt bir alıcının əlindəki resepti hesablatdırıb, amma heç nə almayıb ümidsizliklə aptekdən uzaqlaşmasının şahidi olduq. Alıcıya yaxınlaşıb apteklərdəki qiymət fərqi ilə bağlı fikrini aldıq.

Simuzər Ağayeva kimi özünü təqdim edən qadın əlindəki reseptin 142 manat pul tutduğunu dedi: "Resept həyat yoldaşımındı. O xəstədir və bu dərmanlar təcili alınmalıdır. Amma qiymətlərə baxanda bunu necə alacağıq, bilmirəm. Elə 150 manat təqaüd alıram. Onun 142 manatını dərmana verib, bir ayı necə dolanaq, nə yeyib, nə içək? Artıq 3-cü aptekdir gəzirəm. Gedib evimin yanındakı aptekdən alacam. Orada dərmanların qiyməti burdakından 22 manat az tutmuşdu. Yarısını da nisyə alaram, başqa çarəm yoxdur".

Qiymətlərin niyə belə fərqli olduğunu soruşduqda əczaçı xanım "bizə nə qiymət deyirlərsə, o qiymətə də satırıq" deyə cavab verdi. Aptekin də nisyə dəftərinin olub olmadığı ilə maraqlandıq. Əczaçı xanım qalın bir dəftər çıxararaq onun nisyə dəftəri olduğunu dedi: "Dərmanlar bahadır. Bəzən elə əlacsız adam olur ki, o dərmanı təcili almalıdır. Ancaq pulu olmur. Belə olanda tanıdıqlarımıza nisyə dərman satırıq. İnsanlıq halıdır deyirik. Sağ olsunlar ki, dedikləri vaxt gətirib qulunu verirlər".

Qeyd edək ki, bir neçə gün öncə baş nazirin müavini Əli Əhmədov da açıqlamasında dərman preparatlarının qiymətlərinin tənzimlənməsi istiqamətində işlər aparıldığın bildirib. Ə. Əhmədov Azərbaycanda satılan dərman vasitələrinin həm keyfiyyətinə nəzarətin ciddi şəkildə artırılmalı, həm də onların qiymətinin süni surətdə bahalaşmasının qarşısının alınmasının vacibliyini vurğulayıb: "Bunun bir neçə variantı ola bilər. İndi bununla əlaqədar yəqin ki, Azərbaycan hökuməti normativ bir sənəd qəbul edəcək. Ümumiyyətlə, bununla bağlı Milli Məclisdə təklif etdim ki, dərmanların qiymətinin yuxarı həddi müəyyən edilsin. Hər dərman, hər preparat üçün. Hər adamın dərman satmaq imkanı olmasın. Ondan aşağı kim istəyirsə sata bilər. İndi Azərbaycan hökuməti, Nazirlər Kabineti normativ aktı qəbul edəcək, yəni yuxarı hədd müəyyən edəcək".

Xatırladaq ki, digər ölkələrin əksəriyyətində dərman preparatlarının qiymətinə dövlət nəzarət edir və bütün apteklərdə dərmanlar vahid qiymətdə satılır.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**



## Atası qəza törətdi, 15 yaşlı qızını itirdi…

**Bakıda ölümlə nəticələnən yol qəzası baş verib. Lent.az-ın verdiyi məlumatına görə, Sabunçu rayonu ərazisində Ramin İbrahimovun idarə etdiyi "Mercedes" markalı avtomobil maneəyə çırpılıb.**

Nəticədə avtomobildə olan sərnişinlərdən sürücünün qızı, 2000-ci il təvəllüdlü Salayeva Cəvanə Ramin qızı ağır bədən xəsarətləri alıb. 15 yaşlı qız xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı araşdırmalar aparılır.



## Qızıləhmədi alması və şabalıd ağacları məhv ola bilər

**İsmayıllı, Şəki və Qəbələdə qızıləhmədi alması sortunun, həmçinin şabalıd ağaclarının tamamilə məhv olmaq təhlükəsi var. Bu barədə virtualaz.org saytına kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov məlumat verib.**

V.Məhərrəmov bildirib ki, Şəki, Zaqatala, Şamaxı, İsmayıllı, Qəbələ və digər bölgələrdə də meyvə ağacları da daxil olmaqla ağac və kol bitkilərinin məhv olma təhlükəsi yaranıb: "Xüsusilə Şəki bölgəsində suvarma ilə bağlı problemlər yaranıb, dağların suyu çəkilib. Ancaq ağacların məhv olma təhlükəsi yalnız suvarma ilə bağlı deyil. Bəzi ərazilərdən otlaq kimi istifadə olunur ki, bunun da təsiri var".

Ekspertin sözlərinə görə, fermerlər ağacların, kolların qorunması ilə bağlı məlumatsızdır: "Amma ağacların və kolların qorunmasını yalnız təbiətin ümidinə buraxmaq olmaz. Qlobal iqlim dəyişikliyi baş verir, ağaclar bu dəyişikliyə dözə bilmirlər. Burada kömür istehsalı, meşələrin qırılması da rol oynayır. Buna görə də məhv olmaq təhlükəsi ilə üzləşən bitkilərin qorunması üçün ciddi tədbirlər həyata keçirilməlidir. Yeni ağacların əkilməsi problemin tam həlli deyil. Əks halda ağacların məhv olmasının fəsadları ilə rastlaşacağıq".

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# Türmədə baş tutan ilginc evlilik hekayələri

## Qadınların bir arqumenti olur: Azadlıqda belə kişilər yoxdur!

**Ötən həftə ölkə gündəmini evli olmadığı halda türmədə dünyaya uşaq gətirən Lamiyə Quliyevanın hekayəsi də çalxaladı. Başda media nümayəndələri olmaqla ictimaiyyət hazırda “o atanı tapın” deyə maraq içindədir. “Şübhəlilər” bir-bir mediaya danışır, əlaqədar qurumlar “biz heç kimin ana olmaq hüququnu tapdaya bilmərik” tipli demoqoqiya ilə məşğuldur. Ölkədə serial adına normal sektor olsa, ssenaristlər bu hekayəni çoxdan qələmə alar, tamaşaçılara çatdırardı.**

### İzmir türmələrində nikah mərasimləri 8 martda baş tutur

Amma bu mövzu bizə türmədə evlilik, ana-ata olmaq hüququ kimi maraqlı bir məsələni araşdırmaq imkanı yaratdı. Hansı ölkədə vəziyyət necədir? Məhkumlara evlənmək hüququnu verirlərmi? Verirlərsə bu, qanunla necə tənzimlənir, dünyaya uşaq gətirənlərin hüquqları hansı formada qorunur, hansı üstünlüklər qazanırlar...

Türkiyədən başlayaq. Bu günə qədər bu ölkədə məhkumların nikah mərasimləri ilə bağlı dəfələrlə ölkə mediası yazıb. İzmirin Buca bölgəsindəki Qapalı-Açıq Cəza Qurumunda dəfələrlə belə nikah mərasimi gerçəkləşdirilib. Bu cür tədbirlər adətən 8 Mart dünya qadınlar günündə baş tutur. Ötən il biri qadın olmaqla 11 məhkum türmədə nikaha girib. 2013-cü ildə isə 82 cütlüyün nikahı məhz cəza evində baş tutub. İzmir şəhər baş prokuroru Emin Özler bildirib ki, türmədə gerçəkləşən nikahlar öz romantikliyi və xüsusi sədaqəti ilə fərqlənir. Belə ki, insanlar burda sevdiklərinə olan sevgilərini xüsusi sübut etmək üçün nikaha daxil olur.

### Rusiyada türməyə ağ limuzinlə gəlib məhbusla evlənənlər var

Rusiyada da vəziyyət bundan fərqli deyil. Bu ölkənin həbsxanalarında da nikah mərasimləri həftədə ancaq bir dəfə keçirilir. Doğrudur, burda elə dəbdəbəli mərasimlərdən söhbət gedə bilməz. Çox sadə, səs-küysüz, təfərrüatsız. Mərasim görüş otağında keçirilir. Türmədə buna “uşaq otağı” deyirlər. Bu isə o qədər də böyük otaq sayılmaz - eni 2, uzunluğu 5 metr olan türmə otaqlarından gedir söhbət. Otağın divarları adətən çəhrayı rəngə boyanır ki, bu da məsələyə bir az bayram əhval-ruhiyyəsi qatır. Təyin edilmiş vaxt VVAQ işçiləri həbsxanaya gəlirlər, bəylə gəlin isə növbə ilə nikah otağına gətirilirlər. Onlara bəy kostyumu, gəlinlik paltarı geyinməyə icazə verilir. Amma musiqi çalınmasına icazə yoxdur, mərasim maksimum ciddi keçirilir. Hər iki tərəfdən ancaq yaxın qohumlar iştirak edir ki, onların da sayı 3 nəfərdən çox olmamalıdır. Dostların girişinə isə müəyyən limitlə icazə verilir. Nikah şahidi olaraq türmənin rəisi təyin edilir. Mərasimi foto və videokameranın yaddaşına köçürməyə də icazə var. Üzüklərin dəyişdirilməsi proseduru da baş verir. Amma əgər məhkum kişidirsə, onun içəri üzük aparmasına icazə yoxdur, onun üzüyünü də qadın gedəndə özü ilə aparır. Ta ki, azadlığa çıxacağı günə qədər özündə saxlayır. Təbii bu məqamda hər hansı alkoqollu içki ilə mərasimi qutlamaqdan söhbət belə gedə bilməz. Yeni evlilərə ancaq və ancaq alkoqolsuz şampan içməyə icazə verilir. Bu cür mərasimlər zamanı dəfələrlə yeni evlilərin qohumları içəri meyvə şirəsi qutusunun içində alkoqol salmağa çalışsalar da, bunu dərhal aşkar edib, üzə çıxarıblar. Ümumilikdə isə nikah mərasimi cəmi 3 dəqiqə çəkir.

### “Qadınlar sədaqətini göstərmək üçün məhbusla evlənirlər”

Rusiya türmələrində daha çox kişi məhbusların evlənmə hekayələri geniş yayılıb. Psixoloqlar hesab edir ki, burada məqsəd qadınların öz sədaqətini nümayiş etdirmə cəhdidir. Yəni, onlar sevdikləri kişini gözləyəcəklərini qanun qarşısında təsdiqləməyə çalışırlar. Və ən maraqlı məqam. Türmədəki sevdiyi ilə evlənən qadınların “daşdan keçən” arqumentləri isə aşağıdakı kimidir: “Azadlıqda belə kişilər yoxdur”.

Rusiyadakı türmə rəhbərləri mediaya müsahibələrində bildirirlər ki, məhbuslara göndərilən eşq məktublarının, açıqcaların sayı-hesabı yoxdur. Bu sevgiləri gücləndirən daha çox imkansızlıqdır. Bu günə qədər Rusiya həbsxanalarında şarla bəzədilmiş “Limuzin”lə gələn gəlinlər də olub. Amma bir qayda olaraq, gəlinlər türmədəki nikah mərasiminə taksi və ya şəxsi maşınları ilə gəlirlər.

### Azərbaycanda isə nikaha girən gənc ailəyə... hər cür şərait yaradılır

Bəs Azərbaycanda vəziyyət necədir? Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsindən bu mövzu ilə bağlı verilən açıqlamada bildirilib ki, həbsxanada nikaha girən gənc ailəyə hər bir şərait yaradılır. Məhkumlara cəzaçəkmə müəssisəsinin ərazisində dörd saatadək qısamüddətli və bir gündən üç günədək uzunmüddətli görüşlər verilir.

Qanunla nəzərdə tutulmuş qısamüddətli görüşlər qohumlarla və başqa şəxslərlə cəzaçəkmə müəssisəsinin nümayəndəsinin iştirakı ilə verilirsə, məhkumlara uzunmüddətli görüşlər birlikdə yaşamaq hüququ ilə yaxın qohumlarla (arvadı, əri, valideynləri, babası, nənəsi, övladları, övladlığa götürənləri və götürdükləri, nəvələri, qardaşları və bacıları) verilir.

“Məhkumların xahişi ilə uzunmüddətli görüşlər qısamüddətli görüşlərlə əvəz edilə bilər. Onlara müsbət təsir göstərə biləcək digər şəxslərlə görüş üçün cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən şərait yaradılır. Ağır xəstəliyi ilə əlaqədar həyatı üçün təhlükə yaranan məhkumun yaxın qohumlarına ona baş çəkmək üçün cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən imkan yaradılır” - deyə bildirilib.

Cəza növlərinə görə görüş vaxtları dəyişir. Məhkumlar bütün qaydalara riayət etdikdə onlara əlavə görüşlər verilməsi də təmin olunur. Məsələn, ağır cinayətlərə görə ilk dəfə məhkum olunanlar il ərzində qısamüddətli 24 görüş və uzunmüddətli 3 görüş almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq il ərzində qısa müddətli on iki görüş və uzun müddətli üç görüş almaq hüququna yiyələnirlər.

Ciddi rejimli cəzaçəkmə müəssisələrində xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər il ərzində qısamüddətli on iki görüş və uzunmüddətli iki görüş almaq hüququna malikdirlər. Xüsusi rejimli cəzaçəkmə müəssisələrində isə bu görüşlərin sayı azalaraq altı görüş və ikiyə düşür. Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda isə cəza müddətinin ən azı yarısını çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər.

Ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin saxlanılması şərtləri isə tamam fərqlidir. Belə ki, bu məhkumlar il ərzində qısamüddətli altı görüş və uzunmüddətli iki görüş almaq hüququna malikdirlər.

Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, təyin olunmuş cəzadan ən azı on il keçdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıla bilər. Bu halda məhkumlar əlavə olaraq ərzaq məhsulları və ən zəruri mallar əldə etmək üçün ayda iyirmi beş manatadək miqdarda pul xərcləyə bilərlər.

Görüşlərə gəldikdə isə il ərzində qısa olaraq iki görüş və uzunmüddətli bir görüş almaq hüququna malikdirlər.

❑ Sevinc TELMANQIZI





# Hüquq müdafiəçisi məhkumu öldürənləri cəzalandırmağa çağırdı

## İradə Cavadova: “Prokurorluq orqanı tərəfkeşlik etməməli, Elşad Babayevin öldürülməsində əli olan hər kəsi cinayət məsuliyyətinə cəlb etməlidir...”

**Ötən il dekabrın 22-də Penitensiar Xidmətin 14 saylı Cəzaçəkmə Müəssisəsində məhkum Elşad Babayev öldü. Məhkumun bacısı Simuzər Babayeva onun meyitinin fotolarını morqda çəkərək “Yeni Müsavat” vasitəsi ilə ictimailəşdirməklə qardaşının işgəncə ilə öldürüldüyünü bəyan etdi. Bildirdi ki, qardaşını müəssisə əməkdaşları döyüb işgəncələrə məruz qoymaqla ölümünə bais olublar.**

Bu il yanvarın 23-də isə S.Babayevaya qardaşının ölümü haqda şəhadətnamə təqdim olunub və orada qardaşının ürək tutmasından öldüyü qeyd olunub. Həmçinin bəlli olub ki, məhkumun ölümü faktına görə Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci (“Vəzifə səlahiyyətlərini aşma”) maddəsi ilə cinayət işi başlanıb. Bu maddə ilə istintaqa cəlb edilən şəxslər adətən min manat cərimə ödəməklə məsuliyyətdən kənar qalırlar.

Ortada bir insanın ölüm faktı olduğu bir vaxtda, onun ölümündən əvvəl zorakılığa məruz qalmasını təsdiqləyən fotolar mətbuatda yayıldığı zamanda Qaradağ Prokurorluğunda səlahiyyət həddini aşma maddəsi ilə cinayət işi başlanması qanunidirmi?

Hüquq müdafiəçisi, vəkil İradə Cavadova deyib ki, baş verənlər çox ciddi qanunsuzluqdur: “Baş vermiş olaya görə dövlət strukturları məsuliyyət və cavabdehlik daşıyır. Ortada sübutlar var və məhkumun döyülərək öldürülməsi ortadadır. Bu çox ağır cinayətdir. Faktiki adam öldürməkdir. Məhkum olsa belə, onu döymək, öldürmək cinayətdir. Burada vəzifə səlahiyyətlərini aşma cinayəti ilə yanaşı qəsdən adam öldürmə cinayəti də var. Təəssüf edirəm ki, bu günə qədər həmin cinayətə görə müəssisənin rəhbərliyi və işçiləri məsuliyyətdən kənar saxlanılıblar. Hesab edirəm ki, bu cinayət işi xüsusi nəzarətə götürülməli və həmin şəxslər çox ciddi şəkildə cəzalandırılmalıdırlar”.

Cavadova həmçinin, məhkumun yaxınlarının bir çox addımlar atmasının vacib olduğunu bildirib: “Ölkə rəhbərliyinə müraciətlər edilməli, iş üzrə sənədlər tələb edilərək şikayətlər verilməlidir. Ölüm səbəbi haqda düzgün ekspert rəyinin verilməsi üçün təkrar ekspertizanın keçirilməsi tələb olunmalıdır. Bu sıradan hadisə deyil. Burada cavabdehlik dövlət strukturlarının üzərinə düşür. Elşad Babayev dövlətin cəzaçəkmə müəssisəsində öldürülüb və bu məsələ ən ciddi şəkildə araşdırılmalıdır. Onu döyüb öldürən nəzarətçilər, müəssisə rəhbərliyi qəsdən adam öldürmə cinayətinə görə cavabdehlik daşımalıdırlar. Əks halda, həmin şəxslər orada saxlanılan digər məhkumları döyüb öldürə, şikəst edə bilərlər. Bu hadisə Azərbaycan dövlətinə başucalığı gətirməyən hadisədir. Belə əməllərə yol verənlər birmənalı olaraq cəzalandırılmalıdır. Təəssüf edirəm ki, prokurorluqda son vaxtlar ittiham aktları düzgün tərtib olunmur, məsuliyyətsizlik halları müşayiət olunur. Prokurorluq orqanı tərəfkeşlik etməməli və məhkum Elşad Babayevin öldürülməsində əli olan hər kəsi cinayət məsuliyyətinə cəlb etməlidir”.

Yada salaq ki, məhkum Elşad Babayevin ölümündən sonra onun meyiti Qaradağ rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb. Bacısı S.Babayeva orada qardaşının fotolarını çəkib və ictimailəşdirib. İş üzrə araşdırma aparmalı olan istintaq orqanına da həmin fotoları təqdim edib. Bir neçə gün əvvəl isə məlum olub ki, məhkumun ölümü ilə nəticələnən hadisə ilə bağlı Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşma maddəsi ilə cinayət işi başlanıb. Məhkumun bacısı S.Babayeva istintaqın gedişatı və ekspertizanın rəyi ilə razı deyil.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT

Son səhifə

N 17 (6045) 26 yanvar 2015

# Təmizkar ailənin uşağısansa, başın dərddədir

Türkiyəli alimlər gigiyena dəlisi olan valideynləri düşündürəcək yeni bir araşdırma hazırlayıb. Məlum olub ki, gigiyenik atmosferdə böyüyən uşaqlarda allergiya riski çoxdur. Ayaqyolulardakı gigiyena problemindən asılı olaraq bakterial infeksiya riski də böyüyür. Təmizkar ailədə böyüyən uşağın allergiyaya da meyilliliyi varsa, məktəbdə daha tez xəstəliyə tutula bilər. Bundan başqa, şişman uşaqların da allergiyanı çox ağır keçirdiyi üzə çıxıb. Uşaqları allergiyaya meylli olan valideynlərin evdə siqaret çəkməməsi tövsiyə olunur. Alimlər bildirir ki, allergiyaya genetik bağlılığı olan və xüsusilə həssas böyüdülən uşaqların Günəş görən sinifdə oxuması məsləhətdir. Bundan başqa, həmin məktəbdə siqaret çəkilməməli və siniflərin havası tez-tez dəyişməlidir.





## Sevgi görməyən uşaq qısaboylu olur

Uşaqların boy problemi günümüzün aktual mövzularından biridir. Türkiyənin Nəcməddin Ərbakan Universiteti professoru Mehmet Emre Atabek bildirib ki, uşaqların boyu ana qarnında artmağa başlayır və yeniyetməlik dövrünün sonuna qədər davam edir. Uşaqlarda qısaboyluluğun müxtəlif səbəbləri olduğunu deyən professorun sözlərinə görə, xüsusən xroniki xəstəliklər və yetərsiz qidalanma da boy problemi yaradır. Amma maraqlıdır ki, boy probleminin səbəbləri sırasında sevgisizlik də yer alır: "Valideynləri tərəfindən sevilməyən, sosial problemləri çox olan ailələrin uşaqlarında boy problemi xüsusən müşahidə olunur. Ata-anadan ayrı böyüyən ya da valideynləri ayrılmış uşaqlar xüsusən sevgisiz böyüyürlər. Bu uşaqların boy artımında bir fasilə görünür. Sevgi görməyən uşaqlar xəstəxanaya göndəriləndə isə onlar heç dərmandan istifadə etmədən boy problemi yoluna qoyulur. Burada uşağa sevgi, psixoloji dəstək verilir. Professor deyib ki, sevgi olmayanda böyüməni təmin edən proteinlərdə də dəyişiklər yaşanır.

## Siqaret tüstüsü yaddaşsızlıq yaradır

İnsanların əksəriyyəti passiv siqaretçəkmənin təhlükəsini lazımınca qiymətləndirə bilmirlər. Lakin mütəxəssislər bu yaxınlarda onun insanın perspektiv yaddaşına mənfi təsir etdiyini aşkara çıxarıblar. "Trend"in məlumatına görə, bu barədə Rusiya KİV-i xəbər verir. Britaniyanın Nortumbriya Universitetinin əməkdaşlarının sözlərinə görə, perspektiv yaddaş müəyyən vaxta planlaşdırılmış hərəkətlərin yadda saxlanmasına cavab verir. Alimlər apardıqları təcrübə zamanı onun pisləşməsini müşahidə ediblər. Tədqiqatda 27 siqaret çəkən, 27 passiv siqaret çəkən və tütün tüstüsünün müntəzəm təsirinə məruz qalmayan 29 şəxs (hamısı 18 -30 yaş arasında olan şəxslər) iştirak edib. İştirakçıların hamısını vəziyyəti Kembric perspektiv yaddaş testinin köməyi ilə qiymətləndirilib. Bu zaman yaş, intellektual səviyyə, dərmanların qəbulu nəzərə alınıb. Passiv siqaret çəkənlər orta hesabla 4,5 il ərzində həftədə 25 saat tüstünün təsirinə məruz qalıblar. Ən yüksək perspektiv yaddaş göstəricisi ümumiyyətlə, tüstü ilə təmasda olmayan üçüncü qrupun iştirakçılarında qeydə alınıb. Lakin aktiv və passiv siqaret çəkənlərdə o müvafiq olaraq 30 faiz və 20 faiz azalıb. Alimlərin gəldikləri qənaətə görə, tütün tüstüsü ilə təmas insana onun gündəlik həyatında lazım olan koqnitiv (ingiliscə cognition-bilik deməkdir) funksiyalarına mənfi təsir göstərə bilər.






## Savadlı qadınlar ana olmaq istəmir

Araşdırmalar göstərib ki, ABŞ-da 1982-ci ildə 2,4% qadın ana olmaqdan imtina etmişdisə, bu say 1995-ci ildə 6,6%-ə çatıb. Hal-hazırda faiz daha da yüksəlib. Toronto Universitetində işləyən Devid Fut bu qənaət gəlib ki, cəmiyyətdə ali təhsilli qadınların sayı artdıqca ana olmaq istəyənlərin sayı azalır. Bu fikirlər "child free" terminində əks olunur. Bunun da tərcüməsi "uşaqdan azad" mənasını ifadə edir. Bu söz əsl qadın humanizmində yad olsa da, onun tərəfdarları cəmiyyətdə heç də az deyil. Bəzi xanımlar gec ana olmaq istəyir, bəziləri isə ümumiyyətlə, ana olmaq istəmir. Beləlləri hesab edirlər ki, onların uşaqları böyütmək üçün kifayət qədər səbirləri yoxdur. Uşağın çirkli paltarını yumaq, vaxtında yedizdirmək və onun səs-küyünə qulaq asmaq onların həyat prinsiplərinə daxil deyil.

## Qoroskop




**QOÇ** - Gün ərzində özünüzü bütünlüklə fəaliyyətə həsr etməlisiniz. Münasibət və alqı-satqı məsələlərinə isə həvəs göstərməyiniz məqsədəuyğun deyil. Axşam işgüzar söhbətlər aparmaq sizə səmərə verəcək.

**BUĞA** - Havaların qeyri-sabitliyi sizə mənfi təsir göstərməkdədir. Odur ki, var gücünüzlə sağlamlığınızı qoruyun. Nahardan sonra şəxsi işlərinizdə böyük dəyişikliklər mümkündür.

**ƏKİZLƏR** - Təzadlı bir gün yaşayacaqsınız. Ətrafınızda cərəyan edən situasiyalar gah müsbət, gah da mənfi istiqamətə yönələ bilər. Belə məqamlarda dostlarınızla birgə olmağa çalışın.

**XƏRÇƏNG** - Özünüzü lovğa və ya təkəbbürlü aparmayın. Bu gün sizə sadə görünmək lazımdır. Bu yolla özünüzə qarşı rəğbət oyada bilərsiniz. Günortadan sonra qarşınıza yaxşı adamlar çıxacaq.

**ŞİR** - Pulla bağlı problemləriniz olsa da, qalan məsələlərdə ovqatınız xoş olacaq. Xüsusən də münasibətlər zəminində cərəyan edən proseslərdə rahatlıq tapacaqsınız. Uzaq yola çıxmayın.

**QIZ** - Ulduzların düzümü səfərə çıxmaq üçün münasib vaxt olduğunu bildirir. Maddi durumunuz imkan verirsə, bundan imtina etməyin. Ətrafınızda olan insanları real qiymətləndirməkdə yanılmayın.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvim sizə düşərli olacaq. Çünki ulduzlar xoş ovqat və qazanc əldə edəcəyinizi bildirir. Oturaq işlərə çox da həvəs göstərməyin. Aktivliyinizi artırın.

**ƏQRƏB** - İkitərəfli əməkdaşlıq çox uğurludur. Əlavə adamlar planlarınızı poza bilər. Tanınmış şəxslərlə əlaqələrinizi dərinləşdirin. Günün ikinci yarısında yeni simalarla görüşləriniz mümkündür.

**OXATAN** - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün başlıca vəzifəniz sağlamlığınızı qorumaq olmalıdır. Digər məsələlərə isə ciddi yanaşmağa ehtiyac yoxdur. Əsas gücünüzü istirahətə verin.

**OĞLAQ** - İxtiyarınızda olan bu təqvimdə heç bir narahatçılığınız gözlənilmir. İşgüzar sövdələşmələrdə iştirak etsəniz, növbəti ayda probleminiz yaranmayacaq. Pulla bağlı ehtiyatlı olun.

**SUTÖKƏN** - Yaxşı olar ki, bürcünüzün "hakim" olduğu bu ərəfədə hisslərinizi cilovlayasınız. Əks təqdirdə arzulamadığınız qalmaqala tuş gələcəksiniz. Yeni əlaqələr uğurdan xəbər verir.

**BALIQLAR** - Sürprizlərlə dolu bir gün yaşayacağınız güman olunur. Ola bilsin ki, bu təqvim 2015-ci ilin ilk yaddaqalan tarixinə çevrilsin. Hər cəhətdən buna hazırlaşın. Hər bir prosesə soyuqqanlı yanaşın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 86 yaşlı qadın bədəninə tatuirovka vurdurdu



Böyük Britaniyadan olan təqaüdçü İv Koldinq həyatında ilk dəfə tatuirovka vurdurub. 86 yaşlı qadının bədəninə şəkli çəkən şəxs isə tatu studiyası olan nəvəsi olub. 26 yaşlı nəvə Beki Sanderson deyib ki, 4 il əvvəl studiyasını açan gündən nənəsini tatuirovka vurdurmaq üçün məcbur etmək istəyib. İndi 86 yaşlı qadının bədənində çox da böyük olmayan gül şəkli var. Nəvənin dediyinə görə, yaşlı nənəsi proses boyunca səsini də çıxarmayıb, sadəcə, bir neçə dəfə "of" çəkib. Yaşlı qadın özü də ixtisasca rəssamdır. Amma demək lazımdır ki, İv Koldinq bədəninə tatuirovka vurduran ilk yaşlı qadın deyil. Bundan bir neçə il əvvəl 99 yaşlı Mimi Rozental da ilk tatuirovkasını vurduraraq rekorda imza atıb. Hazırda 101 yaşı olan bu qadının bədənində düz 3 ədəd tatu var.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300